Ləman Verdiyeva
Mələk Kərimova

# Sosial Psixologiya

*Dərs vəsaiti*

Xəzər Universitetinin Elmi Şurasının
3 oktyabr 2018-ci il № 1/18-19 -li
protokolu və Humanitar və sosial Elmlər
fakultəsinin elmi şurarasının pratakolundan çıxarış
11 iyun 2018-ci il №10
Psixologiya Departamentinin
23 oktyabr 2018-ci il Protokolu ilə təsdiqlənmişdir

Müəllim Nəşriyyatı
Bakı 2018

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

88.5я73
V40

© Müəllim Nəşriyyatı, 2018

Rəyçilər: *p.ü.f.d.* ***Aynur Bünyatova***
*"SIP" Psixoloji Mərkəzin rəhbəri*

*Dos.* ***İradə Xəlilova***
*Elmi İşlər üzrə Prorektor*
*Xəzər Universiteti*

İSBN 978-9952-31-195-6

## İçindəkilər

ÖN SÖZ ........ 5

MÖVZU 1. Sosial psixologiya elm kimi Elmi idrakın metodologiyası və metodikası ........ 7

MÖVZU 2. Sosial psixologiya və əsrin elmlər sistemi ........ 11

MÖVZU 3. Sosial-psixoloji təfəkkürün əmələ gəlməsi, inkişafı və tarixi məsələləri ........ 15

MÖVZU 4. Sosial psixologiyanın metodoloji və metodiki məsələləri. Nəzəriyyə. Eksperiment. Praktika ........ 19

MÖVZU 5. Sosial psixologiyanın tədqiqat metodları. Müşahidə metodu.Korrelyasiya metodu. Eksperiment metodu. Kross-mədəni tədqiqatlar. Statistik metodlar ........ 23

MÖVZU 6. Şəxsiyyətin sosial- psixologiyası, Sosial psixologiyada şəxsiyyət problemi Mənlik şüuru ........ 28

MÖVZU 7. Sosial psixologiyada qrup nəzəriyyəsi və şəxsiyyətlərarası münasibətlər ........ 32

MÖVZU 8. ŞƏXSİYYƏT VƏ MÜDAFİƏ ........ 43

Mövzu 9. Sosial psixologiyada qrup nəzəriyyəsinin ümumi məsələləri. Sosial qrupda şəxsiyyətin statusu fenomeni ........ 51

Mövzu 10. Kiçik qrupların sosial- psixoloji məsələləri ........ 56

Mövzu 11. Şəxsi qarşılıqlı münasibətlərin üç tərkibli strukturu və dərketmə paradoksu ........ 61

Mövzu 12 Qrup uyuşması. Qrup təzyiqi: qrupdaxili təlqin, konformizm və neqativizm fenomenləri ........ 65

MÖVZU13. Kiçik qrupun struktur xüsusiyyətləri. Gender və rəhbərlik (liderlik) problemi ........ 69

MÖVZU 14. Ünsiyyətin sosial psixologiyası. Ünsiyyət qarşılıqlı təsir prosesi kimi ........ 73

MÖVZU 15. Sosial psixologiyanın tətbiqi problemləri. Sosial- psixoloji xidmət. ........ 77

ƏLAVƏLƏR ........ 80

ŞƏXSİYYƏTİN SOSİAL PSIXOLOGİYASI ........ 80

Sosial davranışın mədəni müxtəlifliyi: individualizm və kollektivizm.... 97

Mədəniyyətlərarası adaptasiyanın xüsusiyyətləri ........ 102

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI ........ 111

# ÖN SÖZ

İnsan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, psixologiya elmi ora nüfuz etməsin. Təsadüfi deyildir ki, dünya standartlarına görə müasir mütəxəssislərin psixoloji hazırlığı onun peşə hazırlığının zəruri tərkib hissəsi sayılır.

Bu mənada sosial psixologiya da elmin mühüm sahələrindən biri hesab olunur. Sosial psixologiyanın tədqiq edib əldə etdiyi biliklər müxtəlif sahələrdə böyük praktik əhəmiyyətə malikdir.

İnsanlar arasında ünsiyyət və qarşılıqlı təsir prosesində meydana çıxan psixi hadisələri, insanların bir-biri haqqında necə fikirləşdiyini, onların bir-birilərinə necə təsir etdiklərini və bir-birilərinə necə münasibət göstərdiyini araşdırmaq sosial psixologiyanın əsas tədqiqat sahələrini əhatə edir.

Şəxsiyyətin sosial psixoloji problemləri də öz geniş əksini tapmışdır. Burada şəxsiyyət problemi psixologiyanın müxtəlif sahələrində nəzərdən keçirilsə də sosial psixologiya çərçivəsində daha geniş tədqiq olunur. Sosial psixologiya şəxsiyyətin davranış və fəaliyyətini mədəniyyətlərarası adaptasiyanın xüsusiyyətləri istiqamətində də araşdırır.

Dərs vəsaitində bu və ya digər psixoloji problemin şərhi ilə əlaqədar olaraq elmi ədəbiyyatlardan geniş istifadə olunmuş, inkişaf etmiş ölkələrin elmi-prakrik araşdırmalarına istinad olunmuşdur.

Təqdim olunan dərs vəsaiti “Sosial psixologiya” fənn proqramına müvafiq olaraq sosial psixologiyanın predmeti, elmi idrakın metodologiyası və metodikası, sosial psixologiyanın müasir elmlər sistemindəki yeri, sosial-psixoloji təfəkkürün meydana gəlməsi və tarixi inkişaf mərhələləri, tədqiqat metodları elmin müasir nailiyyətlərinə uyğun şəkildə işlənmişdir.

Dərs vəsaitində sosial davranışın mədəni müxtəlifliyinə də yer ayırmış, individualizmin və kollektivizmin ətraflı şərhi vermişdir. Vəsaitin sonuna əlavə edilmiş "Mədəniyyətlərarası adaptasiyanın xüsusiyyətləri", "Mədəniyyət sarsıntısı (mədəni şok)", " Mədəniyyətlərarası qarşılılqlı əlaqələrə hazırlıq" mövzuları xüsusilə xaricdə təhsil almaq istəyən gənclər üçün aktuallıq kəsb edir. Burada yeni şəraitə sosial-psixoloji adaptasiyanın mərhələlərindən bəhs olunur.

Dərs vəsaitinin yazılması prosesində, təbii olaraq, müəyyən çətinliklərlə də qarşıya çıxmışdır. Onlar, ilk növbədə, Azərbaycan dilində sosial-psixoloji terminlər lüğətinin olmamasında özünü büruzə vermişdir. Bundan başqa, Azərbaycan sosial psixologiyasında önəmli' sosial psixoloji problemlərin, deməк olar ki, hələ sistemli öyrənilməməsi ucbatından ayrı- ayrı məsələlərin şərhində xarici ölkə psixoloqlarının araşdırmalarına da müraciət edilmişdir.

Dərs vəsait fənn proqramına əsasən hazırlanmışdır və ali məktəblərin bakalavr pilləsində təhsil alan tələbələrin istifadəsi üçün nəzərdə tutulmuşdur.

*Müəlliflərdən*

*BAKI 2018-ci il*



# MÖVZU 1

## Sosial psixologiya elm kimi
## Elmi idrakın metodologiyası və metodikası

**Plan**

1. Elmi idrakın metodologiyası və metodikası: tədqiqatın obyekti və predmeti problemi.
2. Psixi həyatın sosial kökləri: interpsixika fenomeni.
3. Sosial psixologiyanın predmeti: D.Mayersin tərifi.

Elmi idrakın metodologiyası və metodikası

Hər bir elm haqqında söhbət açarkən diqqəti iki anlayış cəlb edir. Onlardan biri elmin obyekti, digəri isə predmeti və ya mövzusudur.

Elmin obyekti dedikdə onun tədqiq etdiyi obyektiv reallıq nəzərdə tutulur.

Müasir dövrdə insanı öyrənən 200-ə qədər elm sahəsi vardır. Başqa sözlə İNSAN müxtəlif elmlərin tədqiqat obyektidir.

Buna görə də elmlər öyrəndikləri obyektə görə deyil, əsasən predmetinə görə fərqlənir.

Sosial psixologiyanin predmetini nə təşkil edir?

Sosial psixologiyaya necə tərif vermək olar?

"Sosial psixologiya" söz birləşməsində "SOSİAL" sözünün özünəməxsus məntiqi mənası vardır: burada öyrənilən psixoloji hadisələrin yalnız spesifik cəhətləri "sosial" sözü ilə ifadə olunur. Başqa sözlə sosial psixologiya ayrı-ayrılıqda sosial və psixoloji hadisələri öyrənmir. Onun fenomenologiyasını sosial-psixoloji hadisələr təşkil edir.

Bəs bunu necə başa düşmək olar?

Psixi həyatin sosial kökləri: interpsixika fenomeni

İnsanin psixi həyatı sosial xarakter daşıyır. Həmin tutmuş əmək psixologiyasına qədər demək psixologiya elminin bütün sahələri üçün fundamental əhəmiyyətə malikdir.

L.S.Vıqotski bu cəhəti izah edərkən göstərirdi ki, uşağın istər ümumi psixologiya üçün, istərsə də yaş psixologiyasında inkişafında hər bir funksiya iki dəfə, iki planda- əvvəlcə sosial, sonra psixoloji planda, əvvəlcə insanlar arasında interpsixi, sonra isə uşağın daxilində interpsixi kateqoriya kimi meydana çıxır.

Bunu bir misalla-diqqət nümunəsində aydınlaşdıraq:

Əvvəlcə ana balaca uşağın diqqətini müəyyən bir cismə cəlb edir. O, əli ilə həmin cismi göstərərək deyir: gör nə qəşəng quşdur. Uşaq ananın göstərdiyi istiqamətdə quşa baxır. Bu şəraitdə diqqət ana ilə uşaq arasında bölünmüş funksiya – *interpsixi funksiya* kimi meydana çıxır.

Tədricən o, daxili prosesə yəni *intrapsixi funksiyaya* – uşağın özünəməxsus daxili funksiyasına çevrilir.

İnsan psixologiyasının *sosial xarakter* daşıması, ictimai münasibətlərlə şərtlənməsi psixologiya elmi üçün nəzəri metodoloji əhəmiyyətə malikdir. Psixologiya elminin ayrı-ayrı sahələri bu mühüm problemi qnoseoloji *aspektdə* təhlil edir.

Sosial psixologiya isə bu problemə nəinki *qnoseoloji*, həm də *ontoloji* baxımdan yanaşır, sosial-psixoloji faktların qanunlarını və mexanizmlərini geniş miqyasda öyrənir.

*İnterpsixika fenomeni sosial-psixoloji baxımdan xüsusi əhəmiyyətə malikdir. Hər bir insanın mürəkkəb və təzadlı aləmi-İNSANLAR aləmi var. Hər bir insan min bir qırılmaz tellərlə başqa adamlarla əlaqədardır.*

*Bu əlaqələr nəinki birbaşa, həm də dolayı, yaxud vasitəli xarakter daşıyır.*

İnsanın həyatının bütün sosial-psixoloji məziyyətləri bilavasitə bu kökdə qaynaqlanır. İnsan hətta tək olanda da bu aləmin qayğıları ilə yaşayır.

İnsanlar rabitə və münasibətlərə girərkən onun davranış və rəftarında fərd üçün səciyyəvi olmayan xüsusiyyətlər əmələ gəlir.

Məsələn: iki adamın qarşılıqlı təsiri şəraitində özünənəzarət prosesinin xarakteri köklü surətdə dəyişir və onlar intensiv surətdə inkişaf etməyə başlayır.



Sosial psixologiyanın predmeti: D.Mayersin tərifi.

Bəzi müəlliflərin fikrincə sosial-psixologiya fərdlərin davranışını sosial stimullatrın funksiyası kimi öyrənir (Yones,



Gerard və s).

Teqfel isə belə hesab edir ki, sosial-psixologiya insanın rabitələrini və sosial mühitdəki dəyişiklik öyrənir.

Q.Ollport Amerika sosial psixologiyasının inkişaf prosesini ümumiləşdirərək göstərirdi ki, sosial psixologiya başqa insanların – fərdin fikirlərinə, hisslərinə və davranışlarına necə təsir göstərdiyini öyrənən elmdir.

D.Mayersin tərifində isə sosial-psixoloji araşdırmaların bir-biri ilə bilavasitə bağlı olan və şərtləndirən 3 önəmli istiqaməti müəyyənləşdirilmişdir:

- ❖ Insanlar bir-birləri haqqında necə fikirləşirlər;
- ❖ Onlar bir-birlərinə necə təsir göstərirlər;
- ❖ Insanlar bir-birlərinə necə münasibət bəsləyirlər.

Sosial-psixologiya bu aktual problemi açıqlayanda 3 kateqoriyaya – *şəxsiyyət, qrup və ünsiyyət* kateqoriyalarına əsaslanır. Hər bir sosial qrup və kollektivdə isə insanlar şəxsiyyət kimi iştirak edir.

Onların münasibətləri şəxsiyyətlərarası münasibət kimi formalaşıb inkişaf edir. Ünsiyyət prosesi də həmişə şəxsi xarakter daşıyır.

Bu konteksdə də, sosial-psixologiya başlıca olaraq aşağıdakı problemləri təhlil edir:

**I. Şəxsiyyətin sosial- psixoloji problemləri.**

Şəxsiyyət problemini mahiyyət etibarilə bütün ictimai elmlər öyrənir. Lakin şəxsiyyət probleminin elə məsələləri vardır

ki, onların tədqiq olunması sosial-psixologiyanın vəzifəsi hesab olunur.

Şəxsiyyətin sosializasiyası, sosial yönümü və s. həmin məsələlər içərisində mühüm yer tutur.

Sosial psixologiyada şəxsiyyət müəyyən sistem, qrup və kollektiv daxilində tətbiq edilir, yəni başqa adamlarla birgə fəaliyyəti prosesində nəzərdən keçirilir.

**II. Qrupların sosial psixologiyası.**

Sosial psixologiya həm böyük, həm də kiçik sosial qrupları öyrənir. Bu baxımdan qrupların sosial-psixologiyasına daxildir:

a) Makromühitdə sosial psixoloji hadisələr;

b) Mikromühitdə sosial psixoloji hadisələr.

İnsanların ünsiyyəti və qarşılıqlı təsiri, nəinki fəaliyyətin məzmunundan, həm də qrupun inkişaf səviyyəsindən asılı olaraq müxtəlif xüsusiyyətlər kəsb edir.

Bu nöqteyi nəzərdən hər bir qrupun sosial-psixoloji xarakteristikasının öyrənilməsi böyük elmi-praktik əhəmiyyətə malikdir.

**III. Ünsiyyət və qarşılıqlı təsir prosesinin sosial-psixoloji problemləri.**

Ünsiyyət bütün sosial-psixoloji hadisələrin mənbəyini təşkil edir.

Sosial- psixologiyada ünsiyyət müxtəlif istiqamətlərdə - kommunikativ (informasiya mübadiləsi), interaktiv (qarşılıqlı təsir) və perseptiv (insanların bir-birini qavraması) baxımından təhlil olunur. Ünsiyyət və qarşılıqlı təsir real surətdə qruplarda baş verir

*Ədəbiyyat siyahısı*

1.Ə.Bayramov, Ə.Əlizadə Sosial psixologiya. Bakı 2003
2. Bayramov Ə. , Əlizadə Ə. Psixologiya. Bakı 1989
3.M.Həmzəyev Pedaqoji psixologiya. Bakı 1991
4.Андреева Г.М. Социальная психология. М. 1998



# MÖVZU 2

## Sosial psixologiya və əsrin elmlər sistemi

PLAN

1.Elmlərin təsnifatı: sosial psixologiya və yaxın elmlər.

2. Sosiologiya və psixologiya sosial psixologiyanın "ana fənni" kimi.

3. Sosial-psixoloji proseslər, problemlər və vəzifələr.

Akademik B.M.Kedrov tərəfindən təklif olunmuş elmlərin təsnifatında bu cəhət bütün aydınlığı ilə özünü göstərir. Həmin təsnifatda müstəqil elm kimi psixologiya elmin üç əsas sahəsi – fəlsəfi, sosial və təbii elmlər sistemində aralıq mövqe tutur, təbii və ictimai elmləri bir-birilə əlaqələndirən halqa rolunu oynayır.

Bunun əsas səbəblərindən biri ondan ibarətdir ki, İNSAN problemi bütövlükdə bütün elmlərin probleminə çevrilir.

Elmşünaslıqda bu proses "elmlərin psixolojiləşməsi" kimi xarakterizə olunur.

Sosial psixologiyanın öyrəndiyi məsələlər müxtəlif elmləri maraqlandırır. Həmin elmlərin tam olmayan siyahısı belədir:

Sosiologiya, demoqrafiya, estetika, etika, siyasi, hüquqi, iqtisadi elmlər, tarix, pedaqogika, dilçilik, kriminalogiya, semiotika, etnoqrafiya, antropologiya və s.

Həmin elmlərdən bir çoxu sosial psixologiyanın nisbətən müstəqil elm sahəsi kimi formalaşmasında mühüm rol oynamışdır.

II

Sosial psixologiya iki elmin – sosiologiya və psixologiya elmlərinin qovuşuğunda formalaşmışdır. Elmi biliklərin inkişafı baxımından bu, tamamilə qanunauyğun hesab olunur.

Elmlərin defferensasiyası və inteqrasiyası üçün səciyyəvi xüsusiyyətlərdən biri ondadır ki, 2 və ya 3 elmin sintezi zəminində yeni elm sahələri, məsələn: biofizika, biokimya, biogiokimya və s. kimi elmlər yaranıb inkişaf etməyə başlayıb.

Sosial-psixologiyanın əsas nəzəri-metodoloji problemlərinin həlli sosiolgiya və psixologiya ilə bilavasitə əlaqədardır.

Bir elm kimi sosiologiyanı təklikdə götürülmüş hər hansı bir fərd deyil, müəyyən bir əlamət və xassəyə görə qruplaşdırılmış fərdlər (yaş qrupuna görə, peşəyə görə) maraqlandırır. Sosiologiya nəzəri sosiologiya və tətbiqi sosiologiya kimi iki sahəyə ayrılır.

Sosial psixologiya - insan psixologiyasının cəmiyyətlə əlaqəsini bildirir.

Həmin elm sosiologiya ilə bilavasitə əlaqədar olsa da, sosial psixoloqu ayrılıqda ictimai və sosial şərait maraqlandırmır. Sosial psixoloqlar insanların bir-biri ilə qarşılıqlı münasibətlərinin xüsusiyyətlərini və ya qrupda sosial-psixoloji iqlimin xarakterini ictimai şəraitin inikas xüsusiyyətlərindən asılı olaraq öyrənir.

Deməli, ictimai şərait bilavasitə təsir etmir, qrupun və şəxsiyyətin sosial-psixoloji xüsusiyyətləri ilə qaynayıb qarışır və son nəticədə həmin xüsusiyyətləri müəyyən edir.

Sosial-psixoloji tədqiqatların müəyyən anlayışları və metodları ümumi psixologiyadan götürülmüşdür.

Məlum olduğu kimi psixologiya həm də psixi həyatın faktlarını və qanunauyğunluqlarını öyrənir.

Sosiologiya kimi psixologiyanın da nəzəri və tətbiqi sahələrini fərqləndirirlər.

Nəzəri psixologiyanı, adətən ümumi psixologiya da adlandırırlar.

Ümumi psixologiya obyektiv aləmlə, predmetlərlə insan arasındakı münasibətə daha çox diqqət yetirir. İnsanın aləmi necə dərk etməsi və dəyişdirməsi, informasiyanı qəbul edib yenidən işləməsi prosesinin daxili mexanizmini öyrənir.

Başqa sözlə, ümumi psixologiyada ön plana subyekt-obyekt münasibəti keçir. Sosial psixologiyada isə daha çox subyekt-subyekt münasibətləri tədqiq olunur.



Subyekt- subyekt münasıbətləri dinamik sistemdir. Buna görə də həmin hadisələri bir-biri ilə eyniləşdirmək olmaz. Onlardan hər birinin özünəməxsus xüsusiyyətləri var. Hər bir elm isə öz predmetini məhz spesifik cəhətlərini aşkar etməyə, bununla da özünün elmi nəzəri və praktik əhəmiyyətini sübut etməyə çalışır.

## III.

## Problemlər, vəzifələr

Əgər biz müasir ictimai həyatın ən mühüm xüsusiyyətlərinə diqqət yetirsək nəzərimizi cəlb edən cəhət onun dinamikliyi olacaq. İctimai həyatın dinamikliyi özünü ictimai münasibətlərin çevikliyində göstərir. Bu insanın psixi həyatında da nəzərə çarpır.

Urbanizasiya şəraiti, miqrasiya prosesləri, rabitələrin kütləviləşməsi, sosial rol və funksiyaların artması və s. ilə əlaqədar olaraq insanların psixi yükü nəinki artır, həm də onlar arasındakı münasibətlər sürətlə dəyişir, yeni xüsusiyyətlər kəsb edir.

Odur ki, müasir dövrdə ümumən insanın psixologiyasına deyil, ancaq onun münasibətlərinin xarakterinə nəzər salmaqla görmək olar ki, bu sahədəki meyl və istiqamətlər müxtəlifdir.

Ilk növbədə diqqəti cəlb edən cəhət odur ki, insanın bütün fəaliyyəti və həyat tərzi, onun insanlarla münasibətinin intensivliyi ciddi surətdə dəyişdiyi üçün onun psixi fəaliyyətinin sürəti, ritmi və buna müvafiq olaraq gərginliyi artır. Bu şəraitdə vaxt çatışmamazlığı daha mühüm psixoloji məna kəsb edir.

İnsanlar gərginliyi bu və ya digər dərəcədə azaltmaq məqsədilə davranış stereotiplərindən daha geniş istifadə etməyə başlayırlar.

Ünsiyyət üçün texniki vasitələrdən istifadə etmək imkanı genişlənir. Ünsiyyət daha artıq dərəcədə vasitəli səciyyə daşımağa başlayr.

Müasir dövrdə insanların bir-biri haqqında məlumat almaq, ona bələd olmaq imkanları həddən ziyadə genişlənmişdir.

Eyni zamanda şəxsiyyətin bilik dairəsi genişlənir, zehni kəskinləşir, mənəvi potensialı artır, tələbatı fərdiləşir, iddia səviyyəsi yüksəlir, özünüifadə meyilləri həyati məna kəsb edir. Bu əsasda da onun idrakı və duyğusu həssaslaşır, ünsiyyət məkanında daha zəif dalğaları tutmağa, əks etdirməyə qabil olur.

Insanların ünsiyyət sahəsinin optimallaşdırılması, ünsiyyət mədəniyyətinin yüksəldilməsi, kollektivdə sağlam psixoloji iqlimin yaradılması və s. aktual sosial-psixoloji problemə çevrilir.

Plyuralizm şəraitində şəxsiyyətin sosial-psixologiyasında yeni müyillər əmələ gəldi. Qrup həyatında yeni xüsusiyyətlər meydana çıxdı.ünsiyyət mədəniyyəti informasiya əsrinin başlıca probleminə çevrildi. Sosial idrak, insanın sağlamlığı, ekologiya və hüquq problemləri aktuallaşdı.

Konformizm, aqressiya, altruzim, tolerantlıq, attraksiya, suisid, tənhalıq, şəxsiyyətlərarası münasibətlər müasir sosial psixologiyada diqqəti daha çox cəlb edir.

Bu problemlərin öyrənilməsi ölkənin sosial-psixoloji problemlərinin həllində əhəmiyyətli rol oynayır.

*Ədəbiyyat siyahısı*

1. Ə.Bayramov, Ə.Əlizadə Sosial psixologiya. Bakı 2003
2. Bayramov Ə. , Əlizadə Ə. Psixologiya. Bakı 1989
3. M.Həmzəyev Pedaqoji psixologiya. Bakı 1991
4. Андреева Г.М. Социальная психология. М. 1998
5. Aronson,Wilson.Sosyal Psikoloji. Türkiye.2012



# MÖVZU 3

## Sosial-psixoloji təfəkkürün əmələ gəlməsi, inkişafı və tarixi məsələləri.

Plan

1. Sosial-psixoloji ideyaların inkişafı: birinci dövr
2. Sosial psixologiyanın müstəqil elm sahəsi kimi formalaşması: ikinci dövr
3. Sosial-psixologiyanın eksperimental elm kimi inkişafı: üçüncü dövr

Sosial psixologiyanın inkişafını ümumi şəkildə olsa da, üç dövrə bölmək olar:

1. Fəlsəfə və psixologiya sahəsində sosial-psixoloji biliklərin inkişafı (e.ə. VI əsr- XIX əsrin ortaları)
2. Fəlsəfə (sosiologiya) və psixologiya zəminində nisbətən müstəqil bilik sahəsi kimi təsviri-sosial psixologiyanın formalaşması (XIX əsrin 50-60 cı illəri- XX əsrin əvvəlləri)
3. Sosial psixologiyanın elm kimi inkişafı. Bu dövr də iki mərhələyə ayrılır;

*a) 1-ci mərhələ I dünya müharibəsindən sonrakı illərdən başlayır və 1945 ci ilə qədər davam edir;*

*b) 2-ci mərhələ sosial psixologiyanın müasir inkişaf proseslərini əhatə edir.*

Sosial - psixoloji ideyalarin inkişafı: birinci dövr

Sosial psixologiyanın kökləri qədimdir. Xalqın etnopsixologiyası mahiyyət etibarilə onun sosial-psixoloji görüşləri tarixidir. Ayrı-ayrı adət və ənənələr həm də müəyyən sosial-psixologi funksiyanı yerinə yetirirdi: onlar böyüklə kiçik, qadınla kişi arasında ünsiyyət formalarını nəinki mənəvi, həm də sosial-psixoloji cəhətdən tənzim edirdi.

Intibah dövründə insanı artıq dünyanın modeli kimi dəyərləndirdilər. Şəxsiyyət anlamı əmələ gəlirdi. "Mən" obrazı ədəbiyyat və incəsənət əsərlərində geniş təsvir olunurdu. Bu kökdə

də, sosial-psixoloji təfəkkür tipi tədricən formalaşırdı və inkişaf edirdi.

Sosial psixoloji ideyaların birinci dövrü üçün müəyyən xüsusiyyətlər səciyyəvidir. Hər şeydən əvvəl, belə bir cəhət diqqəti cəlb edir ki, birinci dövrdə sosial-psixoloji ideyalar ayrıca bir problem çərçivəsində deyil, daha çox ümumi psixoloji səpkidə şərh olunur. Bundan başqa, həmin ideyalar dövrün mütəfəkkir alim və sənətkarlarının əsərlərində sistem şəklində əks olunmamışdır. Onların öyrənilməsi və ümumiləşdirilməsinin mühüm elmi əhəmiyyəti vardır.

Sosial psixologiyanın müstəqil elm sahəsi kimi formalaşması: ikinci dövr

Birinci dövrdən fərqli olaraq artıq ikinci dövrdə ilk sosial-psixoloji tədqiqatlar aparılır və ilk sosial-psixoloji nəzəriyyələr, məs: M.Latsarus və Q. Şteyntalın "Xalqlar psixologiyası", Q. Lebon və S. Sigelenin "Kütlə psixologiyası", V. Mak-Dauqollun "Sosial davranış instinkləri" nəzəriyyələri yaranır.

Həmin nəzəriyyələr hələ təsviri xarakter daşıyırdı və əsasən empirik faktlara istinad edirdi. Bunu nəzərə alaraq sosial psixologiyanın inkişafının ikinci dövrünü, adətən təsviri dövr adlandırırlar.

İlk sosial-psixoloji nəzəriyyələrin Avropa ölkələrində yaranması da maraqlı idi. "Xalqlar psixologiyası" alman, "Kütlə psixologiyası" fransız və italyan, "Sosial davranış instinkləri" isə amerikada yayılmışdır.

Sosial-psixologiyanın 1-ci inkişaf mərhələsində olduğu kimi 2-ci mərhələsində də onun paradiqmaları müxtəlif sosial- mədəni hadisələrdə və proseslərdə əks olunurdu.....

Azərbaycanda sosial-psixologiyanın 2-ci mərhələsi bilavasitə maarifçiliklə bağlı olmuşdur.

XIX əsrin sonu-XX əsrin əvvəllərində sosial-psixologiya inkişaf etməyə və müstəqil elm sahəsi kimi formalaşmağa başlayır.



Bu inkişaf müxtəlif amillərlə-elm və ictimai tərəqqi ilə bağlı idi. Sosiologiyada psixoloji istiqamət, psixologiyada isə bu və ya digər dərəcədə sosial-psixoloji istiqamət yaranırdı, və tədricən həmin istiqamətlərin bir-birinə yaxınlaşması meyli müşahidə olunurdu.

Sosial-psixologiyanın eksperimental elm kimi inkişafı: üçüncü dövr

XX əsrin əvvəllərində psixologiya artıq eksperimental elm sahəsi kimi inkişaf edirdi.

Əsrin əvvəllərində sosial-psixologiyada müxtəlif yönümlərdə eksperimental tədqiqatlar aparılırdı. Sosial-psixologiyanın eksperimental elmə çevrilməsi prosesi iki əsaslı tarixi hadisə ilə əlaqədardır.

1. XX əsrin 30-cu illərinə qədər sosial-psixoloji fikrin mərkəzi Avropa sayılırdı. Dünya sosial-psixologiyasında Amerika sosial-psixologiyasının rolu xüsusilə qeyd olunmalıdır.

2. Sosial psixologiyada nəzəriyyələr təşəkkül tapır və bu nəzəriyyələr dövrün sosial psixoloji fikrinin istiqamətlərini şərtləndirir. Onlar sosial psixologiyanın tarixində xüsusi yer tutan köklü nəzəriyyələr idi. Bu nəzəriyyələr özlərinin metodologiyası və özünəməxsus sisteminə görə fərqlənirdi.

Müasir sosial psixologiyada iki nəzəriyyə - simvolik interaksionizm və sosial konstruktivist nəzəriyyələri də diqqəti xüsusilə cəlb edir.

Simvolik interaksionizm- insanın sosial davranışı haqqında sosioloji nəzəriyyələrə, ilk növbədə məşhur Amerika filosofu, sosioloqu və psixoloqu C.Midin konsepsiyasına istinad edir. Bu nəzəriyyədə sosial prosesin qanunauyğunluğu interaksiya kimi, konkret sosial situasiya çərçivəsində adamların qarşılıqlı təsiri kimi təfsir olunur.

K.D.Kergenin sosial konstruksionizm konsepsiyası 70-ci ildə formalaşmışdır. Bu konsepsiyaya görə sosial psixologiya humanitar xarakterli elmdir. Sosial konstruksionizm insan mü-

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

nasibətləri praktikasının əxlaqi konteksində öyrənilməsinə böyük əhəmiyyət verir.

*Ədəbiyyat siyahısı*
1. Ə.Bayramov, Ə.Əlizadə Sosial psixologiya. Bakı 2003
2. Bayramov Ə. , Əlizadə Ə. Psixologiya. Bakı 1989
3. M.Həmzəyev Pedaqoji psixologiya. Bakı 1991
4. Андреева Г.М. Социальная психология. М. 1998
5. Arorsor,Wilson,Sosyal Psikoloji. Türkiye.2012



# MÖVZU4

## Sosial psixologiyanın metodoloji və metodiki məsələləri. Nəzəriyyə. Eksperiment. Praktika.

**Plan:**
1. Nəzəriyyə. Eksperiment. Praktika.
2. Sosial-psixoloji tədqiqatın metodoloji məsələləri: konkret metodiki priyomlar.

1930- cu illərdə psixoloji tədqiqatlara verilən əsas tələblər belə idi: nəzəriyyəsiz eksperiment həm kordur, həm də kardır. Elmi texniki tərəqqi dövründə isə psixoloji tədqiqatın metodologiyası və metodikasının ən başlıca paradiqması aşağıdakından ibarətdir: *nəzəriyyə, eksperiment, praktika.*

Sosial psixologiyada tətbiqində tədqiqatlar əsasən iki istiqamətdə aparılır.

*Birinci istiqamət* üçün başlıca cəhət ondan ibarətdir ki, tətbiqi problemlər fundamental tədqiqatlar əsasında müəyyən olunur və ya nəticələr bilavasitə praktikaya tətbiq olunur.

Bir çox elm sahələrində aparılan fundamental tədqiqatların, məsələn texnikanın inkişafı üçün əhəmiyyətini xatırlasaq daha aydın olar. Bu cəhət psixologiya elmi üçün də səciyyəvidir.

Tətbiqi tədqiqatların inkişafında ikinci istiqamət də mühüm yer tutur: bu istiqamət daxilində tətbiqi tədqiqatlar bilavasitə fundamental tədqiqatların nəticəsi kimi deyil, praktik təlabatlar əsasında meydana çıxır.

Təbiətşünaslıq və texniki elmlər sahəsində tətbiqi tədqiqatların əhəmiyyəti, birinci növbədə onların iqtisadi səmərəsi ilə müəyyən olunur. Iqtisadi səmərə sosial-psixoloji tədqiqatlar sahəsində də mühüm göstərici hesab olunur.

Sosial-psixologiya sahəsində isə tətbiqi tədqiqatların psixoloji səmərəsi xüsusi əhəmiyyət kəsb edir.

Psixoloji tədqiqatlarda iqtisadi səmərə dolayı yolla, psixoloji səmərə vasitəsilə əldə edilir.

II. Psixoloji tədqiqatların metodları dedikdə, bu elmin öz predmetini, mövzusunu tədqiq etmək üçün istifadə etdiyi yol və vasitələrin məcmuyu nəzərdə tutulur. Sosial psixologiyanın da tədqiqat metodları onun metodologiyası ilə bağlıdır.

Metodologiya nədir? Müasir elmdə metodologiya termini üç mənada işlənir:

*1. Ümumi metodologiya;*

*2. Xüsusi metodologiya;*

*3. Metodologiya- konkret metodik priyomların məcmuyu kimi.*

*I. Ümumi metodologiya* -dedikdə, tədqiqatçının istinad etdiyi ümumi fəlsəfi yanaşma, ümumi idrak üsulu nəzərdə tutulur.

*II. Xüsusi metodologiya* – dedikdə, bir tərəfdən tədqiqatçının əsaslandığı sosial-psixiloji konsepsiya, digər tərəfdən sosial psixologyanın metodoloji prinsipləri nəzərdə tutulur. Bu prinsiplər müxtəlifdir.

Məsələn:

Determinizm

Determinizm-(latinca *determunase*- müəyyən etmək deməkdir)- ictimai və təbii hadisələrin səbəbi haqqında təlimdir. Psixologiyanın bir elm kimi inkişafı bilavasitə bu prinsipin əmələ gəlməsi və bərqərar olması ilə bağlıdır.

Determinizm prinsipi sosial psixologiyada sosial determinizm prinsipi kimi tətbiq olunur.

Sosial determinizm prinsipi sosial-psixoloji hadisələri, ümumi deyil, müəyyən bir cəmiyyətə məxsus sosial-psixoloji hadisələr kimi öyrənməyi tələb edir.

Sosial-psixoloji fenomenlər də sistemli xarakter daşıyır. Sistemli yanaşma prinsipi psixoloji hadisələri müxtəlif koordinatlar sistemində nəzərdən keçirmək və onları şərtləndirən amilləri elmi baxımdan təhlil etmək imkanı verir.

Fəaliyyət prinsipi



Sosial psixologiya fəaliyyət prinsipini özünün əsas prinsiplərindən biri kimi qəbul edərək onu öz predmetinin, xüsusilə, sosial qrupların xüsusiyyətlərinə müvafiq surətdə tətbiq edir.

Beləliklə, digər prinsiplərlə birlikdə *fəaliyyət prinsipi sosial-psixoloji tədqiqat* üçün özünəməxsus normativə çevrilir, tədqiqat strategiyasını müəyyən edir.

Xüsusi metodologiyanın da əsas vəzifəsi məhz bundan ibarətdir.

III. *Metodologiyanı konkret metodiki priyomların məcmuyu kimi* nəzərdən keçirdikdə, adətən sosial-psixoloji tədqiqat metodikalarını aydınlaşdırırlar. Hər bir sosial-psixoloji tədqiqatın konkret metodikası olur.

*Konkret tədqiqat metodikiası* ümumi və xüsusi metodologiya əsasında işlənilir.

Konkret tədqiqat metodikalarının spesifik cəhətləri, hər şeydən əvvəl,psixoloji hadisənin xarakteri ilə müəyyən olunur.

Psixoloji tədqiqatda informasiyanın dəqiqliyi öyrənilən adamların miqdarı ilə bilavasitə bağlıdır. Tədqiqat prosesində nə qədər çox adam öyrənilsə, informasiyanın dəqiqliyi bir o qədər mötəbər olar.

Konkret psixoloji tədqiqat metodikasında, şərti surətdə olsa da, dörd mərhələni fərqləndirmək olar.

*Birinci mərhələ*- hazırlıq mərhələsidir. Bu mərhələdə müxtəlif yollarla ilkin məlumat toplanılır: onların əsasında tədqiqatın empirik, məntiqi və nəzəri vəzifələri həll edilir.

*Ikinci mərhələ*- eksperimental(korrelyasiya) xarakter daşıyır. Bu mərhələdə tədqiqatın konkret metodikası reallaşdırılır.

*Üçüncü mərhələ*- tədqiqat materiallarının kəmiyyət baxımından təhlili adlanır.

*Dördüncü mərhələdə* - isə materiallar psixoloji nəzəriyyə əsasında şərh edilir. Nəticə etibarilə fərziyyənin düzgün və ya səhv olması aydınlaşdırılır.

*Ədəbiyyat siyahısı*

1. Ə.Bayramov, Ə.Əlizadə Sosial psixologiya. Bakı 2003
2. Bayramov Ə. , Əlizadə Ə. Psixologiya. Bakı 1989
3. M.Həmzəyev Pedaqoji psixologiya. Bakı 1991
4. Андреева Г.М. Социальная психология. М. 1998



# MÖVZU 5

## Sosial psixologiyanın tədqiqat metodları. Müşahidə metodu.Korrelyasiya metodu. Eksperiment metodu. Kross-mədəni tədqiqatlar. Statistik metodlar

**Plan:**

1. Müşahidə metodu.
2. Korrelyasiya metodu.
3. Eksperiment metodu.
4. Kross-mədəni tədqiqatlar.
5. Statistik metodlar

Sosial-psixologiya empirik elmdir və müxtəlif tədqiqat metodlarından uğurla istifadə edir. Bu metodlardan bəziləri əsas, bir qismi isə köməkçidir.

Köməkçi metodlar bir qayda olaraq əsas metodlarla qarşılıqlı əlaqələrdə tətbiq olunur.

Amerikan sosial psixoloqlarının – (E.Aropson, T. Uilson, R. Eykert 2002) təfsiri kökündə müasir araşdırmalarda geniş tətbiq olunan üç tip metod – müşahidə metodu, korrelyasiya metodu və eksperiment metodu nəzərdən keçirilir.

Müşahidə metodu

Bu metodun özünəməxsus texnikası var: bu zaman tədqiqatçı adamları müşahidə edir və onların davranışını sistemli təsbit edir.

Sosial psixologiyada müşahidə özünəməxsus ölçülərlə tətbiq olunur: müşahidə prosesində sosial-psixoloqu ayrı-ayrı sosial psixoloji fenomenlər, maraqlandırır məsələn: aqresivliyin təzahür xüsusiyyətləri.

Əgər tədqiqatçının məqsədi hər hansı sosial fenomeni təsvir etməkdən ibarətdirsə, müşahidə bu baxımdan ən səmərəli

üsuldur. Lakin onun məhdud cəhətləri və çatışmamazlıqları da var:

*1. Ona görə ki, davranışın müəyyən növlərini sadəcə müşahidə etmək mümkün deyil (məs: intim həyat)*

*2. Müşahidə üsulu öyrənilən sosial fenomenlərin mahiyyətini, sosial- psixoloji qanunauyğunluqlarını açıqlamaq imkanı vermir.*

Tədqiqat prosesində müşahidə metodu ilə yanaşı digər iki metoddan da geniş istifadə olunur.

Korrelyasiya metodu

Bu müşahidə metodu kimi özünəməxsus texnikadır. Lakin ondan mahiyyətcə fərqlənir.

Korrelyasiya metodunun vasitəsilə iki və ya daha çox kəmiyyət sistematik surətdə ölçülür və onların arasında təbii surətdə əmələ gələn qarşılıqlı münasibət müəyyən olunur. Müəyyən olunmuş mühüm kəmiyyətlər korrelyasiya metodu vasitəsilə təbii şəraitdə öyrənilir.

Müşahidə metodunda olduğu kimi, korrelyasiya metodunda da tədqiqatçı çox vaxt adamların davranışını bilavasitə müşahidə edir.

Sosial-psixoloqlar araşdırma zamanı:

a) adamların sosial iqtisadi statusu:

b) sağlamlığı kimi iki önəmli kəmiyyət müəyyən etmişlər.

Onları bir məsələ maraqlandırdı: görəsən, adamların sosial iqtisadi statusu ilə sağlamlığı arasında nə kimi əlaqə var? Sosial-psixoloqlar məsələnin mahiyyətini araşdırmaq üçün tədqiqat aparır. (qəbiristanlıqda aparılan tədqiqatlar)

Korrelyasiya metodunun mahiyyətini açıqlamaq üçün bir cəhəti zəruri surətdə qeyd etmək lazımdır. Korrelyasiya metodu ilə ancaq və ancaq iki kəmiyyət arasındakı qarşılıqlı əlaqə ölçülür. Bu zaman A-nin V ilə əlaqəsi müəyyən edilir. Onlar arasındakı səbəb nəticə münasibətləri isə aydınlaşdırılmır.



Korrelyasiya araşdırmaları eksperimental tədqiqat deyil, lakin bu baxımdan eksperimentə oxşayır. Bu cəhəti nəzərə alaraq onu bəzən *KVAZİEKSPERİMENT* adlandırırlar.

Eksperiment metodu

Ayrı-ayrı kəmiyyətlər arasında səbəb-nəticə münasibətləri ancaq bir yolla- eksperiment metodu ilə müəyyən olunur. Bu metodun əsas xüsusiyyətləri aşağıdakılardır:

- ✓ *eksperiment metodu səbəb-nəticə əlaqələri haqqında informasiyanı müəyyən edir;*
- ✓ *bu zaman tədqiqatçı eksperiment iştirakçılarını təsadüfi surətdə müxtəlif situasiyalara salır və şəraitin identik olmasını təmin edir;*
- ✓ *bir və ya bir neçə faktoru (asılı olmayan kəmiyyətləri) dəyişir;*
- ✓ *ancaq o biri faktorları olduğu kimi saxlayaraq onlara nəzarət edir.*

Eksperiment prosesində iki qrup – *eksperiment* və *kontrol* qruplar yaradılır. Eksperimental qrupun materialları kontrol qrupun materiallarına nəzərən təhlil edir. *Şəkil:*




*Eksperimental və kontrol qruplar*

*(D.Mayersə görə)* Bu kəmiyyəti tədqiqatçı müəyyən edir və onun asılı olmayan kəmiyyətlə necə şərtləndiyini yoxlayır. Bu

zaman tədqiqatçı belə hesab edir ki, asılı kəmiyyətin böyüklüyü asılı olmayan kəmiyyət ilə müəyyən olunacaq.

Eksperimental araşdırmaların özünəməxsus metodologiyası və metodikası var. Yuxarıda qeyd edildiyi kimi, say seçimi hər şeydən öncə, məqsədyönlü kompleksləşməlidir, yəni, *reprezentativ* olmalıdır: eksperimentin ehtiva etdyi qrupları müəyyən nisbət dairəsində əhatə etməlidir.

Bundan başqa, sosial-psixoloji eksperiment *daxili və xarici validliklə* seçilməlidir. Daxili validlik dedikdə situasiyanın identik olmasını nəzərdə tutur.

Eksperiment prosesində yalnız asılı olmayan kəmiyyət – eksperimentdə iştirak edən adamların miqdarı fərqlənməlidir.

Ümumiləşdirmənin iki növünü fərqləndirirlər:

1. Bir halda eksperimental situasiyanın özü ümumiləşdirilir və onun xüsusiyyətləri həyatda təsadüf olunan oxşar situasiyalara şamil edilir. Belə ümumiləşdirməyə *SİTUATİV* ümumiləşdirmə deyilir.

2. Eksperimentdə iştirak edən şəxslərin davranışının xüsusiyyətləri ümumiləşdirilir və onların kökündə bütünlüklə insan davranışının xüsusiyyətləri açıqlanır.

Belə ümumiləşdirməyə *İNSANLARA TƏTBİQ EDİLƏN* ümumiləşdirmə deyilir.

*METAANALİZ* adlanan xüsusi statistik texnika da mövcuddur ki, onun da vasitəsilə iki və daha çox tədqiqatın nəticələri qiymətləndirilir və asılı olmayan kəmiyyətlərin dayanıqlığı yoxlanılır.

Kross- mədəni tədqiqatlar

Hər bir xalqın özünəməxsus bənzərsiz mədəniyyəti var. *ŞƏXSİYYƏT* bu mədəniyyət kontiniumunda doğulur, böyüyür, ərsəyə çatır. Sosial-psixologiya nəzəriyyəsi və təcrübəsi kross-mədəni araşdırmalar vasitəsilə açıqlanır.

Kross- mədəni tədqiqatlar əsasən iki istiqamətdə aparılır:

a) müxtəlif mədəniyyətlər axarında müqayisəli araşdırmalar təşkil olunur.



b) hər bir xalqın mədəniyyəti, başqa sözlə, psixoloji tərcümeyi –halı üçün səciyyəvi elmi özünəməxsus xüsusiyyətlər müəyyənləşdirilir.

Dünya psixologiyasında müxtəlif istiqamətlərdə kross-mədəni tədqiqatlar aparılır. Kross-mədəni tədqiqatlar Azərbaycan sosial-psixologiyası üçün yeni bir istiqamətdir. Müasir dövrdə kross-mədəni araşdırmalar etnopsixoloji kökdə aparılır və burada sosial-psixoloji metodlardan geniş istifadə edilir.

Statistik (riyazi ) metodlar

Riyazi psixologiya XX əsrdə psixologiya elminin bir sahəsi kimi formalaşmağa başlasa da, statistik metodlar qısa müddət ərzində psixologiya elminin bir çox sahələrinə nüfuz edir.

Riyazi metodlar sosial-psixologiyada bir sıra problemlərin həllində müvəffəqiyyətlə tətbiq edilir.

Psixoloji tədqiqatlar göstərir ki, riyaziləşmək üçün problemin özü "yetişməlidir". Bunun üçün aşağıdakı şərtlər zəruridir:

a) *Müvafiq fenomen sahəsində kifayət qədər dəqiq və məzmunlu nəzəri konsepsiya olmalıdır;*

b) *Elə bir "empirik" baza olmalıdır ki, o, nəzəriyyəni yoxlamağa imkan verə bilsin;*

c) *Relevant kəmiyyətləri ölçmək üçün adekat metodlar olmalıdır;*

d) *Müvafiq fenomeni formalaşdırmaq imkanı verən riyazi sxemlər işlədilməlidir.*

*Ədəbiyyat siyahısı*

1. Ə.Bayramov, Ə.Əlizadə Sosial psixologiya. Bakı 2003
2. Bayramov Ə. , Əlizadə Ə. Psixologiya. Bakı 1989
3. M.Həmzəyev Pedaqoji psixologiya. Bakı 1991
4. Андреева Г.М. Социальная психология. М. 1998

# MÖVZU 6

## Şəxsiyyətin sosial- psixologiyası
## Sosial psixologiyada şəxsiyyət problemi
## Mənlik şüuru

**Plan:**

1. Sosial-psixologiyada şəxsiyyət problemi.
2. Şəxsiyyətin "Mən konsepsiyası" sosial-psixoloji problem kimi.

Müasir şəraitdə insan amili, şəxsiyyət amili xüsusilə aktuallaşıb. Şəxsiyyət problemi istər sosiologiyada, istərsə də psixologiyada xüsusi yer tutur.

Sosiologiya şəxsiyyət cəmiyyətin makrostrukturu kontekstində araşdırır və onu müəyyən sosial qrupun nümayəndəsi kimi öyrənir.

Sosiologiya üçün şəxsiyyət fərdiyyət deyil, necə deyərlər *"şəxsiyyətsiz şəxsiyyətdir"*, başqa sözlə, *sosial tipdir.* Alimlərin fikrincə, şəxsiyyətin sosial tipologiyası sosiologiya üçün başlıca problemdir. Sosiologiya sosial-psixologiya ilə həmsərhəd olan problemlərə, məsələn, sosialiozasiya problemlərinə də elə bu aspektdən yanaşır.

Bəs ümumi psixologiyada şəxsiyyət problemi hansı ölçülərlə açıqlanır? Bəzi alimlərin fikirlərinə nəzər salaq:

1. Q.V.Ollportun fikrincə, şəxsiyyət nə mental, nə də müstəqil olaraq sinir hadisəsi deyil. O, bu məsələyə xüsusi əhəmiyyət verirdi və elə buna görə də şəxsiyyəti psixofiziki sistemlərin dinamik təşkili kimi səciyyələndirirdi.

2. A.V.Petrovskiyə görə; psixologiyada şəxsiyyət dedikdə, fərdin əşyavi fəaliyyətdə və ünsiyyətdə mənimsədiyi sistemli (sosial) keyfiyyətlər nəzərdə tutulur.

3. K.K.Platonov şəxsiyyətin strukturunda aşağıdakı yarımstrukturları fərqləndirirdi:



I. Bioloji cəhətdən fərqlənən yarımstruktur (temperament, cins, yaş xüsusiyyətləri, psixikanın patoloji xassələri);

II. Şəxsiyyətin xassələrinə çevrilmiş ayrı-ayrı psixi proseslərin fərdi xassələri (hafizə, emosiya, duyğu, təfəkkür, qavrayış, hisslər və iradə);

III. Sosial təcrübə yarımstrukturu (insanın mənimsədiyi biliklər, vərdişlər, bacarıqlar və adətlər);

IV. Şəxsiyyətin istiqaməti yarımstrukturu (həvəslər, arzular, maraqlar, meyllər, ideallar və əqidə )

Q.M.Andreevanın fikrincə sosial psixologiya şəxsiyyətə ümumi psixologiyada verilmiş tərifdən istifadə edir, lakin belə bir məsələni açıqlayır ki, şəxsiyyət, bir tərəfdən, sosial təcrübəni hansı konkret qrupda mənimsəyir, digər tərəfdən, özünü bu qrupda necə reallaşdırır.

Başqa sözlə, sosial-psixologiya şəxsiyyətin davranış və fəaliyyətini real, konkret qruplarda öyrənir.

Şəxsiyyətin qrupla qarşılıqlı münasibətləri və onun qrupda ünsiyyətinin xüsusiyyətləri sosial psixologiya üşün köklü problemdir. Bu problemi təhlil etmək üçün cəmiyyətin məhz hansı qrup vasitəsilə şəxsiyyətə təsir göstərməsini araşdırmaq, onun "Mən-konsepsiyası"nı açıqlamaq, sosial münasibətləri necə qiymətləndirdiyini aydınlaşdırmaq, sosializasiya prosesinin xüsusiyyətlərini nəzərdən keçirmək zəruridir.

Şəxsiyyətin "Mən-konsepsiya"si

*MƏNLİK ŞÜURU* – insanın özünü şəxsiyyət kimi tanıması və dərk etməsi prosesidir. Mənlik şüuru dedikdə insanın özünün tələbat və qabiliyyətlərinə, fikir və hisslərinə, davranış və fəaliyyət motivlərinə şüurlu münasibəti nəzərdə tutur. Onun əsas əlamətləri aşağıdakılardan ibarətdir:

-- insan özünü bütün ətraf aləmdən, yəni "mən"ini, "qeyri-mən"dən ayırır, özünün fiziki, psixi və mənəvi keyfiyyətlərini qiymətləndirir və dərk edir, psixi həyatının bütün sahələrinə şüurlu münasibət bəsləməyə başlayır.

Mənlik şürunun strukturunda aşağıdakı üç cəhəti xüsusilə fərqləndirmək lazımdır:

*1. "Mən obraz" – insanın özü haqqında təsəvvürlərləri (buna psixoloji avtoportret də deyilir).*

*2. Özünüqiymətləndirmə - insanın özü haqqındakı təsəvvülərini adekvat surətdə qiymətləndirməsidir.*

*3. Potensial davranış reaksiyaları – insanın "Mən obrazı" və özünə verdiyi qiymətlərin onun davranış və rəftarında təzahür etməsi.*

*"MƏN"in kəşf olunması: Q.Gellapın təçrübələri*

Mənlik şüuru sözün əsl mənasında yeniyetməlik və gənclik yaşlarında formalaşsa da, onun qaynaqları əvvəlki yaş dövrlərinə təsadüf edir.

Müasir psixologiyada mənlik şüurunun formalaşması prosesinin köklərini araşdırarkən körpə uşaqların özlərini güzgüdə tanıması məsələsinə xüsusi diqqət yetirirlər. Körpə uşaq özünü güzgüdə və ya şəkildə nə vaxt tanımağa başlayır?

Zoopsixologiyada maraqlı metodikalar işlənmişdir. Q.Gellapın iki şempanze arasında keçirdiyi təcrübə maraq doğurur. Onun təcrübələrinə uyğun təcrübələr 16-22 ay uşaqlar arasın-da da aparılmışdır. Müəyyən olunmuşdur ki, uşaqlar özlərini ilk dəfə 18 aylıq olanda özlərini tanıyırlar, özlərini güzgüdə tanımaq 22 aylıq uşaqlar üçün adi işdir.

*ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ HAQQINDA*

Ozünüqiymətləndirmə termini iki sözdən özünü və qiymətləndirmə sözlərindən əmələ gəlmişdir.

Insanın özü haqqındakı təsəvvürlərinin formalaşması bilavasitə özünüqiymətləndirmə ilə bağlıdır.

Psixoloji tədqiqatlar özünüqiymətləndirmənin üç səviyyəsini müəyyənləşdirmək imkanı verir

1. Adekvat özünüqiymətləndirmə - insan özünün ayrı-ayrı keyfiyyətlərini düzgün qiymətləndirir.

2. Qeyri-adekvat yuxarı qiymətləndirmə- insan özünün ayrı-ayrı keyfiyyətlərini olduğundan yüksək qiymətləndirir.



3. Qeyri-adekvat aşağı qiymətləndirmə- insan özünün ayrı-ayrı keyfiyyətlərini layiq olduğundan aşağı qiymətləndirir.

Hələ XX əsrin axırlarında özünü qiymətləndirmənin şəxsiyyətin iddia səviyyəsi ilə bilavasitə əlaqədar olduğunu göstərən maraqlı faktlar müəyyən edilmişdir. 1890-cı ildə U.Cems həmin faktları aşağıdakı orijinal düsturla belə ifadə etmişdir:

*özünüqiymətləndirmə = müvəffəqiyyət / iddia*

Düsturdan da göründüyü kimi, özünüqiymətləndirmənin səviyyəsi iki mühüm amilin- müvəffəqiyyət və iddianın qarşılıqlı əlaqəsi ilə şərtlənir.

*Ədəbiyyat siyahısı*

1. Ə.Bayramov, Ə.Əlizadə Sosial psixologiya. Bakı 2003
2. Bayramov Ə. , Əlizadə Ə. Psixologiya. Bakı 1989
3. M.Həmzəyev Pedaqoji psixologiya. Bakı 1991
4. Андреева Г.М. Социальная психология. М. 1998

# MÖVZU 7

## Sosial psixologiyada qrup nəzəriyyəsi və şəxsiyyətlərarası münasibətlər

**Plan**

1. Qrup haqqında anlayış.
2. Qrupun təsnifatı.
3. Qrupun ölçüsü və ya həcmi problemi. Rengelman effekti
4. Psixoloji uyuşma. Qrup təzyiqi fenomeni.
5. Şəxsiyyətlərarası münasibətlər.
6. Liderlik və rəhbərlik. Liderlik üslubu.

QRUP HAQQINDA ANLAYIŞ

-İnsan cəmiyyət daxilində doğulub yaşayır. Hər bir fərd nəinki bioloji, eyni zamanda sosial irsə sahib olub, konkret -mühitdə və cəmiyyətdə mövcud yaşayış tərzini, görüşləri, adət və ənənələri təkrar edir. Bu baxımdan hər bir şəxs konkret cəmiyyətin məhsulu, öz dövrünün övladıdır. Burada -insan birliyi xüsusi rol oynayır. Əgər insan tək, tənha yaşasaydı nə onun bir şəxsiyyət kimi formalaşması, nə də öz tələbatlarını ödəməsi işi istənilən səviyyədə gedə bilməzdi. -Məhz buna görə də bəşər tarixində insanlar daima müəyyən qruplarda birləşir və fəaliyyət göstərirlər.

1. Bəs hər cür insan birliyini qrup adlandırmaq olarmı?

-2. Qrupları səciyyələndirən əsas amillər nədən ibarətdir?

Bu kimi suallara cavab vermədən qruplar, onların rolu və funksiyalarını da düzgün dərk etmək mümkün deyildir.

D.Mayersin qrupa verdiyi tərif diqqəti cəlb edir. «Qrup bir-birinə qarşılıqlı təsir göstərən, bir-birinə uzun müddət təsir göstərməklə özlərini «biz» kimi qavrayan iki və daha artıq insan birliyidir». Məhz buna görə də qrupları sosial mənsubiyyətə, birgə fəaliyyətin və ünsiyyətin xarakterinə görə birləşən insan birliyi kimi səciyyələndirmək lazım gəlir.



Qrup müəyyən struktura malik özünəməxsus sistemdir. Qrupa daxil olan hər bir adam onda müəyyən rol və vəzifə ifadə edir. Hər bir qrup özünün məqsədlərinə, normalarına, sərvət meyllərinə, sosial gözləmələrinə və s. müvafiq olaraq müxtəlif



formalarda öz üzvlərinə nəzarət edir, onları rəğbətləndirir və ya cəzalandırır.

Qrup üzvləri müvafiq normaları və sərvət meyllərini mənimsədikcə, sosial-psixoloji cəhətdən qrupun həyatında köklü dəyişikliklər əmələ gəlir: qrup üzvlərində qrupa mənsubluq hissi - «biz» hissi yaranır. Bunun psixoloji baxımdan ilk əlaməti ondan ibarətdir ki, qrupun hər bir üzvü qrupun nailiyyətlərini öz nailiyyətləri, müvəffəqiyyətsizliyini isə öz müvəffəqiyyətsizliyi hesab edir. Qrup mahiyyət etibarilə bu andan əsl qrup kimi fəaliyyət göstərməyə başlayır. Qrupun nəzərdən keçirdiyimiz xüsusiyyətlərinin bir qismi onun struktur-formal (təşkilati) cəhətdən xarakterizə edir. Qrupun həcmi, tərkibi, kommunikasiya kanalları, rolların bölüşdürülməsi, tabelilik sistemi və s. buna misal ola bilər.

Qrupun təsnifatı.

Qrupları müxtəlif əsaslara görə təsnif edirlər. Hər şeydən əvvəl qrup üzvlərinin miqdarına, tanışlıq və yaxınlıq səviyyəsinə görə qrupları böyük və kiçik olmaqla iki yerə bölürlər.

Böyük qrup

30-40-dan artıq insan birliyi;

Qrupun üzvləri bir- birini tanımaya,bir-biri ilə görüşməyə bilər (tələbə və müəllim kollektivi olan universitetlər,böyük şirkətlər, dövlətlər, millətlər və s.)

Kiçik qrup;

2-dən 30-40-a qədər insan birliyi (ümumi bir işlə məşğul olmaq və bir-birilə qarşılıqlı əlaqədə olmaq).

insanların bir-biri ilə təması daha yaxın və daimi ola bilər.

Kiçik qrupun növləri (mövcudluq dərəcəsinə görə)

**Şərti qruplar**

Müəyyən şərtlər,adamların müəyyən xüsusiyyətlərə (cins, yaş, həmkarlıq və s.) əsasən müəyyən qruplara daxil edilməsi nəticəsində yaranır.

**Real qruplar**

Müəyyən zaman və məkan daxilində real münasibətlərlə birləşmiş insan birliyi aid edilir Məsələn,ailə, bir sinifin şagirdləri, məktəbin pedaqoji kollektivi və s.

Kiçik qrupun növləri (məqsəd və xarakterinə görə)

**Rəsmi qruplar**

Rəsmi sənədlər əsasında yaradılmış qruplardır. Bu cür qrularda münasibətlər inzibati-hüquqi yolla müəyyən olunur və tənzim edilir. Bu cür qruplar daima mütəşəkkil olur.

**Qeyri-rəsmi qruplar**

Rəsmi sənədlər əsasında yaradılmayan insan birliyidir. Bu cür qrupun üzvlərinin dəqiq qeyd edilmiş məqsədi olmur. Bu cür qruplar ünsiyyət prosesində təbii yolla yaranır.

- **Referent qruplar.** Psixoloji ədəbiyyatlarda kiçik qrupların bir növü kimi referent qrupları da qeyd edirlər. Özünün normaları, fikirləri, qiymətləri ilə fərdin davranış motivlərinə çevrilən sosial birlik referent qrup adlanır. Bu termin ilk dəfə olaraq 1942-ci ildə Q.Xaymen tərəfindən irəli sürülmüşdür.
- Qaydaları və normaları şəxsiyyətin qayda və normalarına çevrilən, fərdin statusunun artması üçün daimi imkanları olan bu cür referent qrupları çox vaxt etalon qrup adlandırırlar.



Qrupun həcmi və ya ölçüsü problemi

P-rəhbər A, B, V, Q- tabe

İşçi

Birinci qrup (3nəfər)

Mümkün olan münasibətlər sayı: P-A; P-B; P-AB

İkinci qrup(4nəfər)

Mümkün olan münasibətlər sayı: P-A; P-B; P-V; P-BV; P-AV; P-ABV

Üçüncü qrup (5nəfər)

Mümkün olan münasibətlər sayı:P-A; P-B; P-V; P-Q; P-AV; P-AQ; P-BV; P-BQ; P-VQ; P-AB

p-abv; p-abq; p-bvq; p-avq; p-abvq

Münasibətlər şəbəkəsi genişləndikcə, onların tənzim edilməsində psixoloji amillərin rolu da artır .

Bu nöqteyi nəzərdən qrupun həcmi probleminin öyrənilməsi son dərəcə zəruridir.

Müasir sosial psixologiyada bu problem 3 istiqamətdə tədqiq olunur:

1. Qrupun həcminin son həddi,
2. Qrupun həcminin onun sosial-psixoloji xüsusiyyətlərinə təsiri,
3. Qrupun optimal həcmi

Rengelman effekti

Birgə fəaliyyətin səmərəliliyinin qrup üzvlərinin sayından asılılığıdır.

Psixoloji uyuşma

Funksional psixoloji uyuşmada idraki, emosional-iradi cəhətdən yaxınlıq, xüsusilə temperament və xarakter səviyyəsində uyuşma əsas götürülür.

Psixoloji ədəbiyyatda qeyd olunduğu kimi qrup uyuşmasının adaptiv planda təhlili pozitiv şəxsiyyətlərarası münasibətlərin formalaşdırılmasını nəzərdə tutur. Psixoloqlar qrup uyuşma-




sının adaptiv planda həyata keçirilməsini təmin etmək üçün işgüzar oyunlar metodundan geniş istifadə olunmasını məsləhət görürlər.

Qrup uyuşmasının eksperimental tədqiqi qomeostat adlanan xüsusi qurğunun köməyi ilə həyata keçirilir. Qomeostat elə bir cihazdır ki, burada eyni vaxtda bir neçə adam işləyə bilir. Bu zaman birgə fəaliyyətin müvəffəqiyyəti bütün qrupun fəaliyyətinin uzlaşdırılmasından və uyğunlaşdırılmasından asılı olur. Bu cihazın köməyi ilə qrupun birgə fəaliyyətə nə dərəcədə hazır olduğunu aşkara çıxarmaq mümkündür.



Qrup təzyiqi fenomeni.

Psixoloji konfliktlər qrupun şəxsiyyətə təsiri şəraitində təzahür edə bilirdi , bu qrup təzyiqi hadisəsi kimi qeyd olunur.

Konformizm (və ya konformluq) fərdin qrupla zahirən razılaşması, ixtilafı daxilən dərk etdiyi halda onun hər bir təsirinə tabe olması, hər bir şəraitə uyğunlaşmasından ibarətdir.






Konformluq zamanı fərdin daxili mövqeyi ilə xarici təzyiq arasında ixtilaf olmur. Ona görə də bu cür konformluğu bir növ qrupdaxili təlqin adlandırmaq mümkündür.

S.Aş eksperimenti

Düzəltmə qrup üzvlərinin miqdarı dəyişildikdə şəxsin yol verdiyi səhvlərin miqdarı (S.Aşa görə)

| Qruplar | Sınanan şəxslərin miqdarı | Düzəltmə qrup üzvlərin miqdarı | Səhvlərin orta miqdarı |
|---|---|---|---|
| Səhvlərin orta miqdarı | 10 | 1 | 0.33 |
| | 15 | 2 | 1.53 |
| | 10 | 3 | 4.0 |
| | 10 | 4 | 4.20 |
| | 50 | 5 | 3.84 |
| | 12 | 6 | 3.75 |
| Kontrol | 37 | | 0.08 |

Fərdin hər nə olursa olsun əksəriyyətin fikirlərini rədd etməsi və heç nəyə məhəl qoymadan onlara əks çıxması nonkonformizm adlanır.

Şəxsiyyətlərarası münasibətlər

Qruplarda insanlar birgə yaşayıb və fəaliyyət göstərmələrinə görə onların arasında istər-istəməz qarşılıqlı münasibətlər özünü göstərir. Bu cür münasibətlər sosial psixologiyada *şəxsiyyətlərarası münasibətlər* adlandırılır.

Keçmiş nəsillər insan münasibətləri haqqında tədricən zəngin məlumat toplamış və «sosial sxem» yaratmışlar. «Sosial sxem» müəyyən vəzifəni həyata keçirmək üçün şablondan ibarətdir. İnsan nəinki «sosial sxem» əsasında öz davranışını təşkil edir, o, eyni zamanda başqalarını bu etalonlar əsasında qavrayır.

Etalonlar ictimai həyatda tarixilik səciyyəsi daşıdığından tarixən dəyişir. İnsanın davranış üslubu, onun nitqi, geyimi və s. bu sxemə uyğun olaraq «zamanın tələbləri» səviyyəsinə uyğunlaşdırılır.



Qruplarda şəxsiyyətlərarası münasibətlərin səviyyələri

Şəxsiyyətlərarası münasibətlər mürəkkəb və çoxsəviyyəli quruluşa malikdir.Bunlar:

- ❖ Birincisi, ilk növbədə «gözə çarpanı» vasitəsiz asılılıq səviyyəsidir.
- ❖ İkinci, daha əsaslı səviyyə vasitəli asılılıq səviyyəsi olub şəxsiyyətlərarası münasibətlərin məcmunu təşkil edir.
- ❖ Üçüncü səviyyəni qrupun istehsalat, təlim və yaxud ictimai vəzifələri səviyyəsinin məcmuu təşkil edir.

Psixoloji iqlim qruplarda şəxsiyyətlərarası münasibətlərin mühüm göstəricisi kimi.

Qruplarda şəxsiyyətlərarası münasibətlərin necə olduğunu burada sosial-psixoloji iqlimin necə olmasından görmək mümkündür. Psixoloji iqlim sosial qrupun əsas əhvalını müəyyənləşdirən şəxsiyyətlərarası münasibətlər sistemindən ibarətdir.



Ümumiyyətlə qrup və kollektivlərdə psixoloji iqlim müsbət (pozitiv) və mənfi (neqativ) xarakter daşıya bilir.

Şəxsiyyətlərarası münasibətlərin növləri

Sosial psixologiyada şəxsiyyətlərarası münasibətlərin müxtəlif növlərini qeyd edirlər: rəsmi, qeyri rəsmi, şəxsi, işgüzar və s.

Rəsmi münasibətlər rəsmi sənədlərə, normalara uyğun həyata keçirilən şəxsiyyətlərarası münasibətdir.

Qeyri-rəsmi münasibətlər isə insanların bir-birinə olan şəxsi münasibətlərinə əsaslanır. Ona görə də bu cür münasibətlər subyektiv xarakter daşımaqla insanların bir-birlərinə olan simpatiyası, antipatiyasında və s. ifadə olunur.

Şəxsi qarşılıqlı münasibətlərin sosial psixologiyada aşağıdakı tiplərini fərqləndirirlər:

a) Tanışlıq
b) Yoldaşlıq
c) Dostluq
d) Ər-arvad münasibətləri

Liderlik

Sosial psixologiyanın müddəalarından biri ondan ibarətdir ki, qrupa daxil olan adamlar qrup fəaliyyətinin məzmununa və bir-birinə münasibətdə eyni mövqedə dayana bilməzlər.

Həcmindən və xarakterindən asılı olmayaraq qrupdaxili münasibətlər paritet (latınca paritas və ya paritatis - bərabərlik deməkdir) xarakter daşımır, başqa sözlə, qrupda şəxsiyyətlərarası münasibətlər qrup üzvlərinin sosial psixoloji statusunu əks etdirir. Sosial psixologiyada bu cəhət <<rəhbər işçi>> , <<lider>>, <<tabe işçi>> və s. kimi anlayışlarla ifadə olunur.

Hər bir qrupun öz başçısı olur. Sosial psixologiya qrupun idarə edilməsi prosesində iki cəhəti ilə fərqlənir:

1. Rəhbərlik - rəsmi surətdə təsdiq edilmiş əsasnamə çərçivəsində səlahiyyətin tətbiqi yolu ilə qrupun idarə olunmasıdır?

2. Liderlik - işçilərdən birinin şəxsi nüfuzunun qrupun bir çox və ya bütün üzvlərinin davranışına qeyri rəsmi ölçülərlə təsirini izah edir.

Psixoloji ədəbiyyatın təhlili əsasında liderliyin üç funksiyası müəyyən edilmişdir:



a) Liderin təşkilatçılıq funksiyası (TF)
b) İnformasiya funksiyası (İF)
c) Sosializasiya funksiyası (SF)

Q.Ammelburq "Gələcəyin müəssisəsi: rəhbərliyin strukturu, metodları və üslubu" əsərində göstərir ki, rəhbərlik etmək insanlara təsir göstərmək deməkdir.

Rəhbər işçi işçilərə necə təsir göstərə bilər?

Rəhbərin işçilərə təsirinin qaynaqları çoxcəhətlidir. Freyçq və Reyven aşağıdakı qaynaqları ayırd etmişdir:

1. Məcburetmə
2. Mükafatlandırma
3. Ənənə
4. Rəhbərin şəxsiyyəti və ya nümunə hakimiyyəti
5. Ekspert hakimiyyəti



F.Fidlerə görə liderliyin effektliyi liderin bir tərəfdən işin keyfiyyətlə görülməsi, digər tərəfdən isə işçilərin hissləri və qarşılıqlı münasibətləri ilə nə dərəcədə maraqlanmasından asılıdır.

F.Fidler bu ölçülərlə liderin iki tipini fərqləndirir :

1. Tapşırıq yönümlü lider
2. Qarşılıqlı münasibətlər yönümlü lider.

*İstifadə olunmuş ədəbiyyat*


1. Bayraməv Ə.S. Əlizadə Ə.Ə. Psixologiya. Bakı: 2003
2. Bayramov Ə.S. Psixoloji düşüncələr. Bakı:1994
3. Bayramov Ə.S. Etnik psixologiya. Bakı:2001
4. Əlizadə Ə.Ə. Etnik psixologiyaya giriş. Bakı:2004
5. Немов Р.С . Психология. М: 2001
6. Маклаков С.Я. Общая психология. М: 2006

7. Геппенрейтер Ю. Введение в психологии. М: 1996






# MÖVZU 8

## Şəxsiyyət və Psixoloji müdafiə yolları

**Plan:**

1. Maskalar
2. Xususi terminlər
3. Sosial normalar
4. Sosyal yönümlər
5. Mən konsepsiyasının funksiyaları
6. Psixoloji müdafiə yolları
7. E.Eriksonun " Psixi inkişafın dinamikası"

Maskalar:

Fizioqnomik maska başqa adamı nəzərdə tutur, başqa adam üçün yaradılır. Yaxşı təəssurat yaratmaq məqsədi ilə yaradılır.

Psixoloji maska hisslərin,fikrin rəyin gizlədilməsini nəzərdə tutur.

Sosial streotiplər insanların şəxsi təcrübələrinin ümumiləşdirilməsi əsasında formalaşır.

Xususi terminlərin izahı.

İdentifikasiya insanın özünü başqasının yerinə qoyub özünü onunla eyniləşdirməsidir. (mən onun yerində olsam belə edərdim)

Refleksiya insanin özünün daxili aləmini dərk edərək başqa adamların sənə necə münasibət bəslədiyini ,necə yanaşdığını, səni necə başa düşdüklərini görmək və dərk etmək deməkdir.

Kauzal atribusiya başqa adamların qavranılması prosesində insanın onların davranış və rəftarının səbəblərini və motivlərini şərh etməsidir.

Oreol effekti biz hər hansı adamı yaxşı adam kimi tanıdıkda sonralar onun nöqsanını adətən görmürük (musbət və mənfi ola bilər)

Yenilik effekti tanımadığımız adamın davranışını ızah edərkən onun haqqında məlum olan ilk informasiyaya əsaslanırıq. Əgər onu tərifləyiblərsə daha xoş rəftar edirik.

Sosial normalar

Birgə fəaliyyət ve unsiyyət prosesində insanlarin bir biri ilə qarsılıqlı əlaqə və rabitələri sosyal normalar vasitəsilə tənzim olunur.Sosyal normalar tarixən əmələ gəlmiş ve müəyyən olunmuş davranış və fəaliyyət qaydalarını nəzərdə tutur. Sosyal nəzarət 2 formada rəsmi və qeyri rəsmi vasitələrlə həyata keçirilir.

Hər bir insan adətən başqa adamlarin ondan nə gözlədiyini bilir, bu cəhəti öz davranış və rəftarında nəzərə alır.

C.Moreno Moreno cəmiyyət yerinə sosial təşkilat terminindən istifadə edir.

Sosial təşkilat insanların davranışını məhdudlaşdıran və ona istiqamət verən rollar şəbəkəsindən ibarətdir.

Rollar insanların davranışını bir tərəfdən məhdudlaşdırır,digər tərəfdən ona istiqamət verir.

Rollar nəzəriyyəsinin banisi C.Midə görə qarşılıqlı təsirin təşkili ağıldan asılıdır.

Rol gözləmələri sosial gözləmələrin xüsusi halıdır.

Rol konsepsiyasi isə rol gozlemelerinden basqa şəxsiyyətin öz roluna ve özünün sosial qrubundaki yerinə münasıbətini ifade edir. Bu cəhət öz əksini rolun ifasında tapır.

Sosyal yönümlər

Bu anlayış ilk dəfə 1862 ci ildə Herbert Spencer tərəfindən işlənmişdir.Ümumi nəzəriyyə isə D.N.Uznadze tərəfindən yaradılmışdır. Sosyal yönəlişliyin üç tərkibi var. Koqnitiv, affektiv və davranış

Mənlik şüuru

Şüurun 3 əsas funksiyası koqnitiv,tənzimetmə və kommunikatıv funksiyası var.

Mənlik şüuru strukturunda 3 cəhət var.

Mən obraz insanın özü haqqında təsəvvürləridir.



Özünüqiymətləndirmə insanın özü haqqındaki təsəvürlərinin adekvat surətdə qiymətləndirməsidir.

Potensial davranış reaksiyaları insanın "mən" obrazı və özünə verdiyi qiymətlərin onun davranış və rəftarında təzahür etməsidir.

Mən obraz:

Fiziki mən insanın fiziki məziyyətlərini əks etdirir,bədənin sxemi haqqında təsəvürlərdir.

Real mən-indiki anda insan özünü necə təsəvvür edir?

İdeal mən-insan özünü necə gormək istəyir, hansı keyfiyyətlərə yiyələnmək istəyir?

Sosial mən insan özünə başqalarının gözüylə baxır, başqa adamlar onu necə görürlər ?

Bunların hamısı mən konsepsiyasını təşkil edır.

Uşaqlar özünü güzgüdə ilk dəfə 18 aylıq olanda tanıyırlar.

Mən konsepsiyasının funksiyaları

Menecerial funksiya mən insana özünün fiziki və sosyal aləmi ilə qarşılıqlı münasıbətləri haqqında informasiya verir,onun davranışını formalaşdırır və gələcək əməllərinin planlaşdırılmasını şərtləndirir.

Təşkilatçılıq funksiyası mənin kökündə xüsusi mental struktur formalaşır. Bu sxem əsasında insan özünü və sosial aləmi haqqında informasiyanı xatırlayır və şərh edir.

Emosional funksiya mən insana özünün emosional reaksiyalarını müəyyənləşdirmək imkanı verir.

Özünüqiymətləndirmə

Adekvat özünüqiymətləndirmədə insan butun keyfiyyətlərini real gorur

Qeyri adekvat yuxarı qiymətlər şagird özünün ayrı ayrı keyfiyyətlərini olduğundan yüksək qiymətləndirır.

Qeyri adekvat aşağı qiymətlər özünün ayrı ayrı keyfiyyətlərini olduğundan aşağı görür.

Özünüqiymətləndirmə və iddia səviyyəsi

Özünüqiymətləndirmə şəxsiyyətin iddia səviyyəsi ilə əlaqədardır.

U.Cems (1890) özünüqiymətləndirmə=-müvəffəqiyyət / iddia səviyyəsi

Gözləmə səviyyəsi insanın əldə etmək istədiyi nəticə ilə müəyyən olunur. İddia səviyyəsi isə insanın əldə etdiyi nəticəyə münasibətində ifadə olunur.

PSİXOLOJİ MÜDAFİƏ YOLLARI

İnsanın adaptasiyasını pozan hər bir hadisə orqanizm tərəfindən təhlükə kimi qiymətləndirilir.

İnsan təhlükə qarşısında 2 cür reaksiya göstərir. "Qaç" ya da "mübarizə apar"prinsipi insanın həyatda qalma istəyi ilə əlaqədardır.

Psixoloji müdafiə yolları da adətən şüuraltı proses olub insanın özünü qoruması ilə əlaqədardır.

Aşağıda bunlar sadalanmaqdadır.

**Basdırma(REPRESSİON)**

Psixoloji müdafiə yolu kimi basdırma dilimiz ucunda dediyimiz unutmalar,qorxular buna misaldır. Bu psixoloji müdafiə yolunda hər hansı bir hiss,duyğunun şüuraltında tutulması görülür. Şüuraltındakı hər cür basdırılmış hissin ortaya çıxması şəxsiyyət pozğunluğuna apara bilər.

Ağır bir stres zamanı ürəyin getməsi və sonra heç bir şeyin yada düşməməsi buna misal ola bilər

**İnkar etmə (denial)**

Psixoloji müdafiə mexanizmi mənlik üçün təhlükəli hesab edilən bir həqiqəti yox hesab etməkdir. Hirslənmə hissi ən çox yox sayılmaq istənən hisslərdəndir.Çox vaxt yaxın birini itirən adamlarda görülür. Burada şüuraltı olaraq bir inkar var.

**Əks etdirmə(Projection)**

Özümüzdə görmək istəmədiyimiz mənfilikləri başqasında görərik. İçində kinli və hirsli olan bir insan mənə nifrət edirlər, mənə hirslənirlər deyir.

Məndə kin yoxdur onlarda var məntiqi ilə bunu izah edir.



**(Bölünmə)**

Mənlik konsepsiyasının dağılması mənasındadır. Zehindəki bir sıra düşüncə,duyğu və yaşantıların ayrı bir formada sanki şəxsiyyətə aid olmamamışca özünü biruzə verməsidir. (məs, 17 yaşındakı bir oğlan müxtəlif səslər çıxararaq qəribə ruh halında olur.)

**Yer dəyişdirmə**

Bir hissin əsil mənbəyinə deyil, başqa mənbəyə yönəldilməsidir. Məs. işdə hirslənən birinin hirsini evdəki ailəsindən çıxması. Obilərdə və bu mexanizma tez tez görülür. Obsessiv-kompulsiv pozuntuda da görülür.

**Özünə istiqamətləndirmə**

Sevdiyi insanlara hirsləninсə özünü günahkar sayan və özünə zərər verən, başını divara vuran vs.kimi davranışlar göstərən insanlar bundan istifadə edirlər.

**Ağla uyğunlaşdırma** Məntiqli səbəblər axtararaq öz narahatçılığını gizlətməyə çalışmaq bu psixoloji müdafiənin əsas xüsusiyyətidir.

(conversion) Çevirmə

Ağır bir stresə uzun müddət dayana bilməyən insan bundan uzaqlaşmağa başlayır, bu müdafiədə konkret fiziki pozğunluq yoxdur. Yalnız burada fiziki orqanlarda psixi olaraq funksiyanın itirilməsindən söhbət gedir. Məs, qolu ayağı işləmir,gözü görmür vs.

Burada xəstə həm narahatlığını gizləyir,həm də başqalarının diqqətini çəkir.

**Etmək pozmaq (Undoing),**

İnsanın beynində eləmək istədiyi mənfi bir davranışı eləməmək üçün dəfələrlə eyni hərəkətləri təkrarlamaq.Məsələn dəfələrlə su kranını acmaq və bağlamaq,pis bir hadisə olduğunu düşünərək taxtaya vurmaq da buna misal ola bilər

Geriləmə (regression).

Ailəyə yeni bir uşaq gəlincə digər böyük uşağın altını islatması bir geriləmədir. Şizofreniyada böyük insanın uşaq kimi fikirləşməsi də buna misaldır.

**Xəyal qurma( fantasy formation**

Xəyal qurma insanın real həyatda edə bilmədiyi işləri xəyal quraraq zehnində həyata keçirməsidir. Yeniyetməlik dövründə daha çox görülür.

**Yüksəltmə (Sublimation)** yeganə müdafiə yoludur ki, burada anormal bir müdafiə yolu yoxdur. Uşaqlıqda cinsi əlaqədar məlumat forma dəyişdirərək elm,sənət öyrənməyə dəyişir.

ERİK ERİKSONUN PSİXİ İNKİŞAFIN DİNAMİKASI

Erikson insanın anadan olan gündən qocalıq dövrünün sonunadək psixi inkişafın dinamikasını təhlil edərkən onun bütün həyatı boyu 8 dəfə böhran keçirdiyini qeyd edır.

Mərhələlər bu aşağıdakılardır:

1. Oral duyum mərhələ (0-1 yaş) (güvən güvənsizlik)

Ana uşağın ehtiyaclarını qarşılayarsa, uşaqda həyata inam yaranır.Tərsi olduğu zaman güvənsizlik yaranır.

2. Anal-əzələ mərhələsi (Müstəqillık ya da utanc və qərarsızlıq) (1-3 yaş) Anus əzələlərini öz istəyinə görə idarə etməyə başlayır.(tutmaq və buraxmaq) Təmizliyə öyrəşib öyrəşməmə ilə əlaqədardır.Əgər valideyn təbii ehtiyaclarını ödədikdən sonra gigiyenik qaydada qulluğu öyrətsələr uşaqda müstəqillik yaranır.
3. Cinsi mərhələ (3-5 yaş)(cəsarətlilik ya da günah-karlıq ) bu mərhələdə uşaqlar ətraflarına qarşı çox həssas olurlar.Əgər çox sual verdiklərinə görə tənqid edilsələr, o zaman özlərini zəif,günahkar hiss edirlər.
4. Gizli mərhələ (5-11 yaş) (bacarıqlılıq ya da kiçiklik hissi) uşaqlar hərəkət halındadırlar,bütün günü bir şeylə məşğuldurlar. Bu dövrdə təlimdə uğursuzluq inamsızlıq yaradır.



5. Yeniyetməlik (Mənlik ya da mənlik qarışıqlığı) (12-19 yaş) bu dövrdə yeniyetmə artıq bir şəxsiyyət kimi formalaşmağa başlayır.Çətinlik yarandıqda gənc cəmiyyətdə mövqe qazana bilmir.
6. Gənc yetişkinlik mərhələsi (20-30yaş) (yaxın münasibətlər - yada kənarlaşma). Bu mərhələdə gənclər özlərinə həyat yoldaşı seçirlər çətinlik olduqda özunə qapanma,cəmiyyətdən uzaqlaşma baş verir.
7. Yetişkinlik mərhələsi (30-60 yaş) (məhsuldarlıq ya da xüdpəsəndlik). Bu dövr ən yüksək məhsuldarlıq dövrüdür.

Faydalı ışlərlə məşğul olurlar.Çətinlik oldukda cəmiyyətdən ayrı düşmək kimi yaramaz keyfiyyətlər əmələ gəlir.

8. Yetginlik qocalıq dövründə ortaya çıxır (60+). Mənlik bütünləşməsi ya da ümitsizlik formalaşır. Qocalar keçirdikləri həyat yoluna nəzər salır,gördükləri işləri yekunlaşdırırlar.Qocalar keçirdikləri ömürdən razı qalmasalar, onlarda, qorxu,dəhşət ,həyatdan küskünlük yaranır.

Leontyevə görə fəalıyyətin növləri belə sıralanır.

İsə çağalıq (2ay-1il) aparıcı fəaliyyət -vasitəsiz emosional ünsiyyət əsasdır.

Körpəlik (1-3 yaş) əşyavi manupulativ fəaliyyət əsasdır. Əşyalar onların quruluşu uşağın maraq dairəsinə girir.

Məktəbəqədər yaş dövrü (3-6 yaş) rollu oyunlar əhəmiyyətlidir. Bunlar özünə məxsus uşaq teatrıdır.

Kiçik məktəbli (6-10 yaş), təlim fəaliyyəti uşağın bütün psixi proses və xassələrinin formalaşması təlim fəaliyyəti ilə bağlıdır.

Kiçik yeniyetməlik(10-15 yaş) intim şəxsi fəaliyyət həmyaşıd dostun əhəmiyyəti artır. Mənlik şüuru formalaşır.

Böyük yeniyetməlik (15-17,17-21)tədris peşə fəaliyyəti əhəmiyədlidi.

İnsan fəaliyyyətinin mənası insanlar arasındakı münasibətlərin vəzifələri,motivləri və normaları mənimsənilir.(vasitəsiz emosional unsiyyət,rollu oyunlar,intim şəxsi ünsiyyət)



# Mövzu 9

## Sosial psixologiyada qrup nəzəriyyəsinin ümumi məsələləri. Sosial qrupda şəxsiyyətin statusu fenomeni

**Plan:**

1. Sosial fasilitasiya
2. Qrup və sosial qrup anlayışı
3. Sosial qrupda şəxsiyyətin statusu
4. Şərti və real qruplar
5. Böyük qruplar və kiçik qruplar
6. Referent qruplar

İlk dəfə Amerika sosioloqu Norman Tripplet eksperiment yolu ilə (velosiped yarışı) müəyyən etdiyi fenomeni o zaman yarışda liderlik uğrunda mübarizə şəraitində özünü göstərən *dinamogen* amil adlandırmışdır. Lakin bu termin psixologiyada elmi hüquq qazana bilmədi, həmin fenomeni ifadə etmək üçün 1920-ci ildə Ollport tərəfindən təklif olunmuş yeni termin - *sosial fasilitasiya* (asanlaşdırmaq, kömək etmək) termini daha geniş yayılmağa başladı.

Müasir psixologiyada sosial fasilitasiya dedikdə insanın sosial təmas şəraitində bir-birinə göstərdikləri müsbət təsir nəzərdə tutulur. Bu zaman onların fəallığı artır, reaksiyalar nisbətən asanlaşır, fəaliyyətin nəticələri yaxşılaşır.

İnsanın fəaliyyət göstərdiyi şəraitdə başqa adam üç səviyyədə iştirak edə bilər. Bundan asılı olaraq sosial fasilitasiya nəzəriyyəsində aşağıdakı effektlər fərqləndirilir:

a) *Kütləvi effekt* – başqa adam sosial situasiyada ancaq tamaşaçı kimi iştirak edir və özünü passiv aparır. O, özünü passiv aparsa da, psixoloji cəhətdən sosial situasiyada iştirak edir və tamaşaçı rolunda adamların davranışını şərtləndirir.

b) *Koaksiya effekti* – adamlar birgə fəaliyyətdə iştirak edirlər. Lakin bu bu zaman onlardan hər biri ancaq öz vəzifəsini

yerinə yetirir və bir-birinə əslində qarşılıqlı surətdə təsir göstərmirlər.

c) *Fərdlərin* birgə işdə iştirakı əməkdaşlıq xarakter kəsb etdikdə, koaksiya *interaksiyaya* (qarşılıqlı təsir) çevrilir.

Göstərilən amillər sosial fasilitasiya effektini müəyyən hüdud dairəsində şərtləndirir. Məsələn; iş yeni və mürəkkəb olduqda başqa adamların iştirakı çox vaxt ləngidici olur. Buna *sosial* inhibisisiya (ləngitmə, sakitləşdirmə, yubatma) fenomeni deyilir.

Qrup və sosial qrup anlayışı.

1944-cü ildən etibarən zoologiyada qrup effekti terminindən istifadə olunur. Tədqiqatlar zoologiyada qrup effektlərinin – "bir fərdin öz növündən olan başqa başqa fərdlərin iştirakına psixofizioloji reaksiyalarının" öyrənilməsi ilə nəticələndi.

Qrup anlayışının həddən artıq genişlənməsi ilə əlaqədar olaraq sosial qrup terminindən istifadə olunur.

Sosial qrupa verilmiş təriflərdən bəziləri ilə tanış olaq:

- Adi dildə bu söz fərdlərin kifayət qədər sabit məcmusunu ifadə edir və bir çox sosial psixoloqlar sağlam düşüncənin bu konsepsiyasını qəbul edirlər.
- Qrup fərdlərin elə məcmusudur ki, burada hamının varlığından hər kəsin hər hansı bir tələbatının təmin olunması üçün istifadə edilir.

Sosial qrupun aşağıdakı funksiyaları ayırd edilir:

-sosializasiya funksiyası
-instrumental funksiya
-ekspressiv funksiya
-müdafiəedici funksiya.

Qrup həyatı sistemində şəxsiyyətin yerini müəyyənləşdirmək üçün sosial psixologiyada status anlayışından istifadə olunur.

Status insanın şəxsiyyətlərarası münasibətlər sistemindəki vəziyyətini əks etdirir.

Şəxsiyyətin statusunun ən ümumi zahiri əlaməti əmək haqqı olsa da bu, onun peşə-ixtisas səviyyəsi ilə də müəyyən olunur.



Bu baxımdan status anlayışı şəxsiyyətin hüquq və vəzifələri əsasında təhlil edilməlidir.

Şəxsiyyətin statusu müxtəlif amillərlə - onun, şəxsi keyfiyyətləri, qrup üzvlərinin xüsusilə qrupun liderinin ona münasibəti, qrup sərvətləri və s. ilə müəyyən olunur.

İnsanlara empirik surətdə çoxdan məlumdur ki, şəxsi keyfiyyətlər ünsiyyət prosesində mühüm rol oynayır. Insanlar həmişə "ətiacı" adamlardan qaçır, "mehriban" adamlara isə meyl edir.

Bu cəhər psixoloji qanunların dərk olunan və ya dərk olunmayan möcüzələri ilə həmişə onların şəxsiyyətlərarası qarşılıqlı münasibətlərinin səviyyəsini şərtləndirir.

Bu faktları təhlil edərkən eyni bir şəxsiyyətin müxtəlif qruplarda statusunun müxtəlif olmasına da xüsusi diqqət yeirilməlidir.

Inkişaf səviyyəsinə, fəaliyyət və ünsiyyətin məzmununa görə bir-birindən fərqlənən qruplarda şəxsiyyətin statusunun müxtəlif olması tamamilə qanunauyğun haldır. Yəni, şəxsiyyətin bir qrupdakı statusu onun digər qrupdakı statusunun formalaşmasına təsir göstərir.

Məsələn: adama öz ailəsində həyat yoldaşı, uşaqlar və b. böyük hörmətlə yanaşdıqda, bu, qonşuların ona münasibətinə mühüm təsir göstərir.

Nəzərdən keçirdiyimiz faktlar bir cəhətdən xüsusilə maraqlıdır: adamın müxtəlif qruplarda statusunun müxtəlif olması psixoloji baxımdan o deməkdir ki, insanın şəxsi keyfiyyətləri hələ öz-özündə onun statusunu birtərəfli qaydada şərtləndirmir.

Burada qrupun sərvət meyllərinin həlledici əhəmiyyəti vardır.

Insanın statusunun formalaşması prosesini ətraflı təhlil etmək üçün müvafiq şəxsi keyfiyyətlərin kimin tərəfindən və necə qiymətləndirilməsini aydınlaşdırmaq lazımdır.

Hamıya bəllidir ki, qrup üzvlərindən hər hansı birinin iş yeri dəyişdikdə onun şəxsiyyətlərarası münasibətlərdəki mövqeyi də dəyişir.

Birinci qrupda çox passiv olan bir şəxs, ikinci qrupun fəal üzvünə çevrilə bilər və ya əksinə ola bilər.

Buna görə də qrup üzvlərinin keyfiyyətlərini birtərəfli şəkildə nəzərdən keçirmək olmaz. Həm də qiymət verən qrupun özünün sərvət meyillərini öyrənmək, etalon və stereotiplərini aydınlaşdırmaq, yüksək qiymətləndirdiyi keyfiyyətləri müəyyən etmək və nəzərə almaq zəruridir.

Qrupun əmələ gəlməsi üçün ən azı iki adam arasında qarşılıqlı münasibətin yaranması zəruridir:

a)iki nəfərlik qrup



b)üç nəfərlik qrup



b)üç nəfərlik qrup
a)iki nəfərlik qrup

Şərti və real qruplar - Şərti və nominal qrup dedikdə bir-biri ilə real surətdə əlaqəsi olmayan, lakin müəyyən bir şərti əlamətə görə tədqiqatçı tərəfindən ayırd edilən adamlar kateqoriyası nəzərdə tutulur. Məsələn: cinsi əlamətinə görə qadınlar, yaşına



görə yeniyetmələr, peşə əlamətinə görə müəllimlər şərti qruplara aid edilə bilərlər.

Böyük qruplar - Böyük qrupların üzvləri bilavasitə təmasda olmurlar, hətta bir-birlərinin mövcud olduğunu bilməyə bilərlər. Lakin onlar şəxsiyyətin sosiumunun önəmli sahəsi kimi onun formalaşmasında mühüm rol oynayırlar. Sosial psixologiyada böyük qrupların aşağıdakı növləri fərqləndirilir:

1. Siniflər, ictimai təbəqələr, sosial peşə qrupları;
2. Millət və xalqlar;
3. Sosial-demoqrafik qruplar;
4. Ərazi, region qrupları;
5. Təşkilat qrupları (siyasi-ictimai təşkilatlar);
6. Qısamüddətli qruplar (mütəşəkkil, qeyri mütəşəkkil);
7. Auditoriya – qruplar.

*Ədəbiyyat siyahısı*


1. Ə.Bayramov, Ə.Əlizadə Sosial psixologiya. Bakı 2003
2. Bayramov Ə. , Əlizadə Ə. Psixologiya. Bakı 1989
3. M.Həmzəyev Pedaqoji psixologiya. Bakı 1991
4. Андреева Г.М. Социальная психология. М. 1998

# Mövzu 10

## Kiçik qrupların sosial- psixoloji məsələləri

**Plan:**

1. Kiçik qrupların tədqiqinin əsas istiqamətləri;

2. Qrup diferensiasiyasının xüsusiyyətləri;

Sosial- psixologiyada kiçik qrupların tədqiqi sahəsində müxtəlif istiqamətlər əmələ gəlmişdir. Onlardan bir neçəsi ilə tanış olaq:

I. *Sosioloji istiqamət: Xotorn eksperimentləri (Elton Meyo).*

Sosioloji istiqamətin başlıca müddəaları – "insan münasibətləri" doktrinası 20- 30-cu illərdə Elton Meyo tərəfindən ortaya atılmışdır. Adından göründüyü kimi, bu bilavasitə psixoloji istiqamət deyil, sosioloji xarakter daşıyır. Lakin həmin istiqamətdə müəyyən sosial-psixoloji amillərə də xüsusi diqqət yetirilmişdir.

Sosiologiyada və sosial-psixologiyada Meyonun eksperimentləri Xotorn eksperimentləri kimi məşhurlaşdı. ("Uestern-elektrik" şirkətinin Xotornda yerləşən telefon avadanlığı zavodunda aparılmış eksperimentlər sosioloqların və sosial-psixoloqların diqqətini cəlb etmişdir və bu eksperimentlər 12 il ərzində davam etmişdir).

Müasir istehsal prosesində fəhlələr arasında yaranan şəxsi münasibətlərin öyrənilməsi diqqətə layiqdir. Xotorun eksperimentlərində müəyyən edilmiş bəzi faktlar bu baxımdan maraqlıdır.

*II. Sosial-psixoloji istiqamət: qrup dinamikası problemi.*

Kiçik qrupların psixoloji istiqamətdə tədqiqi Kurt Levinin adı ilə bağlıdır. K.Levin şəxsiyyət psixologiyası sahəsində tədqiqat aparan yeganə geştalt psixoloqdur. O, sosial psixologiyada "qrup dinamikası" adlanan istiqamətin əsasını qoyur (o, "qrup dinamikası" terminini 1936-cı ildə təklif etmişdir).



K.Levin qrup dinamikasının xüsusiyyətlərini açıqlamaq üçün geştalt psixologiyasının iki əsas qanunundan istifadə etmişdir.

*Birinci qanun* - Tam hissələrdən daha üzərində üstündür.

*İkinci qanun* - Ayrı-ayrı elementlər tamda birləşirlər.

İnsan əgər özünü hansı qrupla eyniləşdirirsə, elə onun üzvü olmasına meyl göstərir. O, qrupdan zahirən asılı olanda, onun üzvü olmağa meyl etmir.

Məsələyə xronoloji baxımdan yanaşsaq K.Levinin qrup dinamikası məktəbi əslində Xotorn eksperimentlərinin qurtardığı nöqtədən başlayır.

K.Levinin bir çox ideyaları "insan münasibətləri" doktrinasını əks etdirir. Qeyd etmək lazımdır ki, Levin nəinki mahiyyət etibarilə formal və ya qeyri-formal münasibətləri fərqləndirir, həm də qrupdaxili qeyri-formal münasibətlərin həlledici rol oynadığını göstərirdi. Onun tədqiqatlarının Xotorn eksperimentlərindən fərqi bundan ibarətdir ki, K.Levin bu problemləri psixoloji istiqamətdə və psixoloji metodlarla öyrənirdi.

*III. Sosiometrik istiqamət: C.Moreno*

Kiçik qrupların sosial-psixologiyasında sosioloji *(Xotorn eksperimentləri)* və psixoloji *( qrup dinamikası məktəbi)* istiqamətlərlə eyni vaxtda sosiometrik istiqamət də formalaşırdı.

Sosiometriya (latınca- *sosieti-cəmiyyət* və yunanca *metrei-ölçürəm* deməkdir) termini XIX əsrdə sosial faktların öyrənilməsi zamanı riyazi metodların tətbiqi ilə əlaqədar olaraq yaranmışdır.

Cekob L. Moreno *(1892-1974) Z.Freydin tələbəsi olmuşdur)* sosiometriya terminınə yeni məna vermişdir. O, sosiometriyanı əsasən fərdlərin qarşılıqlı münasibəti sahəsi ilə məhdudlaşdıraraq bir sıra orijinal metodlarla yanaşı psixoanalizin və rol nəzəriyyəsinin müəyyən postulatlarından istifadə etməyə başlamışdır.

Morenonun fikrincə sosionomiya ali prinsipdir. Onun sosiometriyadan başqa daha iki sahəsi – sosiodinamika və sosiatriya sahələri vardır. Moreno sosiometrik sistemi sxematik şəkildə aşağıdakı kimi




Soodimika sosiatya

Sosiodinamika – sosial qruplar, sosiometriya- insanlar arası münasibətlərin ölçülməsi, sosiatriya isə sosial sistemin mualicəsi haqqında elmdir.

Sosiometriyada sosiometrik metodlardan (sosiometrik test, autososiometriya, retrospektiv sosiometriya və s.), sosiodinamikada "rol oyunları", qarşılıqlı təsiri öyrənmə metodlarından, sosiatriyada isə qrup psixoterapiyası, xüsusilə psixodram və sosiodram metodlarından istifadə olunur.

IV. Stratometrik konsepsiya: sosial qrupların inkişaf səviyyəsi haqqında.

Stratometrik konsepsiya Moskva psixoloji məktəbində əmələ gəlmişdir.

Onun əsası A.V.Petrovski və b.tərəfindən 1969- 1973-cü illərdə qoyulmuşdur.

Sosial qruplar özlərinin inkişaf səviyyəsinə görə bir-birindən fərqlənir. Halbuki qrupların ictimai münasibətlər sistemindəki yerini düzgün müəyyən etmək üçün onların inkişaf səviy-



yəsi məsələsinə xüsusi diqqət yetirilməlidir. Bu isə qrupun tipologiyasının və ya tipoloji təsnifatının işlənməsini tələb edir.

Stratometrik konsepsiyada bu məsələyə xüsusi diqqət yetirilir. A.V.Petrovski kollektivdə şəxsiyyətlərarası münasibətlərin səviyyəsini müəyyən etmək üçün lay və ya strata terminlərindən istifadə etmişdir. (ətraflı oxu)

II. Qrupdaxili deferensasiya dedikdə qrupda qarşılıqlı münasibətlərin strukturu nəzərdə tutulur. Onları funksional, kommunikativ və emotiv meyarlara əsasən təhlil etmək mümkündür.

*Funksional* – qarşılıqlı münasibətlərin iki planını və səviyyəsini ayırd edirlər: qrupun (kollektivin) rəsmi (formal) strukturu və qeyri-rəsmi (qeyri-formal) strukturu.

Həmin münasibətlər şaquli xətt üzrə vəzifə iyerarxiyasına görə bir-birinə tabe olan işçilər arasında, üfüqi xətt üzrə eyni vəzifəli işçilər arasında yaranır.

Qrupda tərbiyə psosesinin keyfiyyətini yüksəltmək üçün işgüzar münasibətlərin xarakterini və məzmununu bildirmək mümkün deyildir. Qrup üzvləri arasındakı şəxsi qarşılıqlı münasibətləri də öyrənmək və tənzim etmək lazımdır.

Hər bir şəxs mənsub olduğu qrupda müəyyən mövqeyə malik olur. Qrupda qarşılıqlı münasibətlərin strukturunu *kommunikativ* baxımdan təhlil edərkən sosiometriya və referentometriya üsulları ilə bu cəhəti aydınlaşdırır, qrupun sosiometrik və referentometrik mənzərəsində onun üzvlərinin mövqeyini açıqlayır.

Qrup deferensasiyasının *emotiv* meyara əsasən təhlili maraqlıdır. Sosiometriyada geniş istifadə olunan emosional ekspansivlik (həssaslıq) anlayışı mahiyyət etibarilə qrupdaxili şəxsiyyətlərarası münasibətləri bu baxımdan xarakterizə edir.

Emosional ekspansivlik şəxsiyyətin qrupa münasibətinin funksiyasıdır.

Həmin anlayış şəxsiyyətin ünsiyyət təlabatını, onun qrup üzvlərinə emosional reaksiyalarına əsasən psixoloji fəallıq dərəcəsini əks etdirir.

Sosiometrik tədqiqatlarda emosionallıq nöqteyi-nəzərdən qrupda qarşılıqlı münasibətlərin adətən üç tipini fərqləndirirlər: "simpatiya", "indifferent" və "antipatiya"- qarşılıqlı münasibətlərin emotivlik baxımda mənzərəsi belədir. Onlar müxtəlif variantlarda təzahür edirlər.

Bir çox hallarda isə onlar özlərini birtərəfli emosional münasibətlər kimi özlərini göstərirlər.

Ünsiyyət təcrübəsində simpatiya tədricən antipatiyaya və ya indifferent münasibətə çevrilə bilər.

Bu münasibətlərdən hər birinin özünəməxsus psixoloji motivləri var və onları yalnız şəxsiyyət faktoruna əsaslanaraq izah etmək olar.

Şəxsi qarşılıqlı münasibətlər "simpatiya" zəminində əmələ gəlir və bir qayda olaraq qarşılıqlı surətdə inkişaf edir.

*Ədəbiyyat siyahısı*

1. Ə.Bayramov, Ə.Əlizadə Sosial psixologiya. Bakı 2003
2. Bayramov Ə. , Əlizadə Ə. Psixologiya. Bakı 1989
3. M.Həmzəyev Pedaqoji psixologiya. Bakı 1991
4. Андреева Г.М. Социальная психология. М. 1998



# Mövzu 11

## Şəxsi qarşılıqlı münasibətlərin üç tərkibli strukturu və dərketmə paradoksu.

Hər hansı bir qrup həmişə müəyyən bir məqsəd zəminində formalaşır. İnsanlar arasında əmələ gələn əlaqə və rabitələrin bütün psixoloji xarakteristikaları qrupun məqsəd funksiyalarını əks etdirir. Şəxsi qarşılıqlı münasibətlərin tipoloji xüsusiyyətləri də məhz bu cəhətlə şərtlənir.

Sosial-psixoloji tədqiqatlar şəxsi qarşılıqlı münasibətlərin aşağıdakı tiplərini fərqləndirmək imkanı verir:

a) tanışlıq
b) yoldaşlıq münasibətləri
v) dostluq
q) ər-arvad

Şəxsi qarşılıqlı münasibətlərin kökü insanların hisslər aləmi ilə bağlıdır. Onlar emosional amillər zəminində formalaşır.

Şəxsi qarşılıqlı münasibətlərin emosional xarakter daşıması bütün hallarda onların mühüm xarakteristikası kimi meydana çıxır. Tanışlığın asanlıqla yoldaşlığa  hətta dostluğa və ərarvad münasibətlərinə çevrilməsi də məhz bununla izah olunur.

İnsanlar şəxsi qarşılıqlı münasibətlərini adətən "xoşum gəlir" və ya "xoşuma gəlmir" ifadələri ilə izah edirlər.

Bu parametrlər isə şəxsi qarşılıqlı münasibətlərin yalnız görünən tərəflərini əks etdirir. Halbuki bu münasibətlərin strukturu çox mürəkkəbdir.

Psixologiyada insanların emosional münasibətləri uzun müddət bir ölçülü münasibətlər kimi təhlil edilmiş və "simpatiya-antipatiya" terminləri ilə ifadə olunmuşdur. Son zamanlar aparılmış tədqiqatlar göstərir ki, insanların bir-birinə emosional münasibətləri təkcə simpatiya-antipatiya ilə məhdudlaşmır. Həmin münasibətlər üç ölçülü struktura malikdir.

Başqa sözlə, emosional münasibətlər *"simpatiya-antipatiya"* ilə yanaşı həm də *"hörmət-hörmətsizlik"* və *"yaxınlıq-uzaqlıq"* parametirlər ilə xarakterizə olunur.

Emosional münasibətlərin üç ölçülü strukturu universal xarakter daşıyır və şəxsiyyətlərarası münasibətlərin bütün tiplərini onların əsasında təhlil etmək zəruridir.

Şəxsi qarşılıqlı münasibətlər zəminində insanlar bir tərəfdən bir-birini, digər tərəfdən özlərini şəxsi qarşılıqlı münasibət sistemində qiymətləndirirlər. Onun əsas mexanizmini *sosial-psixoloji refleksiya* təşkil edir.

*1. İnsanlar bir-birini necə qiymətləndirirlər?*

İnsanların bir-birinə verdikləri emosional qiymətlər şəxsi qarşılıqlı münasibətlərin formalaşması prosesində mühüm rol oynayır. Lakin tədricən emosional qiymətlər intellektual, mənəvi, estetik qiymətlərlə üzvi surətdə birləşir. Bu əsasda bir tərəfdən, hisslər, digər tərəfdən emosional münasibətlər intellek-tuallaşır.

Bütün insan münasibətləri kimi şəxsi qarşılıqlı münasibətlərdə də üç komponenti – *koqnitiv, affektiv və davranış komponentlərini* ayırd etmək zəruridir

*2. Şəxsi qarşılıqlı münasibətlərin formalaşmasında partnyorların şəxsiyyətə məxsus keyfiyyətləri önəmli rol oynayır.*

Şübhəsiz ki, insanın malik olduğu keyfiyyətlərin hamısı öz-özündə şəxsi qarşılıqlı münasibətlərin təşəkkülünü eyni dərəcədə şərtləndirə bilməz.

İnsanın gözəllik, mənəvi təmizlik, borc, kişilik, qadınlıq və s. haqqında malik olduğu stereotip, etalon və ideallar onun qavradığı adamın şəxsiyyətini anlamağa mühüm təsir göstərir.

Buna görə də qrup üzvlərinin seçici münasibətlərini şərh etmək üçün hər bir konkret halda qrupun hər bir üzvünün sərvət meyillərinin məzmununu, səviyyəsini və strukturunu bılmək lazımdır.

*3. Şəxsi qarşılıqlı münasibətlərin hər bir tipi psixoloji məsafə ilə xarakterizə olunur.*



Ər-arvad münasibətləri onların arasında psixoloji məsafənin xarakterinə görə intim, dostluq münasibətləri, şəxsi, yoldaşlıq və tanışlıq münasibətləri isə sosial münasibətlər kimi formalaşırlar.

Psixoloji məsafə şəxsi qarşılıqlı münasibətlərin inkişafında özünəməxsus norma rolunu oynayır.

Bu özünü onda göstərir ki, insanlar psixoloji məsafənin xarakterindən asılı olaraq öz hisslərini bir-birinə, necə deyərlər, müxtəlif repertuarlarda ifadə edirlər.

Bundan başqa intim psixoliji məsafə çərçivəsində tamamilə məqbul hesab edilən rəftar tərzi, davranış ədası, nitq etiketi və s. onların pozulması adətən, əxlaqi meyarlarla qiymətləndirilir. "HƏYASIZ" adam etalonunun bir çaları məhz bundan ibarətdir.

*4. Şəxsi qarşılıqlı münasibətlərin inkişafı kontekstində maraqlı bir paradoks – dərketmə paradoksu müşahidə olunur.*

Onun iki variantına daha çox təsadüf olunur:

a) İnsanlar "simpatiya-antipatiya", "hörmət-hörmətsizlik", "yaxınliq-uzaqlıq" dixotomiyası kökündə öz münasibətlərini emosional surətdə dərk edirlər. Onların şəxsi qarşılıqlı münasibət zəmində möhkəm başlar, ya da uzaqlaşırlar b) Şəxsi münasibətlər sistemində əslində əlverişsiz vəziyyətdə olan şəxslər qrup üzvlərinə yüksək tələblər verir, onların işlərinə qarışır, hamının birinci növbədə onunla salamlaşmasına, məsləhətləşməsinə və s. can atırlar. Bunların hamısı psixoloji cəhətdən qeyri-adekvat reaksiyalardır. Buna görə də onlar qrupda həmin şəxsin vəziyyətini yaxşılaşdırmır, əksinə daha da pisləşdirir.

c) Qrupda əlverişli vəziyyətdə olan şəxslərin isə şəxsiyyətlərarası münasibətlər sahəsində iddia səviyyəsinin aşağı olması müəyyən edilmişdir. Qrup üzvlərinin şəxsiyyətlərarası münasibətlər sahəsindəki vəziyyətilə iddia səviyyəsi arasındakı asılılıq spesifik psixoloji fenomen kimi "dərketmə parodoksu" adlanır.

"DƏRKETMƏ PARADOKSU" sosial-psixologiyada yeni problem olmasa da, hələ sistemli öyrənilməyib.

*Ədəbiyyat siyahısı*

1. Ə.Bayramov, Ə.Əlizadə Sosial psixologiya. Bakı 2003

2. Bayramov Ə. , Əlizadə Ə. Psixologiya. Bakı 1989
3. M.Həmzəyev Pedaqoji psixologiya. Bakı 1991
4. Андреева Г.М. Социальная психология. М. 1998



# Mövzu 12

## Qrup uyuşması.
## Qrup təzyiqi: qrupdaxili təlqin, konformizm və neqativizm fenomenləri

**Plan**

1. Qrup uyuşması haqqında
2. Qrup təzyiqi: qrupdaxili təlqin, konformizm və neqativizm fenomenləri

Qrup uyuşması qrup həmrəyliyinin mühüm komponentlərindən biridir. Qrup uyuşması insanlara empirik surətdə çoxdan məlumdur. Alpinistlər, təyyarəçilər heyəti əməli təcrübə əsasında belə bir nəticəyə gəlmişlər ki, kiçik qruplarda adamlar bir-birlərinə eyni dərəcədə uyuşa bilmirlər. Sosial-psixoloji tədqiqatlar da bunu təsdiq edir.

Birgə fəaliyyətin səmərəli olmasının şərtlərindən biri də qrup uyuşması fenomeni ilə əlaqədardır.

Müasir psixologiyada psixoloji uyuşma üç istiqamətdə - struktur, funksional və adaptiv istiqamətdə öyrənilir.

Struktur yanaşma

Struktur yanaşma qrup üzvlərinin xarakteristikalarının optimal uyuşmasının araşdırmasını nəzərdə tutur. Müxtəlif empirik faktların təhlili göstərir ki, qrup üzvlərinin dünyagörüşü, tələbatları, motivləri, maraqları və s., başqa sözlə, şəxsiyyətə məxsus keyfiyyətlərinin oxşarlığı və yaxınlığı onların bir-birinə psixoloji cəhətdən uyuşmasına kömək edir.

Temperament və xarakter səviyyəsində isə uyuşma onların komplementarlığı, bir-birini qarşılıqlı surətdə tamamlaması ilə şərtlənir.

Psixoloji uyuşmada xarakterin özünəməxsus rolu vardır. Müəyyən edilmişdir ki, xarakter əlamətlərinin oxşarlığı çox vaxt

adamların bir-birinə psixoloji cəhətdən uyuşmasına hətta mane olur.

Bütün hallarda psixi xüsusiyyətlərin oxşarlığı, ümumiliyi nə qədər əhəmiyyətli olsa da, psixoloji uyuşma heç də xarakterlərin eyniliyini nəzərdə tutmur.

*Funksional* baxımdan qrup uyuşması qrup üzvləri tərəfindən müəyyən vəzifələrin həyata keçirilməsi istiqamətində nəzərdən keçirilir. Bu cəhətdən qrupda şəxsiyyətlərarası rolların bir-birilə uzlaşması psixoloji uzlaşmanın zəruri şərtlərindən birinə çevrilir.

Rollararası konfiliktlərin yaranması isə qrup uyuşmasını şətinləşdirir.

Qrup uyuşmasının *Adaptiv* planda təhlili pozitiv şəxsiyyətlərarası münasibətlərin aktiv surətdə formalaşdırılmasını nəzərdə tutur.

Hal -hazırda sosial psixologiya qrup uyuşmasının müxtəlif parametrləri səviyyələri fərqləndirilir. Temperament və xarakterin uyuşması 1-ci səviyyə, rol gözləmələrinin uzlaşması 2- ci səviyyə, sərvət meyillərinin vəhdəti 3-cü səviyyədə qrup uyuşmasının əsas parametirləri kimi təhlil olunur.

Qrup təzyiqi

Sosial psixologiyadya qrup təzyiqi konformizm fenomeni kimi xarakterizə olunur.

*Konform – ingilis dilində razılaşmaq, uyğunlaşmaq, tabe olmaq deməkdir.*

Sosial psixologiyada konformluq dedikdə başqa adamların davranış və tələblərinə uyğun olmaqdan ötrü insanların öz davranışlarını dəyişmək meyli başa düşülür.

Bu zaman qrupun mövqeyinə münasibətdə fərdin mövqeyinin psixoloji xarakteristikası – onun qrupa xas olan müəyyən standartları, rəyləri qəbul etməsi və ya rədd etməsi, qrup təzyiqınə "tabe olmaq" dərəcəsi nəzərdə tutulur.



Konformluq problemi sosial psixologiyada 1956-cı ildə Amerika psixoloqu S.Aşın məhşur eksperimentlərinin nəticələri dərc olunandan sonra müzakirə edilməyə başladı.

S.Aşın 1951-ci ildə aparılan eksperimentləri sonralar müxtəlif istiqamətlədə tənqid olunsa da, sosial psixologiya tarixinə klassik eksperiment kimi daxil oldu.

Aşın tədqiqatları eksperimentin texnikası baxımından olduqca dəqiq işlənmişdir. Eksperimentlərin prosedurası çox sadə idi və xüsusi ölçmə texnikası tələb olunmurdu. Ən başlıcası isə o idi ki, S.Aşın eksperimentləri ilə sosial-psixologiyada yeni bir metod – "düzəltmə qrup metodu" tətbiq olunmağa başlanıldı.

(Metodika 7-9 nəfərlık kiçik qrupda tələbələr arasında aparıldı. Onlara iki vərəq təqdim olundu. 1-vərəqdə bir xətt, 2-ci vərəqdə isə müxtəlif ölçülü üç xətt çəkilmişdir)

S.Aşın eksperimentlərində "sadəlövh subyekt" *(Aşın sadəlövh subyekt adlandırdığı 7 tələbədən biri nəzərdə tutulur)* kimi 123 nəfər iştirak etmiş, onların 3/1 hissəsi (37%) qrupun təsiri altına düşmüş və səhv cavablar vermişdir.

S.Aşın tədqiqatları göstərir ki, "sadəlövh subyekt" in tələbələrin təsiri altına düşməsi, psixoloji terminlə desək, "qrup təzyiqi effekti" düzəltmə qrup üzvlərinin miqdarı ilə bilavasitə əlaqədardır.

Düzəltmə qrup 3 nəfərdən ibarət olduqda müvafiq effekt bütün aydınlığı ilə təzahür edilir.

Düzəltmə qrup üzvlərinin daha da artması isə qrup "təzyiqi" effektinin artması ilə nəticələnmir.

S.Aş və onun ardıcılları müəyyən etmişdilər ki, "qrup təzyiqi" effekti qrup üzvlərinin nüfuzundan, onların peşə mənsubiyyətindən, qrup həmrəyliyindən asılıdır. Bu sahədə müəyyən yaş və cins xüsusiyyətləri də müşahidə olunur

*S.Aş konform davranışda 3 səviyyəni fərqləndirirdi.*

a) *Qavrayış səviyyəsində qrup təzyiqinə tabeolma. Bu o deməkdir ki, sınanan şəxsin qavrayışı düzəltmə qrupun təsiri ilə*

*dəyişilir. Bu zaman şəxs özünün qrupa tabe olduğunu bilmir və ya bu onun tərəfindən zəif dərk olunur;*

b) *Qiymət səviyyəsində qrupa tabeolma. Bu zaman sınanan şəxs aşağıdakı prinsip üzrə hərəkət edir: "Qrup haqlıdır, mən isə haqlı deyiləm. Mən fikirləşirdim ki, səhv eşidirəm";*

c) *Iş səviyyəsində qrupa tabeolma. Sınanan şəxs başa düşür ki, qrup haqlı deyildir. Lakin o, qrupla konfiliktə girmək imkanına malik deyildir. Sinanılanlar "qrupun qiymətlərini mənimsəmişlər və bilə-bilə qrupa tabe olurlar".*

"Düzəltmə qrupun" təsiri altında sınanmış şəxslərin yol verdikləri səhvlərin dərəcəsinə görə təlqinə qapılmanın aşağıdakı səviyyələrini fərqləndirirlər:

a) *Hipersuqqestiv (asanlıqla təlqinə qapılan);*

b) *Suqqestiv (orta səviyyəli təlqinə qapılan);*

c) *Hiposuqqestiv (çətinliklə təlqinə qapılan) şəxslər.*

Sinanılan şəxslərin bir qismi eksperiment zamanı qrupdan fərqlənmək istəmir, lakin onun mövqeyini zahirən qəbul edir və təzyiq kənar edilən kimi ondan asanlıqla imtina edir. Onların davranışı *konform* davranışdır.

Konforizm bir sıra hallarda neqativizm kimi özünü göstərir. Neqativist şəxs müxtəlif formalarda qrupun təzyiqinə müqavimət göstərir. O, nəyin bahasına olursa olsun qrupun bütün standartlarını rədd edir (özünə sərf etməyən şeyləri nə görür, nə də eşidir- buna kar adam effekti də demək olar), öz MƏNini süni yollarla nəzərə çarpdırmağa çalışır (saç, geyim, eynek və s.).

Əslində isə *neqativizm konformizmin* xüsusi bir formasıdır: əgər fərd öz qarşısına məqsəd qoyaraq nəyin bahasına olursa-olsun, qrupun rəyinə qarşı çıxırsa, o mahiyyət etibarilə qrupdan asılı olduğunu göstərir.

*Ədəbiyyat siyahısı*

1. Ə.Bayramov, Ə.Əlizadə Sosial psixologiya. Bakı 2003
2. Bayramov Ə. , Əlizadə Ə. Psixologiya. Bakı 1989
3. M.Həmzəyev Pedaqoji psixologiya. Bakı 1991
4. Андреева Г.М. Социальная психология. М. 1998



# MÖVZU13

## Kiçik qrupun struktur xüsusiyyətləri. Gender və rəhbərlik (liderlik) problemi.

**Plan:**

1. Qrupda rəhbərlik və liderlik sosial-psixoloji fenomen kimi.
2. Gender və rəhbərlik (liderlik) problemi.
3. Demokratik dəyərlər: rəhbərlik üslubu haqqında.

Sosial psixologiyanın müddəalarından biri ondan ibarətdir ki, qrupa daxil olan adamlar qrup fəaliyyətinin məzmununa və bir-birinə münasibətdə eyni mövqedə dayana bilməz. Həcmindən və xarakterindən asılı olmayaraq qrupdaxili münasibətlər paritet *(latınca- paritas və ya paritatis - bərabərlik deməkdir)* xarakter daşımır. Yəni, qrupda şəxsiyyətlərarası münasibətlər qrup üzvlərinin sosial-psixoloji statusunu əks etdirir.

Sosial-psixologiyada bu cəhət "rəhbər işçi", "lider", "tabe işçi" və s. kimi anlayışlarla ifadə olunur.

Hər bir qrupun öz başçısı olur. Sosial- psixologiyada qrupun idarə edilməsi prosesində iki cəhəti – *rəhbərlik və liderliyi* fərləndirirlər.

RƏHBƏRLİK- nisbətən yüksək səviyyəli təşkilatlar tərəfindən rəsmi surətdə təsdiq edilmiş əsasnamə çərçivəsində rəsmi səlahiyyətin tətbiqi yolu ilə qrupun idarə olunması prosesidir.

LİDERLİK - dedikdə işçilərdən birinin şəxsi nüfuzunun qrupun bir çox və ya bütün üzvlərinin davranışına qeyri-rəsmi ölçülərlə təsiri nəzərdə tutulur.

Müasir psixologiyada liderlik anlayışının 50-dən çox tərifi mövcuddur.

Psixoloji ədəbiyyatın təhlili əsasında liderliyin üç funksiyası müəyyən edilmişdir:

a) Liderin təşkilatçılıq funksiyası (TF);

b) Informasiya funksiyası (İF);

c) Sosializasiya funksiyası (SF).

Gender və rəhbərlik (liderlik) problemi.

Cəmiyyətin həyatında qadının rolu günü-gündən artır. XX əsrin əsas istiqamətlərindən biri belədir. İctimai-siyasi hadisələrin axarında gender problemi əmələ gəlib və inkişaf etmişdir.

Psixologiyada gender probleminin araşdırılmasında öz-özünə müəyyən istiqamət əmələ gəlib: qadın psixologiyası kişi psixologiyası fonunda təhlil edilir. Gender və liderlik probleminin tədqiqində də bu istiqamət güclüdür. Gender və lider probleminə həsr olunmuş araşdırmalar vardır - E.Aronson, T.Uilson, R.Eykert. Bu alimlər məsələnin həllində F.Fidlerin "liderliyin situasiyası" nəzəriyyəsinə söykənirlər. Onların fikrincə, kişi və qadınların liderlik üslubu stereotipləri geniş yayılıb.

Bu stereotiplərə görə kişi liderlər insan münasibətlərinə nisbətən daha çox işin keyfiyyətli olmasına fikir verirlər. Qadın liderlər isə iş prosesində insan münasibətlərinə xüsusi diqqət yetirirlər.

Elis İqli bu məsələni araşdırdıqdan sonra müəyyən etdi ki, qadınlar kişilərdən fərqli olaraq daha çox demokratik rəhbərlik üslubuna söykənirlər, onları insan münasibətləri daha çox maraqlandırır.

Müəllif bu cəhəti qadın psixologiyasının xüsusiyyətləri ilə izah edirlər. Qadının həyatı emosional həyatdır. Onlar insan münasibətlərinə son dərəcə həssasdırlar. Bundan başqa özlərinin ünsiyyət vərdişləri ilə seçilirlər. "Yox" deyəndə də, onu qadın səmimiyyəti ilə deyirlər və işçiləri narazı salmırlar. Onların liderlik üslubunun psixoloji konsepsiyası belədir.

Müəlliflər liderliyin situasiya nəzəriyyəsinə söykənərək qeyd edirlər ki, kişinin və ya qadının daha yaxşı rəhbər olub – olmaması onların fəaliyyət göstərdikləri situasiyanın xarakterindən asılıdır. Müəyyən edilmişdir ki, qadınlar ünsiyyət vərdişləri xüsusilə vacib olan sahələrdə, məsələn, təhsil sahəsində adətən daha yaxşı lider olurlar. Kişilər isə qətiyyətlə əmr vermək və



nəzarət etmək qabiliyyətinin tələb olunduğu sahələrdə, məsələn, orduda adətən daha uğurlu liderlik edirlər.

Demokratik dəyərlər: rəhbərlik üslubu haqqında.

*Üslub nədir? Ünsiyyət sahəsində üslub hansı xüsusiyyətlərlə seçilir?*

XVIII əsrdə fransız naturialisti Q.de Byuffon demişdir: "Üslub insanın özüdür". Buradan da göründüyü kimi, üslubun mahiyyəti şəxsiyyət kontekstində vurğulanır.

Rəhbərlik üslubunun sosial-psixoloji məziyyətləri ilk dəfə məşhur alman psixoloqu Kurt Levinin "Qrup dinamikası" məktəbində araşdırılmışdır.

Uşaq aqressivliyinin öyrənilməsi məqsədi ilə aparılan eksperimentlərdə, sosial-psixoloji hadisələrin tamamilə yeni – *liderlik üslubu fenomeni* kəşf olundu: *avtokratik, demokratik və liberal liderlik* üslublarının xüsusiyyətləri açıqlandı.

Eksperimentin nəticələri əsaslı surətdə göstərdi ki, fəaliyyətin məhsuldarlığı kontekstində, demokratik liderlik üslubu xüsusilə səmərəlidir.

Eksperimentdən sonra aparılmış intervüdə də uşaqlar demokratik üslubunun məziyyətlərini yüksək dəyərləndirirdilər.

Müasir məktəbə nə avtokratik, nə avtoritar, nə də liberal müəllim lazım deyil. Demokratik müəllim uşaqların qəlbinə daha asanlıqla yol tapır.

Demokrat müəllim sinifdə şagirdlərin mahiyyətcə "böyük yoldaşıdır".

Böyük yoldaş kimi şagirdlərin daxili aləminə xüsusi diqqət yetirir, rəyini öyrənir, ideyalarından bəhrələnir, müstəqilliyini və tənqidi ağlını rəğbətləndirir, hörmət hissini tələbkarlıqla üzvü surətdə uzlaşdırır.

Özünün dözümlülüyü ilə seçilir. Bu önəmli keyfiyyət demakratiya və plürializm şəraitində xüsusi əhəmiyyətə malikdir. Dözümlülük və ya tolerantlıq müasir təfəkkürün özünəməxsus keyfiyyətlərindən biri hesab olunur *(V.U.Lektorski).*

*Ədəbiyyat siyahısı*

1. Ə.Bayramov, Ə.Əlizadə Sosial psixologiya. Bakı 2003
2. Bayramov Ə. , Əlizadə Ə. Psixologiya. Bakı 1989
3. M.Həmzəyev Pedaqoji psixologiya. Bakı 1991
4. Андреева Г.М. Социальная психология. М. 1998



# MÖVZU 14

## Ünsiyyətin sosial psixologiyası. Ünsiyyət qarşılıqlı təsir prosesi kimi

**Plan:**

1.Ünsiyyət fenomeni sosial-psixoloji problem kimi.
2. Ünsiyyət informasiya mübadiləsi kimi.
3. Insanların bir-birini anlaması və qavraması.

Hələ qədim zamanlardan insanlara məlum idi ki, uşaqların çoxu uşaq evlərində tez ölür. 1760-cı ildə ispan yepiskopu öz gündəliyində yazmışdır: "Yetim evində uşaq kədərli olur və onların bir çoxu kədər çəkdiyi üçün ölür".

Uşaqlarda belə xüsusiyyətlərin əmələ gəlməsini nə ilə izah etmək olar? Psixoloqların böyük əksəriyyəti praktik işçilərin diqqətini kiçik uşaqların fiziki və psixi inkişafında yaxın adamlarla ünsiyyətin roluna cəlb etmişdir. "Ünsiyyət defisiti" adamlarla kontaktın azlığı və ya olmaması uşağın inkişafına dramatik surətdə mənfi təsir göstərir.

L.S.Vıqotski ünsiyyət tələbatına uşağın psixi inkişafının əsas və hərəkətverici qüvvəsi kimi xüsusi əhəmiyyət verirdi.

Ünsiyyət tələbatı sonrakı yaş dövründə də uşaq şəxsiyyətinin inkişafında mühüm rol oynayır. Yeniyetmə ictimai-əxlaqi münasibət normalarını ünsiyyət prosesində mənimsəyir.

***Ünsiyyət nədir?***

Sosial-psixologiyada ünsiyyətə müxtəlif təriflər verilmişdir:

*İki və daha çox adamın münasibətləri aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsirinə ünsiyyət deyilir.*

Ünsiyyətin predmeti başqa adamdan ibarətdir. Ünsiyyətin funksiyaları çoxsaylıdır. Tərif əsasında onlardan ikisini xüsusilə qeyd etmək lazımdır:

a) İnsanların birgə fəaliyyətinin təşkili

b) Şəxsiyyətlərarası münasibətlərin formalaşması və inkişafı.

Ünsiyyət müxtəlif vasitələrlə həyata keçirilir. Onların içərisində ***NİTQ*** (mülahizə, sual, replika və s.) xüsusilə yer tutur. Ünsiyyətin ekspressiv-I mimik vasitələri də mümkündür: təbəssüm, tərs baxış, mimika, əl və bədənin ifadəli hərəkətləri, vokal mimikası – bunlardan hər birinin ünsiyyət prosesində öz yeri vardır.

***Onları aşağıdakı kimi qruplaşdırmaq olar:***

*Ünsiyyət məqsədilə istifadə olunan lokomotor və əşyavi hərəkətlər, eləcə də pozalar;*

1. *Başqa adama yaxınlaşma, ondan uzaqlaşma, nəyi isə vermək və ya uzatmaq, onu özünə doğru çəkmək və ya özündən uzaqlaşdırmaq və ya etiraz.*
2. Ünsiyyət – informasiya mübadiləsi prosesidir.
3. Kommunikasiyanın iki tipini- verbal və qeyri verbal kommunikasiyanı fərqləndirirlər. Verbal kommunikasiyanın vasitəsi NİTQdir.
4. Nitqin müxtəlif funksiyaları var. Sosial-psixoloji baxımdan aşağıdakılar xüsusilə önəmlidir:
5. *Nitq sosial-təcrübənin mənimsənilməsinin əsas vasitələrindən biridir. Şəxsiyyətin sosializasiyası prosesi bilavasitə nitqlə bağlıdır.*
6. *Nitq idrak fəaliyyətinin alətidir. Bu məsələnin həm ümumi psixoloji, həm də sosial-psixoloji yozumu var.*
7. *Nitq insanlar arasında kommunikasiya proseslərində mühüm rol oynayır.*
8. Bu nitqin kommunikativ funksiyasıdır və onun başlıca funksiyalarından biri kimi dəyərləndirilməlidir.

a) Qeyri- verbal ünsiyyət vasitələrinin müxtəlif tipləri var. Bu baxımdan aşağıdakılar ünsiyyət mübadiləsində mühüm rol oynayırlar:

b) ***1.Mimika***- *(yunanca mimos-təqlid,simanın dəyişməsi deməkdir)*- sifət əzələlərinin dinamik ifadəsi kimi özünü göstərir.



Qaş, göz, yanaqlar, dodaqlar və s. sifətin bu və ya digər dərəcədə lokal mimika sahələridir. Sifətin ən ifadəli əlamətləri dodaqla qaş sahəsində yerləşir. Bu sahəyə əsas mimika sahəsi deyilir. Mimika insan sifətinin təkrarolunmaz fərdiyyətinim əks etdirir. Onun əsas funksiyası sifətin ekspressiyalarında insanın- emosiya və hisslərini ifadə etməklə şərtlənir.

c) Son zamanlar vizual ünsiyyət- "gözlərin təması" problemi diqqəti daha çox cəlb edir. Anatomik baxımdan gözlər nə qədər müxtəlif olsalar da, onların kodları – psixosemantikası baxışların, necə deyərlər, rəqsində açıqlanır.

d) 2. ***Intonasiya*** ünsiyyətin başlıca akustik vasitəsidir. Ünsiyyət prosesində kommunikatorun resipientə münasibəti bilavasitə onun intonasiyasında əks olunur. Onun ekspressiv- emosional funksiyası önəmlidir. İntonasiyanın bu funksiyası xüsusi məntiqi vurğu, pauza və s. kimi akustik vasitələrlə bağlıdır.

e) 3. ***Kinesika***- "bədən hərəkətlərinin dili" kimi meydana çıxır. Informasiya mübadiləsində onun kodları jestlər vasitəsilə açıqlanır.

f) 4. ***Proksimika (yunanca proximity- yaxınlıq deməkdir)*** insanın şəxsi məkanı kimi ünsiyyət prosesində özünə məxsus rol oynayır. İnsan bu məkanı özününkü hesab edir. Ünsiyyət prosesində kimisə özümüzə yaxın buraxırıq, kimisə yaxın buraxmırıq – Şəxsi məkanın hüdudları ünsiyyət prosesində subyektiv olaraq belə müəyyən olunur.

Allan Piz psixoloji məsafənin aşağıdakı zonalarını müəyyənləşdirmişdir:

1. Intim zona
2. Şəxsi zona
3. Sosial ünsiyyət zonası
4. Kütləvi zona

Sosial psixologiyada kommunikativ maneələrin 4 növü təsvir olunmuşdur.

1. Fonetik maneə
2. Semantik maneə

3. Stilistik maneə
4. Məntiqi maneə

Kommunikasiya prosesinin sosial-psixoloji effektləri var. İnformasiya mübadiləsi prosesində kommunikativ maneələr aradan qalxdıqca, qarşılıqlı anlama yaratdıqca insanlar arasında özünəməxsus münasibət əmələ gəlir.

*Ədəbiyyat siyahısı*

1. Ə.Bayramov, Ə.Əlizadə Sosial psixologiya. Bakı 2003
2. Bayramov Ə. , Əlizadə Ə. Psixologiya. Bakı 1989
3. M.Həmzəyev Pedaqoji psixologiya. Bakı 1991
4. Андреева Г.М. Социальная психология. М. 1998



# MÖVZU 15

## Sosial psixologiyanın tətbiqi problemləri. Sosial- psixoloji xidmət.

**Plan:**

1. Sosial psixologiyanın tətbiqi xüsusiyyətləri
2. Sosial-psixoloji xidmət;
   - *Sənaye psixologiyasının tətbiqi problemləri*
   - *Xidmət sahəsinin sosial-psixologiyası*
   - *Təhsil müəssisələrində psixoloji xidmət*
   - *Ailədə psixoloji xidmət haqqında*

Sosial psixologiyada tətbiqi tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir.

Tətbiqi tədqiqatlar elmin diferensasiyası prosesləri ilə bilavasitə bağlıdır.

Psixologiyada ilk sadə tətbiqi tədqiqatlar yaş və pedaqoji psixologiya, tibbi psixologiya və s. sahələrdə aparılmışdır.

İctimai praktikanın tələbatlarına müvafiq olaraq psixologiyada da müxtəlif elm sahələri - əmək, mühəndislik, hərbi, idman psixologiyası və s. ilə yanaşı olaraq sosial psixologiya çərçivəsində də bir sıra tətbiqi istiqamətlər formalaşmış və inkişaf etmişdir.

Sosial – psixologiyada tətbiqi tədqiqatlar əsasən iki istiqamətdə aparılır.

Birinci istiqamət üçün başlıca cəhət ondan ibarətdir ki, tətbiqi problemlər fundamental tədqiqatlar əsasında ayırd edilir və ya nəticələr bilavasitə praktikaya tətbiq edilir.

İkinci istiqamət də tətbiqi tədqiqatların inkişafında mühüm yer tutur. Bu istiqamət daxilində tətbiqi tədqiqatlar bilavasitə fundamental tədqiqatların nəticəsi kimi deyil, praktik tələbatlar əsasında meydana çıxır.

Tətbiqi tədqiqatlarda fərziyyənin xüsusi növündən istifadə edilir. Bu cəhətdə öz əksini onda tapır ki, müvafik fərziyyə əsasən praktik mülahizələr əsasında müəyyən olunur.

Tətbiqi sosial-psixoloji tədqiqatların özünəməxsus çətinlikləri vardır. Onlardan biri sosial psixologiyada tətbiq olunan tədqiqat metodikasının xüsusiyyətləri ilə bağlıdır.

Sosial –I psixoloji parametrləri dinamik, hətta bir çox hallarda qeyri-müəyyən olan insandır.

O, sosial psixoloq tərəfindən sadəcə olaraq laboratoriya şəraitində deyil, real sosial şəraitdə - əmək, tədris və ya idman fəaliyyətində tətbiq olunur.

Sosial-psixologiyanın tətbiqi problemləri müxtəlifdir və ictimai praktikanın önəmli sahələrini əhatə edir:

1. Sənaye psixologiyasının tətbiqi problemləri müxtəlifdir: müəssisələrdə kadrların komplektləşdirilməsi, qrupların optimal həcminin müəyyəbn edilməsi, qarşılıqlı münasibətlərin təkmilləşdirilməsi və əlverişli sosial-psixoloji mühitin yaradılması, müəssisəyə rəhbərliyin sosial-psixoloji problemləri – sənaye müəssisələrində həll edilən tətbiqi sosial-psixoloji problemlərin tam olmayan siyahısı belədir.

2. Xidmət sahəsi geniş anlayışdır: o,ticarət, ictimai iaşə, kommunal-məişət xidməti kimi olduqca müxtəlif sahələri əhatə edir. Çoxsaylı nəqliyyat müəssisələrində, səhiyyədə, mədəni-maarif müəssisələrində və s. də xidmət işçilərinin böyük bir qrupu fəaliyyət göstərir.

Müxtəlif sosial-demoqrafik və sosial-psixoloji proseslərlə əlaqədar olaraq xidmət sahəsinin əhəmiyyəti daha da artır.

Burada ticarət psixologiyasının, xüsusilə reklam psixologiyasının tarixini xüsusi olaraq qeyd etmək lazımdır. Ticarətin isə tətbiqi sosial-psixoloji problemləri də müxtəlifdir.

3. Təhsil müəssisələrində psixoloji xidmət 90-cı illərin əvvəllərində formalaşmağa başlamışdır. Məktəbdə psixoloji xidmətin təşkili məktəbin əsas strateji məqsədinin- şəxsiyyətin hərtərəfli inkişafı məqsədinin bütün praktik problemlərinin müvəffəqiyyətlə həll edilməsində həll edilməsində mühüm vasitə sayılır.



Məktəb psixoloji xidmətində psixodidaktika, psixopedaqogika məsələləri mühüm yer tutur. Lakin məktəb psixoloqu yaş və pedaqoji psixologiya ilə yanaşı həm də sosial-psixoloji problemlemləri həll edir.

Sosial-psixologiyanın başlıca problemlərinin- ünsiyyət, kollektiv və şəxsiyyət problemlərinin yaş aspektləri vardır.

4. Müasir dövrdə ailə xidməti problemi də xüsusi aktuallıq kəsb edir. Müxtəlif sosial-iqtisadi, sosial-demoqrafik, sosial-psixoloji, pedaqoji və s. amillərlə əlaqədar olaraq ailədə köklü dəyişiliklər baş vermişdir.

Ailə-nigah münasibətlərində psixoloji amillərin rolu daha da artmışdır.

Ailə xidmətinin işində psixoloq və pedaqoqla yanaşı sosioloq, hüquqşunas, psixiatr, seksoloq, eləcə də ailə təsərrüfatının təşkili üzrə mütəxəssislər iştirak edirlər. Bu bir çox məsələnin kompleks şəkildə həlli baxımından böyük əhəmiyyətə malikdir.

*Ədəbiyyat siyahısı*

1. Ə.Bayramov, Ə.Əlizadə Sosial psixologiya. Bakı 2003
2. Bayramov Ə. , Əlizadə Ə. Psixologiya. Bakı 1989
3. M.Həmzəyev Pedaqoji psixologiya. Bakı 1991
4. Андреева Г.М. Социальная психология. М. 1998

## ƏLAVƏLƏR

### Şəxsiyyətin sosial psixologiyası

Şəxsiyyət haqqında bir sıra nəzəriyyələr vardır. Bu nəzəriyyələri fərqləndirən başlıca cəhət ondan ibarətdir ki, bunların heç də hamısı bir başa şəxsiyyətin psixoloji mahiyyətini müəyyənləşdirməyə yönəldilməyib.

Psixoanalitik Z.Freyd qeyd edir ki, şəxsiyyət bir sistem kimi inkişafının konkret hərəkətverici mexanizmlərinə malikdir. O, şəxsiyyətin strukturunu müəyyənləşdirib. Freydə görə 3 instansiya əsas yer tutur: 1) id (o), 2) eqo (mən), 3) super eqo (super mən). Freyd belə hesab edirdi ki, şəxsiyyətin inkişafının hərəkətverici qüvvəsi, hər şeydən əvvəl, libido, cinsi enerjidir. Freydin fikrincə, həyata keçirilməyən arzular nevroz yaradır. O qeyd edir ki, insana heç vaxt ağıldan bəla gəlmir, bəla arzudan gəlir. Arzuların çoxluğu patologiya yaradır. Arzu və onun ödənilməməsi arasındakı uyğunsuzluq insanın xəstələnməsinə səbəb olur. Bütün bunları əsas götürən Freydın fikrincə, şəxsiyyətin formalaşmasında həmin tələbatların ödənilməsi şəxsiyyətin normal inkişafını təmin edir.Şəxsiyyət haqqında digər nəzəriyyə Pavlovun nəzəriyyəsidir. Bu nəzəriyyədə biogen, psixogen və sosiogen elementlərin sintezinin yaradılmasına cəhd edilir.

Rus sosioloqu İ.Kon belə hesab edir ki, şəxsiyyət anlayışı çoxmənalıdır. Bir tərəfdən o, fəaliyyət subyekti kimi konkret fərdi, onun fərdi xüsusiyyətləri (təkcə) ilə sosial rollarını (ümumi) vəhdəti ilə birlikdə göstərir. Digər tərəfdən şəxsiyyət fərdin sosial xüsusiyyəti kimi, onda cəmlənmiş sosial əhəmiyyət daşıyan müəyyən şəxsin başqa adamlarla vasitəsiz və vasitəli qarşılıqlı təsiri prosesində yaranmış və öz növbəsində, onu əmək, idrak və ünsiyyət subyekti edən xüsusiyyətlərin toplusu kimi başa düşülür.Ayrı-ayrı adamların fəaliyyətində, davranışında uyğun cəhətlər vardır. Ona görə də insanların uyğun, oxşar sosial əlamətlərinə görə qruplara ayırmaq olar ki, bunu da adətən şəxsiyyət tipləri adlandırırlar. Alman psixoloqu E.Şpanqer şəxsiyyətin 6 tipini nəzərdən keçirir: nəzəri tip (həqiqəti aşkara çıxarmağa meyllilik, tənqidi yanaşma), iqtisadi tip (faydaya meyllilik, praktiklik) estetik tip (dünyanın obrazlı qurulmasına meyllilik), sosial tip (insanlara sevgi), siyasi tip (hakimiyyətə meyllilik), dini tip (fövqəltəbiiliyə inam).



K.Xorni şəxsiyyətin 3 tipini qeyd edir: güzəştə gedən (insanlara istiqamətlənmə), təcrid edilmiş (insanlardan), düşmən (insanlara qarşı).

K.Yunq əsas psixoloji tipləri 2 qismə ayırır: ekstravertlər və introvertlər.

E.Fromm şəxsiyyətin 5 tipini göstərir: reseptiv, istismarçı, yığıcı, bazar məhsuldar.

Amerikan psixoloqu Kartin Xorni (1885-1952) insan şəxsiyyətinin əsasında anadangəlmə narahatlıq hissini qoymuşdu. Onun fikrincə uşaq həmin hisslə doğulur. Doğulduğu gündən uşaq güclü səviyyədə narahatlıq hissi keçirməyə başlayır və həmin hisslər onun bütün sonrakı həyatına təsir edir, onu bəzəyir, psixi fəaliyyətinin daxili xassəsi kimi özünü göstərməyə başlayır. Mövcud olduğu ilk saniyədən başlayaraq insan dünyaya qarşı düşmənçilik hissi keçirməyə başlayır. Məhz buna əsaslanaraq K.Xorni narahatlıq hissini insan davranışının əsas motivasiyası hesab edir və onu "köklü həyəcan" adlandırır. Onun fikrincə "köklü həyəcan" insanı təhlükəsizliyə cəhd göstərməyə məcbur edir.

Kurt Levinin fikrincə şəxsiyyətin hərəkətverici qüvvəsi tələbatlarla şərtlənir.

İnkişaf özünü 3 formada dönməzlik (ilk vəziyyətə qayıtmamaq) qanunauyğunluq və dəyişkənliyi müəyyən istiqamətdə cərəyanı formasında büruzə verir və o köhnənin məhv olması, yeninin meydana gəlməsi kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi, sadədən mürəkkəbə, asandan çətinə doğru spiral xətti boyunca hərəkətdən, yüksəlişdən ibarətdir (s.58).

Bu cür inkişafın əsasını ziddiyyətlərin mübarizəsi təşkil edir. Şəxsiyyətin onun fəallığının mənbəyi olan tələbatların ödənilməsi prosesində əmələ gələn, ziddiyətləri inkişaf etdirir və bu ziddiyətlər şəxsiyyətin inkşafının hərəkətverici mexanizmini təşkil edir.

Şəxsiyyətin sosial-psixoloji təhlili üçün tələbat sistemini bilməyin xüsusi əhəmiyyəti vardır.İnsan və onu əhatə edən mühit arasında daima mübarizə gedir. Tələbat şəxsiyyətin həyatının zəruri şərti kimi əşya və hadisələrə ehtiyac ilə səciyyələnən nisbətən davamlı psixi haldır.

İnsanda ictimailəşmiş blopoisi (maddi) və ictimai tələbatlar vardır.Bunlar əməyə, geyimə, yaşayış binasına, istirahətə, istehsala, ünsiyyətə, idraka və s.olan tələbatlardır.Amerika psixoloqu Erix Fromm ünsiyyət vasitəsilə təmin olunan beş xüsusi tələbat növünü qeyd edir:

1. İnsani əlaqələrə olan tələbat.Özünü real insan qruplarından birinə aid edə bilməyən, "mən"i olan "biz"i olmayan şəxs getdikcə kəskinləşən, artan, dərinləşən tənhalıq hissinə qapılır.

2. Özünütəsdiqə olan tələbat. Real insan qrupunun sadəcə bir üzvü olmaq insan üçün azlıq edir. O, "bizim"adlandırdığı qrupun tərkibində sadəcə bir ünsür olmaqla kifayətlənmir.İnsan yalnız özüüçün deyil, başqaları üçün heç olmasa bir insan qrupu –ailə üçün əhəmiyyətli, lazım olduğunu bilməlidir, əks təqdirdə o özü özündən narazı qalır, onu təmin oxunmamaq və ya çatışmazlıq hissi narahat edir.

3. Səmimiyyətə olan tələbat .İnsan özünü böyük, hətta tarixi bir şəxsiyyət saya bilər.Lakin o heç kimi sevmirsə və heç kimə hörməti yoxdursa və heç kimdən hörmət və səmimiyyət ümmursa və onu hiss etmirsə, onda antipatiya hissi get-gedə həyata nifrət dərəcəsinə qədər arta bilər.

4. Özünüdərk etməyə olan tələbat. İnsan özünü əvəzsiz, təkrarı mümkün olmayan bir fərdiyyət kimi qavramalı və hiss etməlidir.Bu hissdən məhrum olmuş, onu itirmiş bir şəxs nüfuzlu, hörmətli şəxs olsa belə özünü bir avtomat, robot kimi qavrayır. Belə hallarda qeyri sərbəstlik hissi meydana çıxır ki, bu da partlayışla nəticələnə bilər.İnsan onu sıxan, onun əl-qolunu baölayan, onu sadə bir detala çevirən mexanizmin təsirindən uzaqlaşmağa can atır. Bəzən o həmin mexanizmlə birlikdə özünü də məhv edir.



5. Pərəstiş obyektinə olan tələbat.Hər bir şəxs özünü bu və ya digər mədəniyyətə, ideologiyaya aid etməli, onunla özünü bağlı hiss etməlidir. İnsan nəyə isə inanmalı, nəyi isə inkar etməli, kimə isə nəyə isə pərəstiş ya da nifrət etməli və s. Belə olmasaydı həyat insana mənasız görünərdi.

Şəxsiyyətin tələbat sistemini ictimai münasibətlərin inkişaf səviyyəsindən və xarakterindən asılıdır, ictimai münasibələr öz hobbisində şəxsiyyətə oun yaşadığı konkret sosial mühüm vasitəsilə təsiridir.

Arxetiplər nəsildən –nəslə keçən, şəxsiyyət tərəfindən dərk edilməyən, lakin onun davranışına təsir edən müəyyən mədəniyyətlərin etnosların, nəsillərin müxtəlif lakin invariant obrazların mühakimələrin, davranış formasıdır.Şəxsiyyət və onun inkişafının psixoanalitik istiqamətdə şərh edən cərəyanlardan biri yeni ferydizm cərəyanı olmuşdur.Bu cərəyanın tərəfdarları freydin konsepsiyasındakı biolojiləşmişdirsə ənənəsini sosiallaşdırma ilə əvəz etməyə cəhd göstərmişdir.Belə alimlərdən biri A.Adler (1870-1937) olmuşdur.

O, göstərmişdir ki, insanda ən əsas onun təbii instinktləri deyil, "birlik hissidir". Bu hiss anadangəlmədir, lakin sosial cəhətdən inkişaf etdirməlidir.

Natamamlıq kompleksi. A.Adler şəxsiyyətin formalaşmasına təsir edən 3 mühüm münasibəti qeyd edir: başqa adamlara münasibət, əməyə münasibət, başqa cinsə münasibət.Adlerə görə şəxsiyyətin strukturunu müəyyən edən əsas motiv və tendensiyalar aşağıdakılardır:

a) Özünün gücsüzlüyünü hiss etmək;

b) Təkmilləşməyə və üstünlük əldə etməyə cəhd;

c) Birgəlik hissi və sosial hiss.

Onun fikrincə bu tendensiyalar anadangəlmə deyildir, yəni uşaq doğularkən ona hazır şəkildə verilmir, o dünyaya gələrkən insan nitqinə qabillik onun anatomiyasında olduğu kimi, bu tendensiyalar üçün də potensial imkan olur.

İsveçrə psixoloqu Karl Yunq (1875 -196_) öz sistemini "anatomik psixologiya" adlandırmışdır. K.Yunqa görə insan psixikası özünə 3 səvviyəli daxil edir: şüur, şəxsi şüursuzluq və kollektiv şüursuzluq.Onun fikrincə insan şəxsittəyinin inkişafında həlledici rolu bəşəriyyətin keçmişindən qalmış hafizə izlərindən yaranan kollektiv şüursuzluq oynayır.O, insan şəxsiyyətinə təsir edir və anadan olduğu andan onun davranış tərzini müəyyənləşdirir.

Yunqa görə şəxsiyyətin strukturu aşağdakı 4 sistemdən yaranır. "Mən", "maska", "kölgə","ruh".Onun fikrincə "maska" şəxsiyyətin sosial qabığını təşkil edir. O, "məni" boğa, azadşəkildə təzahürvə inkişafına mane ola bilər. "Kölgə" şəxsiyyətin ümumi istiqamətinə qarşı dayanan alçaq həzzlərin məcmuyundan ibarətdir. "Ruh" isə atavə yaananın şəxsivə kollektiv şüursuzluğunu özündə birləşdirənsürətinindaxılə köçürmüş analoqudur.

## KLİNİK NƏZƏRİYYƏ

Yeni freydizmin başqa bir nümayəndəsi Salliven (1892-1949) əsasən Xorninin istiqamətini qəbul etmişdir. Onun fikrincə psixoloji tədqiqatların obyekti ayrı-ayrı subyektlər deyil, subyektlərin birgə fəaliyyətinin məhsulu olan şəxsiyyət olmalıdır. Solliven şəxsiyyətin inkişafının mexanizminin aşağıdakı şəkildə nəzərdə tutur.

1. İncəliyə, əzizləməyə tələbat,
2. Həyəcandan qaçmaq cəhdi.

Solliven belə hesab edir ki, uşaq doğularkən hər iki mexanizm mövcud olur və onlar şəxsiyyətin inkişafı mexanizmini təşkil edirlər. Lakin insan yaşadığı xarici aləmdə daima onu təmin etməyən və həyəcan doğuran hallarla rastlaşır. Məhz xarici aləmlə həmin mübarizədə başqa sözlər, narahatlıqla mübarizədə insan şəxsiyyəti formalaşır. Solliven bunu "mən -sistem" adlandırır. O, göstərir ki, mən-sistem daha doğrusu şəxsiyyət, birinci şüursuzluq səviyyəsində narahatlıqla mübarizədə, ikincisi, həmin narahatlıqdan yaxa qurtarmaq üçün müxtəlif vasitələri tapma prosesində inkişaf edir. Mən sistem uşağı yeniyetməni, sonradan isə yaşlı adamları əvvəlcəananın, sonra isə başqa adamların, məsələn, iş yerindəki həmkarlarının köməyinə çatmağa məcbur edir. Beləliklə sollivenə görə formalaşan şəxsiyyətin mexanizmi kimi özünü göstərməyə başlayır.



İnsanı orqanizm, fərd və şəxsiyyət kontekstində xarakterizə etmək olar. Psixologiya insanı fərd və şəxsiyyət kimi öyrənir.

İnsanın bioloji varlıq kimi psixoloji keyfiyyətlərini fərd termini, sosial varlıq kimi psixoloji keyfiyyətlərini isə şəxsiyyət termini ilə ifadə edirlər. İnsan fərd kimi doğulur, cəmiyyətdə müəyyən sosial keyfiyyətlər kəsb edir və şəxsiyyətə çevrilir. "Şəxsiyyət" sözü Azərbaycan, rus və ingilis dillərində faktiki olaraq eyni etimalogiyaya malikdir. Azərbaycan dilində "şəxsiyyət" sözü öz əsasını ərəb sözü olan "şəxs" sözündən götürmüş və hər hansı bir konkret şəxsi simanı bildirir. Sonralar qədim Yunanıstanda və Roma imperiyasında bu sözlər aktyorun teatr tamaşasında istifadə etdiyi "maskanı" bildirirdi. Yalnız xeyli vaxt keçdikdən sonra persona sözü hazırkı dövrdə daşıdığı mənanı yəni "personality" - "şəxsiyyət" mənasında işlənməyə başlanmışdır.

Bütün qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, şəxsiyyət fərdin özünü cəmiyyətlə eyniləşdirilməsinə imkan verən davamlı fiziki və psixi xarakteristikasının məcmusundan ibarətdir.

Şəxsiyyət bioloji, sosial və psixoloji münasibətləri inteqrasiya edərək, fərdin özünəməxsus simasının yaranması prosesidir. Məhz bu iyerarxik münasibətlər sistemi inteqrativ bir keyfiyyət kimi şəxsiyyəti səciyyələndirir. Şəxsiyyət keçmişin şüursuz

meylləri və gələcəyə şüurlu yönəlmənin qarşılaşdırılmasının imkan və təzahür vasitəsidir. Şəxsiyyət dedikdə, hər şeydən əvvəl, fərdi bu və ya digər cəmiyyətin üzvü kimi xarakterizə edən sosial keyfiyyətlərin sistemi nəzərdə tutulur. Şəxsiyyət – yüksək düşüncəsi, öz hərəkət və davranışları üçün məsuliyyət hissini, şəxsi ləyaqəti vəbaşqa yüksək mənəvi keyfiyyətləri özündə birləşdirən insandır. Şəxsiyyət – müstəqil, sosil, fəal olan adamdır. Əgər şəxsiyyət öz mahiyyətinə görə sosialdırsa, mövcudluq üsuluna görə fərddir.

Şəxsiyyətə hansı tərəfdən yanaşsaq görərik ki, şəxsiyyət o adamdır ki, onun bir sıra psixoloji keyfiyyətləri olsun. Onları aşağıdakı kimi xarakterizə edə bilərik:

1. Şəxsiyyət o adamdır ki, başqalarını qavrayıb qiymətləndirməklə bərabər öz mənliyini də dərk edib qiymətləndirsin.

2. Şəxsiyyət o adamdır ki, mühitə aydın dərk olunmuş münasibəti olsun.

- Cəmiyyəti təşkil edən insanlara münasibəti;
- Onu əhatə edən əşyalara münasibəti;
- Əməyə münasibəti;
- Öz məninə münasibəti;
- Adət – ənənəyə münasibəti.

3. Şəxsiyyət o adamdır ki, özünün əqidəsi, sərvət meyli var.

4. Şəxsiyyət fəal insandır. O adam ki, cəmiyyəti dəyişə bilir, təkmilləşdirə bilir, özünü də təkmilləşdirir, özünə nəzarət edir.

Fərdin cəmiyyətdə şəxsiyyət kimi inkişafı çoxcəhətlidir. Burada dialektik surətdə iki proses uzlaşır. Bir tərəfdən, şəxsiyyət ictimai münasibətlər sisteminə daha geniş daxil olur; onun insanlarla və ictimai həyatın müxtəlif sahələri ilə əlaqələri genişlənir və dərinləşir, məhz bunun sayəsində o, ictimai təcrübəyə yiyələnir, onu mənimsəyir, oz sərvətinə çevirir. Şəxsiyyətin inkişafının bu cəhəti onun ictimailəşməsi (sosializasiyası) kimi xarakterizə olunur. Digər tərəfdən, şəxsiyyət ictimai həyatın müxtəlif sahələrinə qovuşduqca, eyni zamanda daha çox müstəqillik, nisbi avtanomluq kəsb edir, yəni onun cəmiyyətdə inkişafının mühüm cəhətini fərdiləşmə prosesi təşkil edir.



Fərd şəxsiyyətə çevrildikdə həm də fərdiyyət xüsusiyyətlərini kəsb edir. Fərdiyyət və şəxsiyyət anlayışları məzmunca qismən yaxındır. Belə ki, əgər fərdiyyət anlayışı insanın təkrarolunmaz xüsusiyyətlərini, orijinallığını ifadə edirsə, şəxsiyyət anlayışı daha çox insan müstəqilliyini, əqidə möhkəmliyini, şəxsi simasını, prinsipiallığını, çətin vəziyyətlərdə sərbəst qərar qəbul etmək (ağlın çevikliyi) qabiliyyətini göstərir. Fərdiyyət dedikdə, buraya xarakter, temperament, psixi proseslərin cərəyanetməxüsusiyyətləri, üstünlük təşkil edən hissələrin və fəaliyyət motivlərinin məcmuyu, formalaşmış qabiliyyətlər daxildir.

Şəxsiyyətin formalaşması hansı amillərə əsaslanır? Şəxsiyyətin formalaşması dedikdə, hər şeydən əvvəl, təbii, bioloji və anadangəlmə amillərlə xarici, yəni tərbiyənin, təlimin və sosial mühitin qarşılıqlı təsiri nəticəsində baş verən inkişaf prosesi nəzərdə tutulur. Şəxsiyyətin təşəkkülündə bioloji və sosial amillər məsələsi hələ də mübahisəli şəkildə qalır. Lakin məlumdur ki, insan bioloji, təbii quruluşa malik olsa da o, tarixi inkişafın məhsuludur. İnsanın bütün psixi prosesləri ictimai amillərin təsiri ilə şərtlənir.

Bu da məlumdur ki, şəxsiyyətin mahiyyəti öz təbiəti etibarilə ictimaidir və onun bütün psixi xassə və keyfiyyətlərinin inkişaf mənbəyi və yaradıcı fəallığı sosial mühitdə və cəmiyyətdədir. Lakin bütün bunlar heç də şəxsiyyətin bioloji, təbii varlıq olduğunu inkar etmək demək deyildir. Aydındır ki, insanın psixi inkişafı üçün müvafiq təbii, bioloji imkanının olması da zəruridir. İnsanın beyni, sinir sistemi və s. olmalıdır. İnsanın təbii xassələri psixi inkişafın zəruri şərtini təşkil edir. Lakin bununla bərabər, təbii xassələr özlüyündə nə insanın xarakterini, qabiliyyətlərini, nə də maraqlarını, əqidələrini, ideallarını təyin etmir. Beynin quruluşu bir bioloji orqan kimi şəxsiyyətin əsasıdır. Şəxsiyyətin bütün keyfiyyət və xassələri isə ictimai varlığın məhsulu-

dur. Ona görə də normal beyinə malik uşaq cəmiyyətin xaricində böyüdülərsə, o heç vaxt şəxsiyyətə çevrilə bilməz. İnsanın sinir sistemi ətraf aləmi dərk etmək üçün müəyyən anadangəlmə imkanlara malikdir. Lakin insanın müvafiq qabiliyyəti məhz fəaliyyət prosesində, ictimai həyat şəraitində təlim – tərbiyə nəticəsində formalaşır.

Psixologiya tarixinə nəzər salsaq şəxsiyyətin formalaşması sahəsində bir-birinin əksini təşkil edən iki nəzəriyyənin – inkişafın endogen və ekzogen nəzəriyyəsinin mövcud olduğunu gö-rərik.

Endogen (yunanca endon – daxili, genes – mənşə deməkdir) nəzəriyyələr şəxsiyyətin inkişafını bioloji amillərlə əlaqələndirərək irsiyyətin roluna xüsusi əhəmiyyət verir. Ekzogen nəzəriyyələrdə isə insan bir növ tabula rasaya (ağ lövhə) bənzədilir, şəxsiyyətinformalaşması ancaq sosial amillərin təsirilə izah olunur. Şəxsiyyətin sosializasiyası ilə bağlı müasir burjua nəzəriyyələrini də mahiyyət etibarilə ekzogen nəzəriyyələr sırasına aid etmək lazımdır.

Xarici ölkələrin müasir psixologiyasında insan şəxsiyyətində iki amilin – bioloji və sosial amillərin təsirilə formalaşan iki başlıca yarımstrukturu ayırd edən nəzəriyyələr əsas yer tutur.

## ŞƏXSİYYƏTİN SOSİALİZASİYASI

Sosializasiya – şəxsiyyətin inkişafı, bu cəmiyyətə, sosial birliyə, qrupa xas olan sərvətlərin, normaların, davranış nümunələrinin öyrənilməsi və mənimsənilməsi prosesidir. Beləliklə dünyaya gələn hər bir insan və ya fərd tədricən insan mədəniyyətini mənimsəməyə başalayır, öz xüsusiyyətlərini qazanır, cəmiyyətə daxil olur, başqa insanlar arasında özünü təsdiq edir və şəxsiyyətə çevrilir. Bu proses iki qarşılıqlı qarışan istiqamətlərdə gedir. Bir tərəfdən fərd sosial münasibətlər sistesminə daxil olaraq, öz cəmiyyətinin mədəni təcrübəsini, onun dəyərlərini və normalarını mənimsəyir. Bu halda o, ictimai təsirin obyektidir.



Digər tərəfdən isə sosiallaşaraq insan cəmiyyətinin işlərində və onun mədəniyyətinin gələcək inkişafında daha geniş və fəal iştirak edir. Burada o artıq sosial münasibətlərin subyekti iştirakçısı kimi çıxış edir.

Sosializasiya erkən uşaqlıqdan başlanır və mahiyyətcə qocalığın sonuna kimi davam edir. O, fərdin mədəniyyətə daxil olmasının bütün proseslərini (onun öyrədilməsi və tərbiyəsi, başqa insanlarla qarşılıqlı təsiri, onun cəmiyyətin dəyər və normalarını, müxtəlif sosial rolları, birgə fəaliyyət növlərini mənimsəməsi, müəyyən hüquq və vəzifələrin, baxışların, vərdişlərin və s. qazanılması) əhatə edir. Nəticədə insan tədricən bioloji varlıqdan cəmiyyətdə yaşamağa və fəaliyyət göstərməyə qabil sosial varlığa çevrilir. (bu sivilizasiyanın toxunmadığı feral insanlarda baş vermir).

Sosializasiyanın bilavasitə sferaları ailə, tərbiyə və tədris müəssisələri, əmək kollektivləri, dostların, tanışların, qonşuların əhatəsi, kütləvi informasiya vasitələri və s.dir. Bununla yanaşı insanları fasiləsiz sosializasiyası prosesində mədəni təcrübənin toplanılması və nəsildən-nəslə ötürülməsi baş verir (mədəni transmissiya).

Öz məzmununa görə sosializasiya iki tərəfli prosesdir. Bir tərəfdən o, cəmiyyətin sosial-tarixi təcrübənin, simvollarının, sərvətlərin və normaların ötürülməsindən digər tərəfdən isə fərdin onları mənimsəməsindən ibarətdir.

Sosializasiya həyat silsiləsi ilə üst-üstə düşən mərhələlərdən keçir. Həyat silsilələri – insanın tərcümeyi halında vacib mərhələlərdir. Onlar sosial «Mən»İnin inkişafının keyfiyyət mərhələləri – məktəbəqədər dövr, məktəbdə təhsil alma, tələbəlik həyatı, evlənmə. Orduda xidmət, peşənin sneçilməsi və işə düzəltmə, təqaudə çıxma kimi qiymətləndirilə bilərlər. Həyat silsilələri sosial rolların dəyişməsi, yeni sosial statusun əldə edilməsi, həyat tərzinin dəyişməsi ilə əvvəlki adətlərdən, ətrafdan imtina etmək və s. ilə bağlıdır.

Şəxsiyyətin sosiallaşması bəşəriyyətin, sosial təcrübənin nəsildən-nəslə verilməsini üzvi surətdə özündə ehtiva edir. Bu baxımdan varislik ənənələrinin saxlanılması və mənimsənilməsi adamların gündəlik həyatından ayrılmazdır. Bu isə öz növbəsində yeni nəsillərin, cəmiyyətin iqtisadi, sosial, siyasi və mənəvi problemlərinin həllinə cəlb olunmasına şərait yaradır, belə ki, şəxsiyyətin sosiallaşması ictimai cəhətdən əhəmiyyətli keyfiyyətlərin bir və ya bir neçəsini deyil, onun bütün elementlərinin tədqiqat obyektinə çevrilməsini nəzərdə tutur, bu zaman qarşıda duran başlıca vəzifə şüur və davranışdakı stereotiplərin neqativ ünsürlərinin aradan qaldırılmasına nail olmaqdan ibarətdir.

Uşaqların sosializasiyası multifaktorlu prosesdir: onların cəmiyyətlə inteqrasiyası mürəkkəb və çoxcəhətli sosializasiya proseslərindən başlayır, bu proseslərin axarında da inkişaf edir.

Cəmiyyət həyatının bənzərsiz rol repertualları var. Uşaqlar doğulduqları gündən komik. Dramatik və ya faciəli rollar aləminə düşür, yazılmış qaydalardan çox yazılmamış qaydaları ilə seçilən bu rolları ifadə etmək üçün zəruri olan təcrübəni mənimsəyirlər. İctimai təcrübənin mənimsənilməsi sosializasiya proseslərinin vektorunu təşkil edir.

Sosializasiya anlamı sosiologiyada müxtəlif yönümlərdə araşdırılıb. 40-50 ci illərdə onun sosial psixoloji problemi ayırd edilmiş, psixoloji cərəyanlarda müxtəlif yönlərdə təhlil olunmuşdur.

Sosializasiya proseslərinin müxtəlif təsnifatları məlumdur. Bu təsnifatlarda sosializasiyanın 4 başlıca sistemi -mikro-, -mezo-, -ekzo- və makrosistemləri ayırd edilir. Bu sistemlər aşağıdakı kimi səciyyələnir:

Mikrosistem: ailə+dini qruplar+həmyaşıd uşaqlar cəmiyyəti+yaşayış yerinin sosial-mədəni mühiti+tərbiyə inistutları.

Mezosistem: etnomədəni amillər+yaşayış məskəninin tipi+kütləvi kommunikasiya vasitələri.



Ekzosistem: valideynlərin iş yeri+yerli səhiyyə şöbələri+məişət şəraitinin yaxşılaşması+uşağın bacı və qardaşlarının ailəsi+dostları.

Makrosistem: planetar proseslər+ölkənin təbii-coğrafi xüsusiyyətləri+cəmiyyət+dövlət.

İstər mikro, istər mezo və ekzo, istərsə də makro amillərdən hər birinin sosializasiya prosesində öz rolu olsada, onlar bu mürəkkəb prosesi qarşılıqlı əlaqədə şərtləndirir.Sosializasiya prosesinin özünəməxsus mexanizmləri var. Onlardam ikisi – imitasiya və identifikasiya xüsusilə önəmlidir.

İmitasiya-müəyyən sosial modelin şüurlu şəkildə yamsılanması kimi özünü göstərir.

İdentifikasiya-prosesində isə uşaq özünü təqlid obyekti ilə eyniləşdirir və bu yolla sosial təcrübəni mənimsəyir.

Sosializasiya prosesində insan mədəniyyət və sosial münasibətlər aləminə daxil olur.Müəyyən sosial qrupun nümayəndəsi kimi formalaşır. Sosial psixologiyada bu çoxcəhətli prosesi adaptasiya, fərdiləşmə və inteqrasiya kimi səciyyələndirirlər.

M.R.Bityanova sosial cəhətdən əhəmiyyətli keyfiyyətlərin 4 qrupunu ayırd etmişdir.

Birinci qrup keyfiyyətlərə- sosial-psixoloji qabiliyyətlər aiddir. Bu qabiliyyətlər şəxsiyyətin adaptasiyasını və özünüreallaşdırmasını təmin edir.

İkinci qrup keyfiyyətlər- Ünsiyyət prosesində əmələ gəlir. İnsanların bir-birinə etibarı və s. bura aiddir.

Üçüncü qrup keyfiyyətlər- İnsanın başqaları ilə ünsiyyət prosesində mövqeyini şərtləndirir. Aktivlik, sosail məsuliyyət bu qrupa daxıldır.

Dördüncü qrup keyfiyyətlər- İnsanın fərdi xüsusiyyətləri özünü göstərir. Ətrafdakı insanlara münasibət, təfəkkür, çeviklik və s. daxildir.

## ŞƏXSİYYƏTİN YÖNƏLİŞLƏRİ

Elmdə yönəliş anlayışı ilk dəfə 1862-ci ildə Herbert Spenser tərəfindən işlənilmişdir. Yönəlişlik haqqinda ümumi nəzəriyyəni isə 20-ci illərin sonu 30-cu illərin əvvəllərində gürcü psixoloqu akademik D.N.Uznadze yaratmışdı. D.N.Uznadze özünün ilk nəzəri-metodoloji əsərlərində psixologiya elmində hökm sürən mexaniki fikirləri tənqid edir, ənənəvi empirik psixologiyadan, biheviorizmdən və s. fərqli olaraq yeni konkret psixologiya yaratmaq vəzifəsini irəli sürürdü. Bunun üçün psixika və davranışın hər hansı bir təzahürünün əsasını təşkil edən başlıca şəxsiyyət amilini tapmaq zəruri idi. D.N.Uznadze 20-ci illərin sonunda bu məqsədlə yönəlişlik anlayışından istifadə etməyə başladı, ən başlıcası isə həmin fonomeni öyrənmək üçün xüsusi üsul kəşf etdi. "şerpante illuziyası" bu üsul yönəlişliyin xüsusiyyətlərini öyrənmək üçün klassik üsul hesab olunur. D.N.Uznadze və onun əməkdaşları sonralar tanış olduğumuz eksperimental model əsasında yönəlişliyi öyrənmək üçün müxtəlif metodikalar işləmiş, müxtəlif sahələrdə yönəlişliyin təsirini bütün, aydınlığı ilə göstərən dəqiq eksperimental faktlar müəyyən etmişlər. Dünya psixoloji ədəbiyyatında faktlar yüksək qiymətləndirilmiş, məşhur isveç psixoloqu Jan Piaje onları "uznadze effekti" adlandırmışdır.

D.İ.Uznadze iki tərkibli stimul-reaksiya davranış modelinin əksinə olaraq aşağıdakı üç tərkibli davranış modelini irəli sürdü; stimul-yönəlişlik(fərd)- reaksiya məsələnin belə qoyuluşunun nəinki nəzəri, həmdə metodoloji əhəmiyyəti var. davranışın üç tərkibli təhlili sxemi ənənəvi psixologiyada, o cümlədən biheviorizmdə hökm sürən mexanizmi aradan qaldırmağa imkan verirdi. Həmin sxemə görə fərdin reaksiyası təkcə ona təsir göstərən stimulla deyil, həmdə xarici aləmin təsiiylə onda formalaşmış yönəlişlik halı ilədə şərtlənir.

Yönəlişlik insanın bütöv psixi aləti kimi mühitlə davranış, mühitlə şüurun əlaqəsini şərtləndirir.



Yönəlişliyin müxtəlif növləri vardır. Onlardan biri sosial yönəlişlik adlanır. İnsan şəxsiyyət kimi müxtəlif sosial münasibətlərə daxil olur; ailənin, dostlar qrupunun, müəyyən bir ölkənin, sinfin, və s kimi təşkilatların üzvüdür. O ifadə etdiyi rollar vasitəsiylə sosial qrupun sərvətlərini mənimsəyir, vətən, mənəvi zənginlik, pul, xoşbəxtlik haqqinda təsəvvür və anlayışlara yiyələnir. Bu prosesdə insanda müxtəlif sosial yönəlişlər əmələ gəlir və onun fəaliyyətinin istiqamətini müəyyən etməyə başlayır.

Sosial yönəlişliyin mahiyyətini aydınlaşdırmaq üçün psixoloqlar "Lapyer paradoksuna" müraciət edirlər. Sosial psixologiyada bu nəticə müxtəlif müəlliflər tərəfindən müxtəlif istiqamətlərdə təhlil olunmuşdur. Biz gündəlik həyatmimızda "Lapyer paradoksuna" rast gəlirik. Çox vaxt adamlarda bu və ya digər formada sosial yönəlişlik əmələ gəlir.

Akademik D.N.Uznadzenin sözləri ilə desək, tələbat və həmin tələbata müvafiq situasiya yönəlişliyin müəyyən istiqamətdə təzahür etməsi üçün zəruri şərtdir. Əgər situasiya və tələbatlar insana birlikdə təsir etmirsə, yönəlişlik əmələ gəlmir və gələ bilməz. Bu cəhət sosial yönəlişlikdə də bütün aydınlığı ilə özünü göstərir.

Şəxsiyyətlərarası Konflikt

Müasir sosial həyatda konfliktlərin artması onların sosial-psixoloji aspektlərinin tədqiqinə diqqəti artırır. Məlumdur ki, konflikt ziddiyyətlərin mübarizəsi zəminində baş verir ki, bura bir-birinə zidd mövqelər, maraqlar, baxışlar, əqidələr, adətlər, inkişaf səviyyələri və s. daxildir. Konflikt başlanğıcda tərəflərdə mənfi emosiyalar yaratsa da, bəşəriyyət ziddiyyətlərin mübarizəsi fonundainkişaf edir ki, bu da konfliktin əsas konstruktiv funksiyasıdır.

İnsan bir çox ziddiyyətləri, konflıktləri həll etdikcə isə həyatını bir növ rahatlaşdırır və fəaliyyəti üçün normal şərait yaradır. Həll olunmuş konfliktlər hər iki tərəfi ciddi fəaliyyətə sövq edərək sonda onların inkişafına zəmin yaradır. Konflikt sözüçox

mürəkkəb anlayışdır. Bir çox dillərdə "konflikt" sözü, demək olar ki, eyni cür yazılsa və oxunsa da, bu söz hətta psixoloji ədəbiyyatda belə müxtəlif məna və məzmun kəsb edir .Bir çox alimlər "konflikt" anlayışının məzmununu konflikt vəziyyətindəolan tərəflər arasında müəyyən uyğunsuzluğun, ziddiyyətin, toqquşmanın, müqavimətin, mübarizənin mövcudluğu kimi açıqlayır. Konflikt sözü həm dar, həm də geniş mənada işlənə bilər. Konflikt dar mənada maraqlar, dəyərlər, hərəkətlər, davranışlar və s. arasında mövcud olan kəskin, çətin həll olunan və ya həlli mümkünsüz ziddiyyətdir. Geniş mənada isə konflikt kimlərinsə arasında olan istənilən uyğunsuzluqdur. Konfliktlərə sosial psixoloji yanaşmanın xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

Sosial-psixoloji yanaşmada insanlar arasında şəxsiyyətlərarası vəqruplararası konfliktlər, həmçinin fərd və qrup arasındakı konfliktlər tədqiq olunur. Birinci halda ayrı-ayrı insanlar arasında yaranan, ya da ayrı-ayrı social qrupların daxilində onların üzvləri arasında yaranan konfliktlər nəzərdətutulur. İkinci halda isə əsasən kiçik, orta və ya böyük sosial qruplar arasında mövcud olan konfliktlər nəzərdə tutulur. Üçüncü halda isə ayrı-ayrı insanlar ilə sosial qrupların bütün üzvləri və ya əksəriyyəti arasında yaranan konfliktlərdən danışılır. İştirakçılarının tutduğu mövqeyə görə konfliktlər qeyri-müəyyən, müəyyən və barışmaz olur.

Qeyri-müəyyən konflikt onunla izah olunur ki, konflikt vəziyyətindəolan insanlar onun nə üçün yaşandığını və aralarındakı narazılığın nədən ibarət olduğunu tam aydın dərk etmirlər. Bundan başqa bu zaman insanlar özlərinin haqlı olduqlarına şübhə edirlər və aralarındakı konfliktə səbəb olan məsələ ilə bağlı istənilən an kompromisə getməyə hazır olurlar. Müəyyən konfliktlər zamanı tərəflərin mövqeləri dəqiq müəyyənləşmiş olur və onlar mədəni şəkildə bir-birlərilə birbaşa toqquşmalardan qaçaraq bu mövqeləri müdafiə edirlər. Bu halda konfliktdə olan tərəflər öz fikirlərinin düzgünlüyünə əmindirlər və həmçinin də qarşı tərəfi dinləməyə, başa düşməyəvə öz fikrini ona səbr və inadkarlıqla izah etməyə hazırdırlar. Tərəflərin bir-birlərinə güzəştə getməyə hazır olmadıqları və istəmədikləri konflikt barışmaz konflikt adlanır. Bundan başqa onlarda bir-birini dinləmək və başa düşmək istəyi belə olmur. Bu halda tərəflərin hər biri hesab edir ki, özləri tamamilə haqlıdır və qarşı tərəf haqsızdır, həmçinin qarşı tərəf şüurlu və məqsədyönlü şəkildə onlara öz məqsədlərinə çatmağa mane olur. Əgər ilk iki konflikt tipi - qeyri-müəyyən və müəyyən konfliktlər həlli mümkün olan konfliktlərdirsə, sonuncu konfliktin həlli mümkünsüzdür. Öz nəticələrinə görə konstruktiv və destruktiv konfliktlər də mövcuddur. Əgər yarandığı sahədə konfliktin həlli real vəziyyəti yaxşılaşdırırsa bu konstruktiv konfliktdir.



Destruktiv konflikt isə hətta uğurla həll olunduqda belə vəziyyəti pisləşdirir. Konfliktin strukturu problemi. Konfliktin strukturu bir tərəfdən onda iştirak edən insanlar, digər tərəfdən isə onların mübahisəsinin və narazılığının predmetidir. Konfliktdə iştirak edən tərəflər onda əsas və ya ikinci dərəcəli rol oynaya bilər. Onun əsas iştirakçıları aralarında konflikt yaşanan və mövcud olan insanlardır. Konfliktin ikinci dərəcəli və ya əlavə iştirakçıları isə müvafiq konflikti dəstəkləyən (konfliktin pravakatorları) və ya onu həll etməyə çalışan (vasitəçilər) insanlar və ya sosial qruplardır. Bəzən konflikt iştirakçıları kimi həmin konfliktdə iştirak etməyən amma istər-istəməz ona aiddiyyatı olan insanlar da çıxış edir. Belə insanları və ya sosial qrupları konfliktli situasiyaya cəlb olunanlar adlandırırlar. Onlar özləri konfliktdə fəal rol oynayırlar, onun vasitəsiz iştirakçıları rolunda çıxış etmirlər və konfliktin provakatorları və ya barışdırıcıları adlanırlar, amma konflikt bu və ya digər şəkildə onlara vəonların taleyinə təsir göstərir. Demək olar ki, konfliktin həlli də onlardan çox asılı olur.Konfliktin struktruna onun predmeti və konfliktin həlli zamanı tərəflərin tutduğu mövqelər də daxildir. Əgər konfliktin həlli mövcuddursa onda onun struktruna bu həlləri də daxil etmək olar. Bu həllər konfliktdə olan tərəflərəmalum və ya naməlum, tətbiqi mümkün və ya mümkünsüz ola bilər. Konflikt

iştirakçılarının hərəkətləri, davranışları və reaksiyalarına əsasən müvafiq konfliktlərin təsnifatı aşağıdakı kimidir:

1. "Hərəkət -hərəkətsizlik" tipli konflikt. Bu onunla xarakterizə olunur ki, məqsədə çatmaq üçün qruplara birgə fəaliyyət zəruri və labüddür. Tərəflərdən biri belə fəaliyyəti qəbul edir, digəri isə əksinə fəaliyyətsizdir;2. "Hərəkətsizlik -hərəkətsizlik" tipli konflikt. Bu tip konfliktin mahiyyəti ondadır ki, hər iki tərəf öz məqsədinə nail olmaq üçün müəyyən birtərəfli fəaliyyət göstərdiyini qəbul edir. Ancaq tərəflərdən hər biri bunu qarşı tərəfin reallaşdıracağını gözləyir. Son nəticədə konfliktin hər iki tərəfi hərəkətsizlik nümayiş etdirir;

3. "Hərəkət - ziddhərəkət" tipli konflikt. Konfliktin bu növü onunla fərqlənir ki, tərəflərdən biri müəyyən istiqamətdə hərəkət edir, o biri isə ona qarşısına qoyduğu məqsədə nail olmağa mane olaraq zidd hərəkət edir. Beləkonfliktlər daha kəskin və çətin həll olunan olunurlar.

A.Maslounun özünüreallaşdırma nəzəriyyəsinə görə konflikt şəxsiyyətin özünüreallaşdırma səviyyəsində təzahür edir. Məsələn, bir insan (qrup) özünü reallaşdırmağa çalışır, digəri isə ona mane olur. V.Franklin humanistik konsepsiyasına əsasən isə konfliktlər "həyat mənaları" səviyyəsindəmövcud olur. Konfliktlərə koqnitiv yanaşma nöqteyi-nəzərindən baxdıqda isə konfliktlərin səbəbləri insanların (qrupların) koqnitiv sferasında mövcud olan ziddiyyətlərdəgörülür. Belə ziddiyyətlər çoxsaylı ola bilər. Məsələn, biliklər, mühakimələr, dəyərlər, münasibətlər və s. arasındakı ziddiyyətlər.



## Sosial davranışın mədəni müxtəlifliyi: individualizm və kollektivizm

Mədəniyyət anlayışı nəinki çoxaspektlidir, həm də çoxfunksionaldır. Mədəniyyətin bir çox mühüm funksiyaları içərisində ən vacib olanı – requlyativ funksiyasıdır, yəni mədəniyyət insanların davranışını bu və ya digər dərəcədə müəyyənləşdirir. İnsanların davranışlarının fərdiləşməsində mühüm mədəniyyətlərarası və şəxsiyyətlərarası fərqlər mövcuddur. Mədəniyyət insanların sosial davranışlarına təsir göstərir və insanların davranışlarını müəyyənləşdirir. Belə davranışları sosiotipik davranışlar adlandırırlar. Bu davranış müəyyən mədəniyyətin tipik proqramlarını və icmalar üçün standart situasiyalarda davranışı tənzimləyir və fərdləri şəxsi qərarların qəbul edilməsindən azad edir.

İnsanların davranışlarını tənzimləyən hansı proqramlardır? Sosiotipik davranışının tənzimləyicisi kimi ənənə çıxış edə bilər. Dünya elmində son onilliklər ənənə dedikdə daha geniş proses və hadisələr başa düşülür. Müasir dövrdə ənənə anlayışı mədəniyyət üçün sabit (stereotipik) olan davranış formalarının daxil edilməsinə görə daha da genişlənib. Əvvəllər ənənə və adətlərə həyatın müxtəlif sferalarına aid olan kateqoriyalar kimi baxılırdı: ənənə - cəmiyyətin mənəvi həyatına, adətləri isə - müşahidə olunan davranışlara aid edirdilər. Buna müvafiq olaraq etnopsixologiyada ənənələr kimi nəsildən nəsilə ötürülən insanın dünyaya münasibətin xüsusiyyətləri – dəyərləri, maraqları, əxlaqi normaları öyrənilirdi, adətlər kimi isə davranışın sabit formaları və ya stereotipləri öyrənilirdi.

Mədəniyyət anlayışı daha geniş anlayışdır və ənənə termini onun mərkəzi bir hissəsidir. Müasir etnopsixologiyada ənənələrin məhz dəyərlər və normalar kimi öyrənilməsi daha geniş vüsət almışdır.

Ədəbiyyatın böyük bir həcmini təhlil etdikdən sonra U.və K.Stefanlar mədəniyyətin 11 ölçülərini seçmişlər.

1. İndividualizm və kollektivizm və yaxud fərdi/qrup məqsədlərinə yönəlmə
2. Mədəniyyətdə qəbul edilmiş normaların pozulmasına tolerantlığın dərəcəsi
3. Qeyri-müəyyənlikdən uzaqlaşma dərəcəsi
4. Maskulinizasiya/feminizasiya, yəni mədəniyyətdə qadın/kişi üçün stereotip keyfiyyətlərinin qiymətləndirməsi
5. "Yaxşı", "pis", "qarışıq" kimi insan varlığının təbiətinin qiymətləndirilməsi
6. Mədəniyyətin mürəkkəbliyi, onun differensiasiya dərəcəsi
7. Emosional kontrol, yəni emosional ekspressiyanın mümkün ola bilən dərəcəsi
8. Əlaqələrin yaxınlığı, yəni ünsiyyət zamanı mümkün ola bilən məsafə və toxunmalar
9. Fərd və "hakimiyyət" arasında distansiya
10. Yüksək kontekstlik/aşağı kontekstlik, yəni situasiyadan asılı olaraq davranışda fərqlərin maksimallaşması/ minimizasiyası
11. İnsan/təbiət dixotomiyası, yəni insanın təbiət üzərində hökmranlığı, təbiətə tabe olması, təbiətlə harmoniyada yaşaması dərəcəsi.

"Mədəniyyət ölçüləri" müxtəlif çoxsaylı elementləri əhatə edir, cəmiyyəti və fərdin davranışını tənzimləyir. Lakin bütün hallarda ənənələrin elementləri – dəyərlər, normalar, adətlər – strukturun mərkəzi komponentləri kimi təhlil olunmalıdır. Triandis bunları "mədəniyyət sindromları" adlandırmışdır. Məs, individualizmin mədəniyyət sindromu kimi mədəniyyətin ayrıca fərdə yönəlməsidir, kollektivizmin isə mədəniyyət sindromu hər hansı bir kollektivə (ailə, etnos, dini qrup və s.) yönəlməsidir.

Bir çox mühüm tədqiqatçıların fikrincə (Triandis, Berri) mədəniyyətin kollektivə və ya şəxsiyyətə yönəlməsində ən mühüm fərqlər əks etdirilir.

İndividualizm və kollektivizm



Sosial psixoloqlar bu mövzuyla son zamanlar maraqlanmışlar, lakin antropologiyada, sosiologiyada və ümumi psixologiyada bu mövzuya çox ciddi tədqiqatlar həsr olunmuşdur. C.Brunerə görə idraki inkişafa iki əsas mədəni faktorlar təsir göstərir – dəyərlərin ya kollektivə və ya fərdə yönəlməsidir. Brunerə görə, individualist yönəlmə daha çox müasir mədəniyyətlər, kollektivist yönəlmə isə ənənəvi mədəniyyətlər üçün xarakterikdir. Bu mədəniyyətlərdə şəxsiyyətin subyektivliyi tətbiq olunmur, əksinə insanın və dünyanın birliyi, reallığı ideyası əsasdır. İnsanın mühit üzərində hökmranlığın olmamasını Bruner kollektivist yönəlməsi ilə əlaqələndirirdi, çünki ənənəvi cəmiyyətdə fərd mühitin şərtlərinə təsir etmək imkanlarına malik deyil. O özünü fiziki reallığdan və başqa fərdlərdən daha az ayırır.

Amerikalı tədqiqatçı individualist və kollektivist yönəlməsini formalaşdıran faktor kimi uşaqların erkən hərəkətlərini böyüklər tərəfindən interpretasiyasını əsas tuturdu. Məs, Seneqaldakı uolof tayfasının balaca uşaqların hərəki fəallığı özü – özlüyündə izah olunmur. Yalnız tayfanın üzvlərinə münasibəti bildirən nişan kimi izan olunurdu. Brunerin fikrincə, hərəki aktların sosial interpretasiyası uolof uşaqların gələcəkdə özünü daha çox qrupla identifikasiya etməsinə səbəb olacaq və onlar fiziki, sosial hadisələri az fərqləndirəcəklər.

İndividualist mədəniyyətlərdə isə uşağın diqqəti fiziki aktivliyin digər tərəfinə yönəldilir. Onun hərəkətləri hərəki aktların uğurlu nöqteyi-nəzərindən interpretasiya olunur, digər insanlar isə bu aktların reallaşması üçün əhəmiyyətsiz olurlar.

İndividualizm/kollektivizm dixotomiyası bir çox digər tədqiqatçıları

da maraqlandırmışdır. Amerikalı antropoloq Hsyu amerikalıları və çinliləri müqayisə etmişdir. Onun fikrincə, amerikalıların bütün həyat tərzi ayrıca fərddə mərkəzləşdirilib, çinlilərin isə həyat tərzi daha çox situasiyalarda mərkəzləşdirilib.

Kollektivizm və individualizm mövzusunu Hofstedenin apardığı mühüm empirik tədqiqatlar zənginləşdirmişdir. O, öz

tədqiqatlarını 50 ölkələrdə aparmış və nəticədə ən çox individualizmi ABŞ, Avstraliya, Böyük Britaniya vətəndaşları, ən az isə - Pakistan, Kolumbiya, Venesuela vətəndaşları nümayiş etdirmişlər.

İndividualizmin əsas mənası – insan ictimai məqsədlərə deyil, öz şəxsi məqsədlərə müvafiq olaraq qərarları qəbul edir və hərəkət edir. İndividualist mədəniyyətlərdə "Mən" müstəqil, qrupdan kənar da yaşaya bilən bir vahid kimi müəyyənləşdirilir, fərdləri isə sosial qavrayışın əsas vahidləri kimi qavrayırlar. İndividualistlər nuklear ailədən başqa bir çox qrupların üzvüdürlər. Onlar ailə üzvləri ilə az identifikasiya olurlar və onlardan o qədər də asılı olmurlar. Qruplar fərdlərin davranışlarına az təsir göstərirlər. Hətta valideynlər uşaqlarının dostların, işin, yaşayış yerinin seçilməsinə az təsir edirlər. Qrup daxilində mübahisə və münaqişələr münasib hesab olunur. Emosional olaraq individualistlər özlərini başqalarından ayırırlar və təkliyə meyllidirlər.

İndividualist mədəniyyətin əsas dəyərləri - əməllərində azadlığ, mülahizələrdə müstəqillik, əhatə üzərində hökmranlıq – fərdə özünü hər bir mühitdə və ya təklikdə komfortlu hiss etməyə, başqalarından fərqlənməyə və müstəqil olmağa imkan verir.

İndividualist mədəniyyətlərdə davranış daha çox sosial yönəlişlərlə tənzimlənir nəinki qrup əxlaqı normalarla. Hətta belə mədəniyyətlərdə normaların pozulmasına normal baxılır – orijinallığa, qeyri-adiliyə meyllilik alqışlanır. Mövcud olan normalar qrupdan asılı olmamağı həvəsləndirir – pulları və əşyaları borc almaq qəbul olunmur.

Kollektivizmin əsas mənası – qrup mənafelərinin şəxsi mənafelərindən üstünlüyü təşkil etməsidir. Kollektivist öz qərarlarının və hərəkətlərinin qəbulunda onun üçün mühüm olan cəmiyyət tərəfindən maraqlıdır. "Mən" qrup üzvlülüyü nöqteyi-nəzərindən müəyyənləşdirilir, sosial identifikasiya daha önəmlidir nəinki şəxsi identifikasiya. Sosial qavrayışın əsas vahidləri isə qruplardır.



Kollektivistlər özlərini daha az qrupların üzvləri kimi dərk edirlər, lakin onlarla daha sıx bağlı olurlar. Onlar özlərini başqa insanların həyatlarına cəlb edilmiş hiss edirlər, çətin anlarda kömək etmək tələbatı üstündür, bağlılığı göstərmək, seçim situasiyasında məsləhətləşmək və s. xarakterikdir. İnsanlararası əlaqələrdən danışanda bunu qayğı sözü altında ümumiləşdirmək olar.

Fərdlərin davranışına qruplar çox böyük təsir göstərirlər. Ən mühüm qruplar - ailə, qohumlar, iş yoldaşları hesab olunur. Bu qruplarda insanlar başqaları ilə öz daimi statuslarına əsaslanan qarşılıqlı vəzifə və gözləmələrlə bağlıdırlar.

Triandis kollektivizmin iki tipini göstərir: vertikal və horizontal.

Vertikal kollektivizmdə - qrup üzvlərinin iyerarxiyası aksentləşir. Özünütəyinetmə qrup iyerarxiyasında xüsusi yerlə bağlıdır, fiziki və sosial məkan isə "hörmətli – az hörmətli" terminlərlə müəyyənləşir.

Horizontal kollektivizm isə qarşılıqlıasılılıq və birliyə aksentləşir.

Kollektivizm mədəniyyətin əsas dəyərləri - ənənələrə riayət etmə, borc hissi, tabeçilik qrupun birliyinin qorunmasına, onun üzvlərinin qarşılıqlıasılılığına və harmonik münasibətlərə səbəb olur.

Kollektivist mədəniyyətlərdə qrup normaları davranışın daha vacib tənzimləyicisidir. Düzgün davranış, adətlərə görə yaşamaq daha yüksək qiymətləndirilir. Qrupdan asılılıq normativ həvəsləndirilir: pulların və ya əşyaların borc edilməsi münasibətlərin qorunmasına səbəb olur.

## Mədəniyyətlərarası adaptasiyanın xüsusiyyətləri

Düşünmək lazım deyil ki, müxtəlif ölkə və millətlərin arasında vasitəsiz əlaqələrin yaradılması onların arasında daha asan və etibarlı münasibətlərə gətirib çıxarar. Bütün miqrantlar yerli əhali ilə qarşılıqlı münasibətlərdə olanda çətinliklərlə rastlaşırlar. Həmin ölkənin adətləri qəribə, ölkə isə sirli gəlir. Neqativ stereotipləri hansısa direktiv göstərişlərlə sındırmaq və tanış olmayan həyat tərzi, adət-ənənələrdən isə imtina etmək qəti bir sadələşdirmə olardı. Bəzən şəxsiyyətlərarası ünsiyyətin çoxalması stereotiplərin daha da güclənməsinə də gətirə bilər. Ona görə müxtəlif ölkə və xalqlar arasında az travmatik və etibarlı ünsiyyətin hansı şərtlərlə qurmasını təyin etmək vacibdir.

Tədqiqatçılar müxtəlif mədəniyyət və etnoslarının nümayəndələrinin qarşılıqlı əlaqələrinin əlverişli olması üçün bir neçə dəyişkən kəmiyyətləri nəzərdən keçiriblər:

yalnız bir qrup üçün doğma və ümumi olan ərazi

qarşılıqlı əlaqələrin müddəti (daimi, uzun və qısa).

məqsəd (birgə fəaliyyət, təhsil, asudə vaxtı)

cəmiyyətin həyatına qoşulma tipi (iştirakdan müşahidəyə qədər)

əlaqələrin tezliyi və dərinliyi

status və hüquqların nisbi sabitliyi

açıq-aşkar fərqli xüsusiyyətlər (dil, din, irq)

Lakin ünsiyyətin əlverişli şərtləri olduqda belə miqrantlarda yerləşdikləri ölkənin nümayəndələri ilə ünsiyyətdə çətinliklər və gərginliklər yarana bilər. Çox vaxt miqrantlarda nostalji hisslər baş qaldırır. Alman filosofu və psixiatrı Yaspersin qeyd etdiyi kimi vətən həsrəti insanlara çox qədimdən tanış olan bir duyğudur. Ona görə də mədəniyyətlərarası adaptasiyanın öyrənilməsi çox böyük əhəmiyyət daşıyır. Geniş mənada bu mürəkkəb bir proses sayəsində insan yeni mədəni mühitlə bir uyğunluq tapır. Adətən adaptasiyanın daxili tərəfini qeyd edirlər hansı ki məmnuniyyət və həyat dolğunluğu duyğuları ilə ifadə olunur. Xarici tərəfi isə fərdin yeni qrupun sosial və mədəni həyatında iştirakında ifadə olunur.



Mədəniyyətlərarası adaptasiya problemlərinə maraq elm dünyasında 20 əsrin əvvəllərinə təsadüf edir. Lakin uzun müddət ciddi araşdırmaları yalnız etnoloqlar (Redfild, Linton) aparmış. İlkin olaraq akkulturasiyaya (mədəniyyətə adaptasiya) qrup səviyyəsində olan bir fenomen kimi baxılırdı. Yalnız sonralar psixoloji akkulturasiya fenomeni təklif olunmuşdu. Əgər akkulturasiya – qrup mədəniyyətində dəyişiklik prosesidir, psixoloji akkulturasiya isə - fərdin psixologiyasında dəyişiklik prosesidir. Lakin hər iki hallarda fərdin dəyərlərinin, rol davranışının, sosial yönəlişliklərinin dəyişilməsi nəzərdə tutulur.

1950-ci illərdən başlayaraq mədəniyyətlərarası adaptasiyaya maraq yarandı və bu da kütləvi miqrasiya prosesləri ilə stimullaşdırılmışdır. Söhbət yeni mədəni mühitə uyğunlaşma zamanı yaranan patoloji fenomenlərə aid çoxsaylı tədqiqatlardan gedirdi. Hələ ən birinci insanın yad mədəniyyətə uyğunlaşa bilməmək hadisələrini psixiatrlar fikir vermişdilər. İsveçrə həkimi Hofer vətən həsrətini nostalgiya adlandırmışdır və bu problem 17 əsirdən öyrənilməyə başlanılmışdır.

Uğurlu uyğunlaşma yaxın (yeni) əhatə ilə harmoniya hissi kimi müəyyənləşdirilir və gəlmələrin məmnuniyyət hisslərinin, psixoloji rifah və psixi (mənəvi) sağlamlığının təhlilinə əsas diqqət yetirilir.

## Mədəniyyət sarsıntısı ("mədəni şok") və mədəniyyətlərarası adaptasiyanın mərhələləri

Mədəniyyət sarsıntısı anlayışını amerika antropoloqu K.Oberq tərəfindən təqdim olunmuşdur. Oberqin fikrincə, yeni mədəniyyətə daxil olma xoşagəlməz hisslərlə müşayiət olunur – dostların və statusun itirilməsi, rədd edilmə, mədəniyyətlərarası fərqləri dərk etmə zamanı diskomfort və təəccüb, dəyərlərdə, eləcə də sosial və şəxsi identifikasiyada qarışıqlıq,yaradır.

Mədəniyyət sarsıntısının simptomları cox müxtəlifdir: qida, suyun keyfiyyəti, qabların, yataq dəstlərinin təmizliyi barədə daimi narahatçılıq, başqa insanlarla fiziki kontaktların qorxusu, ümumi narahatçılıq, alkoqol və narkotiklərə aludə, psixosomatik xəstəliklər, depressiya və intihar cəhdləri. Situasiya üzərində kontrolu itirmək hissi, şəxsi səriştəsizlik və ümidlərin doğrulmaması yerləşdikləri ölkənin nümayəndələrinə qarşı qəzəb, aqressiya, düşmənçilik hisslərində ifadə oluna bilər.

Çox vaxt "mədəni şok" neqativ nəticələrlə müşahidə olunur, lakin onun pozitiv tərəfi də var. Bəzən mədəniyyət sarsıntısı nəticəsində fərdlərdə yaranan ilkin diskomfort yeni dəyərlər və davranış modellərinin qəbuluna gətirib çıxarır. Bu isə şəxsi inkişaf və şəxsi artım üçün cox vacibdir. Bundan çıxış edərək kanada psixoloqu Berri "mədəni şok" əvəzinə "akkulturasiya stressi" anlayışını təklif etmişdir, çünki "şok" sözü neqativ təcrübə ilə assosiasiya olunur. Mədəniyyətlərarası əlaqələr nəticəsində isə müsbət təcrübə də əldə olunur – problemlərin qiymətləndirilməsi və aradan qaldırılması.

Triandis adaptasiya prosesinin 5 mərhələsini qeyd edir:

"Bal ayı" – ruh yüksəkliyi, yüksək əhval-ruhiyyə, böyük ümidlərlə xarakterizə olunur. Doğrudan da, çoxlarını xaricdə gözləyirlər (tələbələri, iş adamlarını, qohumları). Onları qəbul edənlər çalışırlar ki, onlar özlərini evdəki kimi hiss etsinlər, hətta müəyyən güzəştlərə gedirlər. Lakin bu mərhələ tez keçir.



Bu mərhələdə tanış olmayan mühit artıq öz neqativ təsirini göstərməyə başlayır. Xarici şəraitdən başqa yeni mədəniyyətdə insana psixoloji faktorlar da təsir edir: yerli sakinlərlə qarşılıqlı anlaşılmazlıq hissi və onlar tərəfindən rədd edilmə. Bunlar hamısı frustrasiya, depressiya, ümidsizlik, özünü itirmə hisslərinin yaranmasına gətirib çıxarır. Bu mərhələdə insan reallıqdan qaçmaq istəyir və daha çox öz yerliləri ilə ünsiyyət saxlayaraq öz təəssüratları ilə onlarla bölüşür.

Bu mərhələdə "mədəni şokun" simptomları kritik nöqtəyə çata bilər, bu da müxtəlif xəstəliklər və tam çarəsizlik hissində ifadə olunur. Yeni mühitə uğurla adaptasiya olunmayanlar isə vaxtından əvvəl öz vətəninə qayıdırlar.

Lakin çox vaxt yad ölkəyə gələnlər ətrad mühitdən sosial yardım alırlar və onların köməyi ilə mədəni fərqləri aradan qaldıra bilirlər- dili öyrənirlər, yerli mədəniyyətlə tanış olurlar və s. Bu mərhələdə depressiya yavaş-yavaş nikbinliklə, inam və razılıq hissi ilə əvəz olunur. İnsan özünü cəmiyyətin həyatına daha da uyğunlaşmış və inteqrasiya olunmuş hiss edir.

Bu mərhələ tam və uzunmüddətli adaptasiya ilə xarakterizə olunur, yəni mühitin tələblərinə cavab olaraq fərdin stabil dəyişiklikləri başa düşülür. İdealda adaptasiya prosesi mühit və fərdin qarşılıqlı uyğunlaşmasına gətirib çıxarır. Uğurlu adaptasiya situasiyasında onun səviyyəsi fərdin öz vətənində adaptasiya səviyyəsi ilə eyni olmalıdır.

Lakin çox uğurla adaptasiya olunmuş insanların iztirabları vətənə döndükdən sonra da davam edə bilər. Çünki onlar "readaptasiya" dövründən keçməlidirlər, "qayıdış şoku" keçirməlidirlər. Əvvəl onlar yüksək əhval-ruhiyyədə olurlar, dostların və qohumların görüşlərinə şad olurlar, öz ana dilində danışmaq imkanından sevinirlər, sonralar isə təəccüblə dərk edirlər ki öz doğma mədəniyyətin xüsusiyyətləri onlara qəribə gəlir.

Çoxsaylı empirik tədqiqatlar bu mərhələlərinin universallığına şübhə ilə yanaşmışdılar. Çünki, insanlar yeni mədəni mühitə düşdükdə mütləq olaraq bu mərhələlərin hamısından keç-

mirlər. "Mədəniyyət sarsıntısını" bütün insanlar keçirmir, bəziləri, məs. turistlər öz doğma yerlərinə daha tez qayıdırlar. Bəziləri isə mədəniyyət sarsıntısının simptomlarını hissi edən kimi öz vətəninə dönürlər və vətənə qayıdış da həmişə travmatik olmur.

Yeni mədəni mühitə adaptasiya prosesinə bir çox faktorlar təsir göstərir. Bu faktorları fərdi və qrup faktorlara bölmək olar.

Birinci tip faktorlara aid edirlər:

Fərdi fərqlər – demoqrafik və şəxsi.

Adaptasiya prosesinə yaş çox güclü təsir göstərir. Balaca uşaqlar daha tez və uğurla uyğunlaşırlar, məktəblilər üçün isə bu proses çətinləşir – çünki sinifdə xarici görünüş, dil, ədaları, hətta fikirləri ilə öz yoldaşlarına oxşamalıdırlar. Mədəni mühitin dəyişilməsi yaşlı insanlar üçün ən ağır bir sınaq olur. Bir çox psixoterapevt və həkimlərin fikrincə, yaşlı emiqrantlar yad mədəniyyətə tamamilə uyğunlaşa bilmirlər.

Kişilərə nisbətən qadınlar adaptasiya prosesində daha çox problemlərlə üzləşirlər. Lakin belə tədqiqatların obyektləri ənənəvi mədəniyyətlərdən olan qadınlar idi və onlarda adaptasiya prosesinə təhsil səviyyələri və peşə təcrübəsi təsir göstərmişdir. Məs, amerikalılarda cinsi fərqlər müşahidə olunmayıb, hətta onlarda qadınlar daha tez yad mədəniyyətə adaptasiya olunurlar.

Adaptasiyanın uğurlu olmasına təhsil də öz təsiri göstərir: nə qədər ki təhsil alidir, o qədər də "mədəni şokun" simptomları az olacaq. Demək olar ki, yüksək intellektual və ali təhsilli cavan-lar daha uğurla adaptasiya olunurlar.

Fərdin həyat təcrübəsi.

Miqrantların dəyişikliyə hazırlığı da çox böyük rol oynayır. Əgər onlarda adaptasiyaya motivasiya varsa, bir çox hallarda onlar dəyişikliklərə daha həssas olacaqlar (məs, xaricdə oxuyan tələbələrin məqsədi – diplom almaq və vətənə döndükdə yüksək prestijli işə düzəlmək. Bu məqsədə görə onlar müxtəlif çətinliklərə dözə bilirlər).

Hər hansı bir ölkənin tarixi, mədəniyyəti, həyat, yaşam tərzi ilə ilkin tanışlıq da adaptasiya prosesinə təsir göstərir. Uğurlu adaptasiyanın ilk addımı – ölkənin dilini bilmək. Bu əlacsızlıq və asılılıq hissini azaldır və ölkə "sahiblərinin" hörmətini qazandırır.



Adaptasiya prosesinin uğurlu keçməsinə təsir edən ən vacib faktorlarından biri də yerli sakinlərlə dostluq əlaqələrin yaradılmasıdır. Yerli sakinlər arasında çoxlu dostları olan insanlar daha çox informasiya əldə etmiş olurlar.

Adaptasiya prosesinə təsir edən qrup faktorları içərisində qarşılıqlı əlaqədə olan mədəniyyətlərin xüsusiyyətlərini qeyd etmək lazımdır:

Mədəniyyətlərarası oxşarlıq və fərqlər dərəcəsi.

Çoxsaylı tədqiqatların nəticələri göstərir ki, mədəniyyət sarsıntısının təzahür dərəcəsi mədəni distansiya (məsafə) ilə müsbət korrelyasiya təşkil edir. Yəni nə qədər ki yeni mədəniyyət öz doğma mədəniyyətə bənzəyir, adaptasiya prosesi bir o qədər də az travmatik olacaq. Babiker mədəni distansiya indeksini təklif etmişdir. Bu indeksə dil, din, ailə strukturu, təhsil səviyyəsi, iqlim, qida, geyim və s. daxil etmişdir.

Adaptasiya prosesinə obyektiv mədəni distansiyadan başqa digər faktorlarda təsir göstərir:

- iki xalqın münasibətləri arasında münaqişə, müharibə, qenosidlərin olub və ya olmaması;
- ev sahibi ölkənin xüsusiyyətləri ilə tanışlığın dərəcəsi və dil səriştəliyi;
- statusların bərabərliyi və ya bərabərsizliyi və ya mədəniyyətlərarası əlaqələrdə ümumi məqsədlərin olmaması.

Doğma mədəniyyətin xüsusiyyətləri

Ənənələri çox güclü olan və davranışları ritual laşmış ölkənin nümayəndələri çətin adaptasiya olunurlar. Bu Yaponiya, Koreya, Çin, Cənub-Şərqi Asiya vətəndaşlarıdır.

Çox vaxt "böyük dövlətlərin" nümayəndələri pis adaptasiya olunurlar, çünki onlara xas olan təkəbbürlük imkan vermir ki, onlar başqalarını öyrənsinlər. Bu ölkələrin sakinləri hesab edirlər ki, onlar yox, başqaları onları öyrənməlidirlər. Məs, rus

və amerikalılar öz dillərindən başqa dil öyrənmək istəmirlər, lakin kiçik dövlətlərin sakinləri bir çox xarici dilləri öyrənməyə üstünlük verirlər.

Xarici ölkənin xüsusiyyətləri, xüsusilə gəlmələrə təsir etmə üsulları: onları assimilyasiya etməyə və ya mədəni fərqliliyə tolerantlıq nümayiş etdirməkdən. Məs, yaponlar gəlmələrdən çox vaxt uzaqlaşırlar, qaçırlar.

Qrup və fərdlər üçün mədəniyyətlərarası əlaqələrin nəticələri

Mədəniyyət sarsıntısı və mədəniyyətlərarası adaptasiya tədqiqatlarına uzun müddət klinik aksent xas idi. Lakin son zamanlar dünya sosial psixologiyasında bu problemi etnoslararası və mədəniyyətlərarası münasibətlərin nəzərə almaqla dərindən təhlil etmək barəsində fikirlər söylənilmişdir.

Boçner qrup üçün mədəniyyətlərarası əlaqələrin nəticələrini 4 ümumi kateqoriyalarına aid edib:

- qenosid, yəni qarşı qrupun məhv edilməsi
- assimilyasiya, yəni dominant qrupun adət, norma və inamların könüllü və ya məcburi tədricən qəbul edilməsi
- seqreqasiya , yəni qrupların ayrı inkişaf kursu
- inteqrasiya, yəni cəmiyyətə birləşmə prosesində qrupların öz mədəni identikliyini qoruyub saxlamaq.

Bu modelin müəllifi fərdlər üçün də mədəniyyətlərarası əlaqələrin mümkün nəticələrini göstərmişdir.

Adaptasiya prosesində "qaçaq" – yad mədəmiyyətin xeyrinə öz mədəniyyətindən imtina edir; "şovinist" – doğma mədəniyyətin xeyrinə yad mədəniyyətindən imtina edir; "marqinal" – iki mədəniyyət arasında tərəddüd edir; "vasitəçi" –iki mədəniyyəti sintez edir.

Oxşar konseptual sxemi Berri də təklif etmişdir. Onun fikrincə, həm fərd, həm də qruplar 4 strategiyadan istifadə edə bilərlər. Bunları akkulturasiya strategiyaları adlandırmışdır.



- inteqrasiya – qarşılıqlı əlaqədə olan qruplar və onların nümayəndələri öz mədəniyyətini qoruyub saxlayırlar, eyni zamanda bir-biri ilə sıx münasibətlər yaradırlar.
- assimilyasiya – qrup və onun üzvləri öz mədəniyyətlərini itirirlər, amma digər mədəniyyətlə əlaqələri saxlayırlar
- separatizm - qrup və onun üzvləri öz mədəniyyətini saxlamaqla digər mədəniyyətlərdən imtina edirlər
- marginalizasiya – qrup və onun üzvləri öz mədəniyyətlərini itirirlər, amma digər mədəniyyətlərlədə sıx əlaqə yaratmırlar.

Bu modellərin müəllifləri uğurlu adaptasiya yad mədəniyyətlə assimilyasiya olmaması fikri ilə həmrəydilər. Bu nəinki yeni mühitə sosial və emosional uyğunlaşmadır, çünki insan yeni cəmiyyətdəki həyata yaxşı uyğunlaşmış ola bilər. Mədəniyyətlərarası adaptasiya yeni mədəniyyətə qoşulma, onun norma, dəyərləri və davranış modellərinin tədricən mənimsənilməsidir. Bununla yanaşı əsl adaptasiya hər hansı bir mədəniyyətə öz mədəniyyətinin zənginliyini itirməmək şərtilə sosial və psixoloji inteqrasiyasıdır .

## Mədəniyyətlərarası qarşılıqlı əlaqələrə hazırlıq

Fərdlərin mədəniyyətlərarası qarşılıqlı əlaqələrə hazırlıq təlim proqramların hazırlanmasından ibarətdir. Təlim proqramların hazırlanmasına maarifləndirmə, istiqamətləndirmə, instruktaj və treninqlər daxil edilir.

Maarifləndirmənin məqsədi – yeni mədəniyyət, etnos haqqında biliklərin əldə edilməsidir (ölkənin tarixi, coğrafiyası, adət-ənənələri və s.).

İstiqamətləndirmənin məqsədi – insanı yeni ölkənin xüsusiyyətləri ilə tez məlumatlandırmaqdır.

İnstruktaj müxtəlif problemlərə geniş baxışı təmin edir və ya hansı ayrı-ayrı aspektlərə diqqətini cəmləşdirir.

Treninq – digər qrup üzvləri ilə vasitəsiz qarşılıqlı əlaqələr yaratmağa kömək edir. Hər hansı bir trening proqramı bir neçə suallara cavab verir – yeni mühitdə insanlarla əlaqələri necə yaratmaq olar, yad mədəniyyətin norma və dəyərlərini necə mənimsəmək olar və s.



## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Bayramov Ə.S, Əlizadə Ə.Ə. Sosial psixologiya (yenidən işlənmiş, əlavələr edilmiş II nəşr) Bakı 2003
2. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri, Bakı, 1981
3. Bayramov Ə.S. Psixoloji düşüncələr, Bakı, 1994.
4. Bayramov Ə.S. «Kitabi-Dədə Qorqud» dastanlarında etnik psixoloji xüsusiyyətlərin inikası, Bakı, 2000.
5. Bayramov Ə.S. Etnik psixologiya, Bakı, 2001.
6. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosisal psixologiyanın aktual problemləri, Bakı, 1986.
7. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya, Bakı, 2002.
8. Əliyev B.H. Milli lider dövlətçiliyin və demokratik inkişafın təzahürü kimi. Psixologiya jurnalı, Bakı, 2003, №2.
9. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi, Bakı 1986.
10. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri, Bakı, 1998.
11. Əlizadə H.Ə. Sosisal pedaqogikanın aktual məsələləri, Bakı, 1998.
12. Məmmədov İ.Ə. Məktəbdə psixoloji xidmət: psixoloji praktikanın elmi-metodik problemləri və yaradılması təcrübəsi, Bakı, 2002.
13. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları, Bakı 2003.

14. Айзенк Х. Эванс Д., Энциклопедия психологических тестов. М. 1997.
15. Алиев Б.Г. Социально-психологические проблемы личности несовершеннолетних правонарушителей. Баку, 1996.
16. Алиев Б.Г. Методология социально-психологического исследования. Баку, 1999.
17. Андреева Г.М. Социальная психология. М., 1998.
18. Аникеева Н.К. Учителю о психологическом климате в коллективе. 1983.
19. Антипина Г.С. Теоретико-методологические проблемы исследования малых социальных групп. ЛГУ, 1982.

20. Эйкерт Р., Аронсон Э., Уилсон Т. Социальная психология: психологические законы поведения человека в социуме. Санкт-Петербург, 2002.
21. Байрамов А.С. Психологические этюды. Баку, 1989.
22. Берн Э. Трансакционный анализ и психотерапия. Санкт-Петербург, 1994.
23. Битянова М.Р. Социальная психология. М., 2001.
24. Бодалев А.А. Восприятие и понимание человека человеком. МГУ, 1982.
25. Бодалев А.А. Личность и общение. 1983.
26. Божович Л.И. Личность и ее формирование в детском возрасте. М., 1968. »
27. Вайсман Р.С. К вопросу о детерминации межличностных отношений. «Новые исследования в психологии и возрастной физиологии». 1971. №1.
28. Василюк Ф.Е. Психология переживания. МГУ, 1984.
29. Выготский Л.С. Собр. Соч. т.1 М., 1982.
30. Выготский Л.С. Собр. Соч. т.2 М., 1982.
31. Выготский Л.С. Собр. Соч. т.6 М., 1984.
32. Головаха Е.И. Структура групповой деятельности. Киев, 1979.
33. Гомелаури М.Л. К вопросу о значении совместимости аттитюда и роли для возникновения установки. // «Материалы IV Всесоюзного съезда психологов», Тбилиси, 1971.
34. Гомелаури М.Л. Взаимоотношение роли и аттитюда в социальном поведении личности // « Вопросы инженерной и социальной психологии». Тбилиси, 1974.
35. Горянина В.А. Психология общения. М., 2002.
36. Горячева А.И., Макаров М.Г. Общественная психология. Л., 1979.
37. Десев Л. Психология малых групп. М., 1979.
38. Джамгаров Т.Т., Румянцева В.И. Лидерство в спорте. М., 1983.
39. Ильин Е.П. Мотивация и мотивы. Санкт-Петербург, 2000.



40. Кайдалов Д.К., Суименко Е.И. Психология единоначалия и коллегиальности. 1979.
41. Ковалев А.Г. Курс лекций по социальной психологии. М., 1972.
42. Ковалев Г.А., Радзиховский Л.А. Общение и проблема интериоризации. // «Вопросы психологии», 1985, №1.
43. Коломинский. Я.Л. Психология общения. М., 1974.
44. Коломинский. Я.Л. Психология взаимоотношений в малых группах. Минск, 1976.
45. Кон И.С. Социология личности. М., 1967.
46. Кон И.С. В поисках себя. М., 1984.
47. Косолапов. Н.А. Социальная психология и международные отношения. М., 1983.
48. Крайг Г. Психология развития. Санкт-Петербург, 2000.
49. Кузьмин Е.С. Основы социальной психологии. ЛГУ, 1967.
50. Левыкин И.Т. Теоретические и методологические проблемы социальной психологии. М., 1975.
51. Ломов Б.Ф. Методологические и теоретические проблемы психологии. М., 1984.
52. Майерс Д. Социальная психология. Санкт-Петербург, 1997.
53. Майерс Д. Социальная психология. Секреты влияния. Санкт-Петербург, 2002.
54. Маклаков А.Г. Общая психология. Санкт-Петербург, 2000. Маслоу А.Г. Мотивация и личность. Санкт-Петербург, 1999.
55. Мартенс Р. Социальная психология и спорт. М., 1979. Методологические проблемы социальной психологии. М., 1975.
56. Надирашвили Ш. Понятие установки в общей и социальной психологии. Тбилиси, 1974.
57. Немов Р.С. Социально-психологический анализ эффективной деятельности коллектива. М., 1984.
58. Пайне Э., Маслач К. Практикум по социальной психологии. Санкт-Петербург, 2000.
59. Петровский А.В. Личность. Деятельность. Коллектив. М., 1982.

60. Петровский А.В., Шпалинский В.В. Социальная психология коллектива. М., 1978.
61. Пономарев Я.А. Методологическое введение в психологию. М., 1983.
62. Поршнев Б.Ф. Социальная психология и история. М., 1972.
63. Психология. Учебник для гуманитарных вузов. Санкт-Петербург, 2001.
64. Психология личности в малых группах. ЛГУ, 1977.
65. Психологическая теория коллектива. М., 1979.
66. Пэнто Р., Гравитц М. Методы социальных наук. М., 1972.
67. Реан А.А., Коломинский Я.Л. Социальная педагогическая психология. Санкт-Петербург, 1999.
68. Робер М.А., Тильман Ф. Психология индивида и группы. М., 1988.
69. Свенцицкий А.Л. Социально-психологические проблемы управления. ЛГУ, 1975.
70. Сеидов С.И. Социальная психология творчества. Баку, 1994.
71. Сеидов С.И. Психология менеджмента. Баку,2000.
72. Стиль человека: психологический анализ. М.,1998
73. Социальная психология и общественная практика. М., 1985.
74. Социальная психология личности. Л., 1974
75. Социально-психологические проблемы научно-технического прогресса. Л., 1982.
76. Столин В.В. Психология самосознания. МГУ, 1983.
77. Столин В.В., Голосова Н.И. Факторная структура эмоционального отнощения человека к человеку. // «Психологический журнал», 1984, т.5., № 2.
78. Сысенко В. Супружеские конфликты. М., 1983.
79. Теоретические и методологические проблемы социальной психологии. МГУ, 1977.
80. Теоретические и прикладные исследования психологического воздействия. Иваново, 1982.
81. Тернер Дж. Структура социологической теории. М., 1985. Титов Ю.В. Эффект группы у растений. Л., 1978
82. Шедровицкий Г. Построение науки педагогики. // «Народное образование» 1993, № 4.
83. Щепаньский Я. Элементарные понятия социологии. М., 1969.



84. Шепель В.М. Руководитель и подчиненный: конфликтные ситуации и их решения. М., 1972.
85. Шибутани Т. Социальная психология. М., 1969.
86. Яноушек Я. Методологические проблемы анализа коммуникативного общения. // «Тезисы II Международного коллоквиума по социальной психологии» Тбилиси. 1979.
87. Ярошевский М.Г. Психология в XX столетии. М., 1974.
88. https://eksisozluk.com/konformizm--83504
89. Wertsh, James, V., Rio, Pablo and Alvarez, Amelia. *Sociocultural Studies of Mind* (1995)
90. http://psychology.about.com/od/cognitivepsychology/p/intelligence.htm
91. Jump up↑ Colman, A. (2001). Oxford Dictionary of Psychology. Oxford. University Press
92. Educational Leadership Vol. 54, No. 6, March 1997 How Children Learn What Does It Mean to Be Smart? By Robert J. Sternberg
93. Broom, Sarah M. (Aug 30, 2004). "Milestones". TIME.
94. Macionis, John, and Linda Gerber. "Chapter 3 - Culture." Sociology. 7th edition ed. Toronto, ON: Pearson Canada Inc., 2010. 54. Print.
95. https://az.wikipedia.org/wiki/Koqnitivlik
96. https://az.wikipedia.org/wiki/Milli_xarakter
97. https://az.wikipedia.org/wiki/Kateqoriya:Sosial_konstruksionizm
98. https://az.wikipedia.org/wiki/Kateqoriya:Psixologiya_n%C9%99z%C9%99riyy%C9%99l%C9%99ri
99. https://az.wikipedia.org/wiki/K%C3%BCbler-Ross_modeli
100. http://www.psych.utoronto.ca/users/reingold/courses/intelligence/cache/sternext.html